RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 259 (8282) CÜMƏ, 22 noyabr 2019-cu il

Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur

www.azerbaijan-news.az



# Sumqayıt bu gün Ulu Öndərin arzuladığı kimi, güllü-çiçəkli, işıqlı və abad bir şəhərə çevrilib



## Prezident İlham Əliyevin Sumqayıt şəhərinə səfəri

## Ulu Öndərin abidəsini ziyarət

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Sumqayıt şəhərində səfərdə olub.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Ümummilli Lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.

Şəhər icra hakimiyyətinin başçısı Zakir Fərəcov Sumqayıtda görülən işlər haqqında məlumat verdi.

Prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.



## Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Rusiyaya rəsmi səfəri

## Moskvada Naməlum Əsgərin məzarını ziyarət

Rusiya Federasiyasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva noyabrın 21-də Moskva şəhərindəki Aleksandr bağında Naməlum Əsgərin məzarını ziyarət edib.

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyeva Rusiya paytaxtında Kremlin divarı yanındakı Aleksandr bağına gəldi.

Moskva şəhərinin hərbi komendantı Yevgeni Seleznyov Azərbaycanın Birinci vitse-prezidentinə raport verdi.

Birinci vitse-prezident Mehriban Əliyeva Naməlum Əsgərin məzarını ziyarət edərək əbədi məşəl önünə əklil qoydu.

Azərbaycanın Dövlət Himni səsləndirildi.

Sonra fəxri qarovul dəstəsinin keçidi oldu.





## Yeni Azərbaycan Partiyasının yaradılmasının 27-ci ildönümünə həsr olunan təntənəli toplantı keçirilib

Noyabrın 21-də Yeni Azərbaycan Partiyasının (YAP) yaradılmasının 27-ci ildönümünə həsr olunan təntənəli toplantı keçirilib.

AZƏRTAC xəbər verir ki, YAP İcra Katibliyində keçirilən tədbirdə çıxış edən Baş Nazirin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-İcra katibi Əli Əhmədov partiyanın keçdiyi şərəfli yoldan danışıb. O bildirib ki, Yeni Azərbaycan Partiyasının yaradılması 1990-cı illərin əvvəlindəki gərgin ictimai-siyasi şəraitdən qaynaqlanır. Həmin dövrdə baş verən məlum hadisələr ölkəni dərin böhranlı vəziyyətə gətirib çıxarmışdı. Ozamankı hakimiyyətin yarıtmaz fəaliyyəti ölkədəki vəziyyəti daha da gərginləşdirirdi. Həmin dövrdə bütün diqqət Ulu Öndər Heydər Əliyevə yönəlmişdi. Sevindirici haldır ki, tarix Ümummilli Liderə və onun yaratdığı partiyaya etimadı təsdiq etdi. Qısa zamanda ölkədə siyasi sabitlik təmin edildi, atəşkəsə nail olundu, insanların sosial rifahının yüksəlməsi istiqamətində mühüm addımlar atıldı. Partiya yarandıqdan az sonra iqtidara gəldi və bugünkü möhtəşəm uğurlarımız üçün münbit şərait yarandı.

YAP sədrinin müavini qeyd edib ki, bu gün Azərbaycan dünyada öz yeri, nüfuzu olan dövlət kimi tanınır. Azərbaycan hazırda dünyada ən sabit və təhlükəsiz ölkələrdəndir. 1990-cı illərin əvvəlində dağılmaq təhlükəsi ilə üz-üzə olan Azərbaycan indi dünyanın ən uğurlu gənc dövlətlərindən biri kimi qəbul olunur.

Ardı 7-ci səh.

◆ Müəllifi İlham Əliyevdir

## İlham Əliyevin növbəti qlobalmiqyaslı layihəsi reallığa çevrilir

### 45 milyard dollarlıq "Cənub qaz dəhlizi"nin bel sütunu olan TANAP istifadəyə tam hazırdır




Tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan növbəti böyük uğurun astanasındadır. Dəyəri 40 milyard dollara yaxın, uzunluğu 3 min 500 kilometr olan və 6 ölkədən keçməklə Azərbaycanı Bakıdan İtaliya sahilləri ilə birləşdirən kəmər sistemi - "Cənub qaz dəhlizi" layihəsinin daha bir seqmenti - Trans-Anadolu Təbii Qaz Boru Kəmərinin - TANAP-ın ikinci fazası istifadəyə tam hazır vəziyyətə gətirilib.

Ardı 9-cu səh.

**TANAP - texniki parametrlər**

- Uzunluğu 1850 kilometr;
- Boru kəmərinin diametri 56 və 48 düym;
- Ümumi xərcləri 6,5 milyard dollar;
- Kəmər 20 vilayət, 67 qəsəbə, 600 kənddən keçir;
- Əskişəhər hissəsinin uzunluğu 1350 kilometr;
- Türkiyə-Yunanıstan sərhədi boyunca uzunluğu 480 kilometr;
- Ən yüksək nöqtəsi 2760 metr;
- Ən dərin nöqtəsi dəniz səviyyəsindən 65 metr;
- 7 əsas Kompressor Stansiyası;
- 12 Təmizləyici Tərtibatın Buraxılma Kamerası;
- 49 Bağlayıcı Armatur Stansiyası;
- 4 Qaz Sərfini Ölçmə Stansiyası;
- Layihədə hər birinin uzunluğu 13 metrə olan 150 min ədəd borudan istifadə edilib;
- Layihədə ümumilikdə 1,2 milyon ton boru işlənib;
- İlkin ötürücülük qabiliyyəti ildə 16 milyard kubmetr qazdır;
- Kəmərin illik maksimum ötürücülük qabiliyyəti 31 milyard kubmetr qazdır.

## Prezidentə inam və etimad daha da artıb

### Son sosial sorğu da bunu təsdiqləyir

Bu ilin oktyabr ayı Azərbaycanın olduqca mühüm və tarixi beynəlxalq uğurları ilə yadda qaldı. Belə ki, həmin ay Soçidə "Valday" Diskussiya Klubunun plenar iclasında və Aşqabadda MDB Dövlət Başçıları Şurasının Sammitində Prezident İlham Əliyev tərəfindən Ermənistana güclü siyasi-diplomatik zərbə vuruldu. Eyni zamanda, ötən ay Bakıda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının və Qoşulmama Hərəkatının Zirvə görüşləri respublikamızın beynəlxalq imicinin daha da yüksəlməsi baxımından mühüm siyasi hadisələr kimi tarixə düşdü.

### "Qarabağ Azərbaycandır və nida işarəsi" vətənpərvərlik hissini gücləndirib

Bütün bunlar ölkə əhalisi tərəfindən də yüksək qiymətləndirilir. Sosial Tədqiqatlar Mərkəzinin ictimai rəyin öyrənilməsi məqsədilə keçirdiyi sorğu bunu təsdiqləyir. "Prezidentin fəaliyyəti ictimai rəydə" adlı hesabat göstərir ki, İlham Əliyevin oktyabr ayındakı fəaliyyəti onun ictimai rəydəki pozitiv imicini daha da gücləndirib. Ümumilikdə rəyi soruşulanların 77,5 faizi ölkə Prezidentinə etimadının daha da artdığını bildirib.

Ardı 11-ci səh.

# Sumqayıt bu gün Ulu Öndərin arzuladığı kimi,

## Prezident İlham Əliyev Sumqayıtın 70 illiyinə həsr olunmuş tədbirdə iştirak edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Sumqayıt Dövlət Dram Teatrında şəhərin 70 illiyinə həsr olunmuş tədbirdə iştirak edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı tədbirdə geniş nitq söylədi.






## Prezident İlham Əliyevin nitqi

- Əziz sumqayıtlılar, əziz dostlar.

Mən sizi və bütün sumqayıtlıları, eyni zamanda, bütün Azərbaycan xalqını Sumqayıtın 70 illiyi münasibətilə ürəkdən təbrik edirəm, sizə yeni uğurlar, yeni qələbələr arzulayıram.

Bu gün Sumqayıt müasir, böyük sənaye potensialına malik olan, sürətlə inkişaf edən, gündən-günə abadlaşan gözəl şəhərdir. Əldə edilmiş bütün nailiyyətlər münasibətilə sumqayıtlıları təbrik edirəm.

Sumqayıtın qədim tarixi var. Ancaq şəhər kimi Sumqayıt 70 il bundan əvvəl formalaşdı. 1949-cu il noyabrın 22-də Nazirlər Sovetinin qərarı ilə Sumqayıt şəhəri yaradılmış və Sumqayıtın sürətli inkişafı başlamışdı. Sumqayıt sənaye şəhəri kimi formalaşdı, kimyaçılar şəhəri kimi inkişaf etdi. Sumqayıtda bir çox sənaye müəssisələri, yeni iş yerləri yaradılmışdı. Azərbaycanın müxtəlif bölgələrindən Sumqayıta kadrlar gəlməyə başlamışdı. Eyni zamanda, Sovet İttifaqının digər respublikalarından gələnlər Sumqayıtda işlə təmin olunmuşdular.

Ancaq əfsuslar olsun ki, şəhərin yaranmasının birinci mərhələsini əhatə edən dövr ərzində Sumqayıtda ekoloji tarazlığa fikir verilməmişdir, ekoloji tarazlıq pozulmuşdur. Sumqayıt o illərdə Sovet İttifaqında ekoloji cəhətdən ən qeyri-təmiz şəhər kimi fəaliyyət göstərirdi. Əlbəttə ki, bu, insanların sağlamlığına zərər vururdu, ekoloji tarazlıq pozulmuşdu. Ancaq 1969-cu ildə Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbər seçiləndən sonra ekoloji vəziyyətə diqqət yetirməyə başlamışdı. Mən bilirəm ki, Heydər Əliyev Sumqayıtın ekoloji vəziyyətinin yaxşılaşdırılması üçün mərkəzi orqanlara dəfələrlə müraciət etmişdi, müvafiq tədbirlər görülmüşdü, təmizləyici qurğular quraşdırılmışdı və 1970-ci illərdə şəhərin ekoloji vəziyyəti yaxşılaşdırılmışdı, ancaq standartlara hələ də tam cavab vermirdi. Ancaq bu gün biz görürük ki, Sumqayıt ekoloji cəhətdən təmiz bir şəhərdir, havası təmizdir, təbiəti çox gözəldir. Əminəm ki, bu istiqamətdə bundan sonra da atılacaq addımlar Sumqayıtı daha da gözəlləşdirəcək.

Heydər Əliyevin fəaliyyəti dövründə Sumqayıt müasir sənaye şəhəri kimi inkişaf etdi, burada yeni yaşayış binaları tikildi, sosial obyektlər yaradıldı, parklar, xiyabanlar salındı, ağaclar əkildi və Sumqayıt Sovet İttifaqı müstəvisində mühüm ümumittifaq əhəmiyyətli sənaye şəhəri kimi inkişaf etmişdir. 1982-ci ildə Ulu Öndər Heydər Əliyev Moskvaya gedəndən sonra Azərbaycanın hər bir yerində olduğu kimi, Sumqayıtda da tənəzzül dövrü başlamışdır. Ovaxtkı respublika rəhbərliyi öz məsuliyyətini tam dərk etmirdi, proseslərə nəzarət etmirdi və bunun nəticəsində Azərbaycanda inkişaf, demək olar ki, getmirdi, durğunluq dövrü başlamışdı. Heydər Əliyev Siyasi Büronun üzvü və Sovet İttifaqının Nazirlər Soveti sədrinin birinci müavini kimi Azərbaycana daim kömək və diqqət göstərirdi, buna baxmayaraq, respublikada işlər tənəzzülə uğrayırdı. Xüsusilə 1985-ci ildən sonra Sovet İttifaqında dırnaqarası "yenidənqurma" dövrü başlamışdı. Həm Sovet İttifaqında çox mənfi proseslər getməyə başlamışdı, o cümlədən Azərbaycanda. Təsadüfi deyil ki, dırnaqarası "yenidənqurma" siyasəti başlanandan 6 il sonra Sovet İttifaqı kimi nəhəng dövlət çökdü.

1985-ci ildə Azərbaycan böyük çətinliklərlə üzləşmişdi. Çünki həm iqtisadi sahədə durğunluq hökm sürürdü, eyni zamanda, erməni millətçiləri baş qaldırmışdı, həm Dağlıq Qarabağda, həm də respublikamızın digər yerlərində, o cümlədən Sumqayıtda. Ulu Öndər Heydər Əliyevin dövründə Dağlıq Qarabağda azərbaycanlı əhalinin faiz nisbəti kəskin artmışdır, 2 dəfə artmışdır və azərbaycanlı əhali 30 faizə çatmışdır. Əgər Heydər Əliyev 1982-ci ildən sonra Moskvaya getməsəydi və Azərbaycanda qalsaydı, bəlkə də 10 il ərzində artıq orada azərbaycanlı əhali 50 faizə çatacaqdı. Dağlıq Qarabağda erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana vermək haqqında məsələ qaldırırdılar. Əfsuslar olsun ki, Azərbaycan Respublikasının rəhbərliyi bu məsələyə çox biganə yanaşırdı, öz məsuliyyətini dərk etmirdi və beləliklə, vəziyyəti nəzarətdən buraxmışdı. Eyni zamanda, erməni millətçiləri Sumqayıtda da yuva qura bilmişdilər və burada da xoşagəlməz proseslərə artıq təkan verilmişdi. Bildirməliyəm ki, Sovet İttifaqının süquta uğramasının bir neçə səbəbi var. Onların ən başlıcası odur ki, iqtisadi münasibətlər düzgün qurulmamışdı, planlı iqtisadiyyat özünü doğrultmamışdı. Sovet İttifaqının inkişafı 1980-ci illərdə daha çox neft amilinə söykənirdi və neftin qiyməti dünya bazarlarında kəskin düşəndən sonra gəlirlər də azaldı və bu gəlirləri başqa sahələrdən əldə edilən mənfəət hesabına formalaşdırmaq mümkün olmadı. Ona görə, əlbəttə ki, iqtisadi amil birinci rol oynayırdı, eyni zamanda, 1985-ci ildən sonra Sovet İttifaqında milli siyasət sahəsində çox kobud səhvlər buraxılmışdır. Sovet İttifaqını böyük, çoxmillətli ölkə kimi ayaqda saxlayan o cümlədən milli siyasət idi. Müttəfiq respublikalarda yerli milli kadrların qabağa çəkilməsi adi təcrübə idi. 1985-ci ildən sonra bu sahəyə böyük zərbə vuruldu. Biz yaxşı xatırlayırıq ki, o vaxt xüsusilə müsəlman respublikalarına münasibət çox mənfi idi. Müsəlman respublikalarının rəhbərlərinə qarşı qarayaxma kampaniyaları aparılırdı. Ümumittifaq mətbuatında bu respublikalar haqqında ancaq mənfi materiallar dərc edilirdi. Bu respublikalara mərkəzdən istintaq qrupları göndərilmişdi və elə bir rəy yaradılmışdı ki, Orta Asiya respublikalarında və Azərbaycanda vəziyyət bərbaddır, vəziyyət kritik həddə çatıb və o respublikaları idarə edənlər vəzifə borcunu yerinə yetirə bilmirlər. Əlbəttə ki, hər bir respublikada pozuntular da, nöqsanlar da olmuşdur, ancaq digər respublikalarda da bunlar var idi. Nə üçün bu istintaq qrupları Ermənistana, Gürcüstana, Ukraynaya, Moldovaya və digər respublikalara göndərilmirdi? Ancaq Orta Asiya respublikalarına və Azərbaycana göndərilirdi. Beləliklə, Sovet İttifaqının təməl sütunu olan milli siyasət artıq deformasiyaya uğramışdı.

Eyni zamanda, separatçılara imkan yaradıldı ki, onlar nəinki öz cəfəng fikirlərini səsləndirsinlər, həm də ictimai rəyə təsir etsinlər. O vaxt biz yaxşı xatırlayırıq ki, erməni millətçiləri, o cümlədən cəllad Balayan, Kaputikyan və digərləri azərbaycanlılara qarşı açıq-aydın etnik ayrı-seçkilik toxumları səpirdilər. Ümumittifaq mətbuatında bu barədə açıq söhbət gedirdi və ümumiyyətlə, Azərbaycana qarşı ədalətsiz münasibət göstərilirdi. Bütün bunlar 1987-ci ildən sonra baş vermişdir. Çünki 1987-ci ildə Heydər Əliyev bütün vəzifələrdən gedəndən sonra Azərbaycan hədəf seçildi. O dövrü təhlil edərkən bir daha görürük ki, bütün bu hadisələr erməni millətçilərinin və onların havadarlarının məkrli planının bir hissəsi idi. Baxın, 1985-ci ildən sonra Heydər Əliyev Qorbaçovun yarıtmaz siyasətinə qarşı açıq şəkildə çıxış etmişdi, buna görə ona qarşı kampaniya başlamışdı, həm mərkəzi mətbuat orqanlarında, həm də ki, Azərbaycanda. Burada da milli satqınlar mərkəzə donoslar yazmağa başlamışdılar. 1987-ci ildə Heydər Əliyev vəzifədən gedəndən sonra iki həftə keçməmiş erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana vermək haqqında beynəlxalq mətbuatda və sovet mətbuatında məsələ qaldırmışlar. Artıq Dağlıq Qarabağda separatçı meyillərə, elə bil ki, yaşıl işıq yandırıldı. Heydər Əliyev vəzifədən gedəndən 3 ay sonra Sumqayıt hadisələri baş vermişdir. Sumqayıt hadisələri də məkrli planın tərkib hissəsi idi. Plan ondan ibarət idi ki, Heydər Əliyev hakimiyyətdən getsin. Çünki onun Siyasi Büronun üzvü kimi fəaliyyəti erməni millətçilərə imkan vermirdi ki, məsələ qaldırsınlar. Onlar belə cəhdlər edirdilər, amma Heydər Əliyev bunun qarşısını layiqincə alırdı. Yəni plan onu vəzifədən uzaqlaşdırmaq və bu məqsədlə buradakı yerli satqınlar, xainlər vasitəsilə donos göndərmək, erməni millətçiləri tərəfindən məsələ qaldırmaq idi ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibində qala bilməz. Beləliklə, iğtişaş törətmək, hansı ki Sumqayıtda baş verdi və ondan sonra məsələ qaldırmaq ki, ermənilər Azərbaycanın tərkibində təhlükəsiz şəkildə yaşaya bilmirlər. Buna görə də Dağlıq Qarabağ Azərbaycandan ayrılıb Ermənistana birləşdirilməlidir. Bax, plan bundan ibarət idi və əfsuslar olsun ki, bu plan həyata keçdi.

Sumqayıt hadisələri erməni millətçilərinin təxribatı idi. Biz bunu açıq deməliyik. Çünki artıq neçə ildir ki, erməni millətçiləri Sumqayıt şəhərinə qara yaxmaq, ləkə vurmaq istəyirlər. Tamamilə əsassızdır və cəfəngdir. Tam məsuliyyətlə deyirəm ki, Sumqayıt hadisələrini törədən erməni millətçiləridir və erməni dəstələridir. Biz hamımız yaxşı bilirik ki, on nəfərə yaxın ermənini öldürən milliyyətcə erməni Qriqoryan və onun quldur dəstəsi idi. Sonra nə baş verdi? İstintaqı Moskvadan gəlmiş qrup aparırdı, yəni tam ədalətli aparırdı. Verilmiş bütün ifadələr, şahidlərin ifadələri, üzləşmələr sübut etmişdi ki, həmin o Qriqoryan erməni xalqının nümayəndələrini qətlə yetirmişdir. O, həbs edilir, bütün sübutlar təsdiq olunur. Ondan sonra o, cəza çəkmək üçün Ermənistana göndərilir və ancaq orada sərbəst buraxılır. Bax, sual yaranır. On nəfərə yaxın ermənini öldürən bir qatili Ermənistan niyə sərbəst buraxır? Ona görə buraxır ki, o, onların tapşırıqlarını icra edirdi. Sumqayıt hadisələrindən istifadə edib Azərbaycana qarşı qarayaxma kampaniyası daha geniş vüsət almışdı və nəticə etibarilə Dağlıq Qarabağda münaqişə baş vermişdi. Mən dəfələrlə bunu demişəm, əgər Heydər Əliyev o vaxt Azərbaycanda olsaydı, heç vaxt Dağlıq Qarabağ münaqişəsi baş verməzdi, heç vaxt torpaqlarımız işğal altına düşməzdi.

Ondan sonra bizi yeni, çox ağır sınaq və faciə gözləyirdi - Yanvar faciəsi. Hansı ki, yenə də Qorbaçov öz xalqına qarşı böyük cinayət törədərək dinc əhalini qırdırdı. Yüzdən çox günahsız insan həlak oldu. Azərbaycan xalqının qanı axıdıldı. Əfsuslar olsun ki, ovaxtkı Azərbaycan rəhbərliyi tamamilə iflic vəziyyətdə idi. O vaxt respublikaya rəhbərlik edən, antimilli siyasətlə fərqlənən Vəzirov respublikanı tərk edib hərbi təyyarə ilə Moskvaya qaçdı. Heç bir rəhbər işçi bu qanlı cinayəti qınamadı. Ancaq o vaxt pensiyada olan Heydər Əliyev ona qarşı çox çirkin kampaniya gedə-gedə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək, - mən də onun yanında idim, - öz səsini ucaltdı, bütün dünyaya Yanvar faciəsi haqqında məlumat verdi. Sovet İttifaqının rəhbərliyini qınadı, onların siyasətini pislədi və uzun illər xidmət etdiyi Kommunist Partiyasının sıralarını tərk etdi.

O vaxt Sovet İttifaqının dağılmasına hələ iki il vaxt var idi. Heç kimin ağlına gələ bilməzdi ki, bir gün Sovet İttifaqı dağılacaq. Yəni bu addımı atarkən Heydər Əliyev təcrübəli rəhbər kimi bilirdi ki, ona qarşı çox böyük təzyiqlər olacaq və nəinki təzyiqlər, onun hətta həyatı təhlükə altına düşə bilər. Belə də oldu. Sonrakı tarix bunu bir daha göstərdi, onun həbs edilməsi haqqında qərar verildi. Bakıya gəlməli idi, həmin gün onun yaxın tərəfdarı qətlə yetirildi. Ondan sonra onun səfəri təxirə salındı. Sonra Bakıya gəldi. Ovaxtkı rəhbərlik ona burada da yaşamağa imkan vermədi, Naxçıvana üz tutdu. Beləliklə, Azərbaycanın yeni dövrü başladı.

Bu gün, noyabrın 21-i Naxçıvanda Yeni Azərbaycan Partiyasının yaranması günüdür. Çünki o vaxt özünü demokrat adlandıran, hakimiyyəti qanunsuz yollarla zəbt etmiş satqın AXC-Müsavat hakimiyyəti imkan vermədi ki, Yeni Azərbaycan Partiyasının təsis qurultayı Bakıda keçirilsin. Vətənpərvər insanlar, Heydər Əliyevi dəstəkləyən insanlar, ziyalılar Naxçıvana gedib soyuq, işıqsız şəraitdə, - hər on dəqiqədən bir işıqlar kəsilirdi, - Yeni Azərbaycan Partiyasını təsis etdilər. Artıq Azərbaycanın yeni dövrü başlamışdı. Məhz Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağını dövlət bayrağı kimi ucaltdı və Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırdı ki, onlar da eyni addımı atsınlar. Onlara hələ bir neçə ay lazım oldu və artıq görəndə ki, Sovet İttifaqı çökür, ondan sonra bunu etdilər.

Biz bu tarixi yaddan çıxarmamalıyıq və gənclər bu tarixi bilməlidirlər. Bugünkü reallıqları düzgün təhlil etmək, bu reallıqlara düzgün qiymət vermək üçün biz bu acı dövrü yaddan çıxarmamalıyıq. Elə etməliyik ki, gənclər də bunu bilsinlər, hesab etməsinlər ki, bugünkü inkişaf, bugünkü tərəqqi göydən düşüb. Bilsinlər ki, biz buna qanımız, canımız bahasına nail olmuşuq. Biz tariximizin ən rüsvayçı səhifələrini də vərəqləməliyik. Ona görə ki, o rüsvayçı dövr təkrarlanmasın.

Bunu deyəndə, əlbəttə ki, mən ilk növbədə AXC-Müsavat dövrünü qeyd edirəm. 1992-ci ildə hakimiyyəti qanunsuz yollarla zəbt etmiş o antimilli dəstə Azərbaycanı uçuruma aparırdı. Azərbaycan əldən gedirdi. Yenicə bərpa edilmiş müstəqillik əldən gedirdi, ölkədə xaos, anarxiya, talançılıq, oğurluq, özbaşınalıq, böhran hökm sürürdü. Ermənilər orada torpaqlarımızı işğal edirdi, Xalq Cəbhəsi isə vətəndaş müharibəsinə start vermiş və Gəncə şəhərini bombalamağa başlamışdı. Vətəndaş müharibəsi ən ağır müharibədir. Çünki qardaş qanı axıdılır. Ona da getdilər ki, öz laxlamış hakimiyyətlərini qoruya bilsinlər. Görəndə ki, qoruya bilmirlər, Heydər Əliyevə müraciət etdilər ki, gəl bizi xilas elə. Yalvarırdılar, mən bunun şahidiyəm. Üç dəfə təyyarə göndərmişdilər ki, bizi xilas elə, çünki artıq gəlirdilər bunları öldürməyə, yaxud da ki, yıxmağa. Qaçıb gizləndilər, bəziləri guya vəzifələrini dondurdular. O vaxt belə cəfəng ifadələr işlədilirdi. Əgər Heydər Əliyev gəlməsəydi, həm Azərbaycan dağılacaqdı, həm də o antimilli AXC-Müsavat dəstəsi öz cəzasını alacaqdı. Yəni Heydər Əliyevin humanistliyi onları layiq olduqları bu cəzadan xilas etdi.

Başqa cür ola da bilməzdi. Çünki baxın, bizi kimlər idarə edirdi. İndi bu tarix yaddan çıxır, amma çıxmamalıdır. Baxın, Azərbaycan xalqı hansı rəzil dövrdə yaşayırdı. Baxın, kimlər idi. Mən bir daha deməliyəm ki, yaddan çıxmasın, gənclər də bilsin. Prezident elmi işçi, zəif, iradəsiz bir adam idi. Heç vaxt heç bir idarəyə rəhbərlik etməmişdi. Hətta kiçik bir idarənin rəhbəri olmamışdı. Sadəcə, küçələrdə, orada-burada çığırıb-bağırmaqla gəldi prezident oldu və ölkəni rüsvay elədi. Görün hansı kadrlar seçildi. İndi bunu təsəvvür etmək çətindir ki, - bağışlayın sözümə görə, - belə yaramaz adamlar Azərbaycana rəhbərlik edirdi. Baş nazir, - o da elmi işçi idi. O da heç bir dissertasiya müdafiə edə bilməmişdi. Hamı yaxşı bilir, indi bu, sirr deyil, mövsümi ticarətlə məşğul olan adam baş nazir təyin edildi. Məhz onun dövründə "otkat" sözü bizim lüğətimizə daxil edildi. Gəldi ki, ölkəni talan eləsin, onun sərvətini oğurlasın, tramvay xətlərini kəsdirsin, göndərsin İrana və pul əldə etsin. Bax bu, baş nazir idi. Parlamentin sədri, - o da elmi işçi idi. On bir il aspiranturada oxumuşdu. Təsəvvür edin, on bir il. Dissertasiyanı müdafiə edə bilməmişdi. Rəhmətlik akademik Ziya Bünyadovun onun haqqında dediklərini mən təkrarlamaq istəmirəm. Sadəcə olaraq bunu özümə rəva bilmirəm. Uğursuz aspirant, biliksiz, savadsız adam parlamentin sədri oldu. Ondan nə gözləmək olardı? Yaxud da ki, dövlət katibi. İstəyirdi komsomolda öz karyerasını artırsın, sonra partiya işinə keçsin və karyerist kimi hansısa bir vəzifəyə sahib olsun. Belələrinə siyasi dönük, flüger deyirlər. Onun bütün tarixi satqınlıq tarixidir. Komsomolçuları satıb, öz partiya himayədarlarını satıb, ondan sonra qoşulub Xalq Cəbhəsinə, orada da Əbülfəz Elçibəyi satıb. Bunu cəbhəçilər yaxşı bilirlər. Əbülfəz Elçibəy xəstələnəndə ən çox sevinən elə o idi. Mən bunu dəqiq bilirəm, bu məlumat var. Sevinirdi ki, xəstələnib öləcəkdir, bu da keçəcəkdir onun yerinə.

İndi son hadisələr də göstərdi ki, o, hansı hünərə sahibdir. Yəni bu isterika, bu paranoya, bu qorxaqlıq, - özünü lider sayan hansı adam özünə rəva bilər ki, bunu nümayiş etdirsin və ondan sonra bütün millətə bəyan etsin ki, mənə qarşı zor tətbiq ediblər. Bu, yalandır. Özünə hörmət edən, ləyaqəti üstün tutan hansı adam belə söz deyər?! Bax bu adam prezidentlik iddiasında olub və bu gün vaxtilə xalq hərəkatı tərəfindən yaradılmış Xalq Cəbhəsinə rəhbərlik etməyə çalışır.

Nazirlərə fikir verin, kimlər idi. Müdafiə naziri riyaziyyat müəllimi, savadsızın biri, demaqoq, küçə adamı. Nə ilə yadda qaldı? Şuşanı ermənilərə satdı. O, Şuşanı birinci tərk etdi. Özü demişdi ki, - o kadrlar var, tarix hər şeyi saxlayır, arxivlər var, - Şuşa əldən getsə, başıma güllə vuracağam. Yenə də meydanlarda sülənir, özünü elə aparır ki, guya heç kim bilmir bunun keçmişi nədir. Bax belə bir adam müdafiə naziri ola bilərdimi? Belə bir adam bizim ərazi bütövlüyümüzü qoruya bilərdimi? Mən hələ onun biznes tərəfini demirəm. Burada yığdıqları pulları Moskvaya daşıyırdı. Orada özü üçün böyük biznes qurmuşdu. Lazım olarsa, bu barədə də məlumat veriləcək. Mən 2004-cü ildə onu əfv etdim. Çünki əsaslı olaraq ömürlük cəzaya məhkum edilmişdi. Şuşanı satana qarşı gərək o cəza veriləydi. Bax ona görə bizim torpaqlarımız işğal altına düşmüşdür. Mən humanistlik göstərdim, onu əfv etdim.

Ondan sonra daxili işlər naziri nə ilə seçilirdi? Vəzifə sahibi kimi gedib canlı efirdə jurnalisti döymüşdü. Sən bir adi adam kimi əgər kiməsə qarşı nəsə eləsəydin, tutaq ki, sənə toxunublar, mən deyərdim ki, ola bilər, ləyaqətinə toxunub, emosiyalarını cilovlaya bilmir. Vəzifə sahibi ola-ola mühafizəçilərlə gəlib jurnalisti döyüb və bununla da fərəhlənirdi. Sən gedib doğma rayonunu müdafiə edərdin. Doğulduğun Kəlbəcər əldən gedəndə, işğal altına düşəndə sən nazir idin. Qaçmısan, siçan kimi gizlənməyə deşik axtarmısan. O vaxt Naxçıvana desant göndərirdi və demişdi ki, Heydər Əliyevin başına güllə vuracağam. Naxçıvanlılar ona elə cavab verdilər ki, qorxusundan bilmirdi hara getsin. Oraya desant da getmədi. Ümumiyyətlə, o vaxt orada çevriliş cəhdi olmuşdu. İndi yenə meydanda sülənir, elə bilir ki, hamının yadından çıxıb.

Baş prokuror Gəncədə girov götürülmüşdü, Prezidentə həbs əmri vermişdi. Bu da baş prokuror. Xarici işlər naziri. Heç bir xarici dildə danışa bilməyən, hətta Azərbaycan dilində nə dediyini heç kim başa düşmürdü. Bax budur Xalq Cəbhəsi-Müsavat hakimiyyəti. Ona görə biz bu faciəvi vəziyyətlə üzləşmişdik. Əgər Heydər Əliyev xalqın tələbi ilə 1993-cü ildə Azərbaycana gəlməsəydi, Azərbaycan dağılacaqdı. Bunların da hərəsi qaçıb bir yerdə gizlənəcəkdilər, necə ki qaçıb gizlənmişdilər. Beləliklə, bizim müstəqilliyimiz XX əsrin əvvəllərində olduğu kimi, yenə də yarımçıq qalacaqdı.

Heydər Əliyevin hakimiyyətə gəlməsi, əlbəttə ki, tarixi hadisədir. Bu gün biz onun yolu ilə gedirik. Onun yürütdüyü siyasət bu gün yaşayır, zənginləşir. Əlbəttə, həyat yerində durmur. Qarşımızda yeni çağırışlar, yeni vəzifələr durur və biz bu vəzifələri icra edirik. Çünki bu gün Azərbaycanın uğurlu inkişafı aparılan islahatlarla sıx bağlıdır. Ulu Öndərin Sumqayıt şəhərinə də həmişə çox isti münasibəti olmuşdur. Həm sovet vaxtında, həm də müstəqillik dövründə dəfələrlə Sumqayıtda olmuşdur. Mən də bu siyasəti davam etdirirəm. Mənim Sumqayıta bugünkü səfərim 15 il ərzində sayca 24-cü səfərdir. Yəni bu, özlüyündə göstərir ki, Sumqayıta daim diqqət, qayğı göstərilir.

Əlbəttə ki, Sumqayıtın problemlərinin həlli istiqamətində böyük işlər görülüb. İlk növbədə infrastruktur müasirləşdirilməli idi. Bu məqsədlə hələ 2005-ci ildə 525 meqavat gücündə elektrik stansiyası istifadəyə verildi, böyük vəsait xərcləndi. Qazlaşdırmanın səviyyəsi 100 faizə çatıbdır. İçməli su problemi həllini tapıbdır. Şəhərdaxili yollar yenidən tikilir, abadlaşdırılır, təmir olunur. Bakı-Sumqayıt yolu tikildi. İndi göstəriş vermişəm ki, yol genişləndirilsin. Çünki artan nəqliyyat sıxlıq, tıxac yaradır. Biz bunu da həll edəcəyik. Bakı-Sumqayıt qatarı artıq fəaliyyət göstərir. Özü də dünyanın ən qabaqcıl şirkətinin istehsalı olan ikimərtəbəli, çox rahat "Stadler" vaqonlarıdır. Verilmiş kredit hesabına şəhər nəqliyyatı üçün müasir avtobuslar gətirildi. Yəni bütün bu işlər planlı şəkildə həyata keçirilir.

Şəhərin kommunal təsərrüfatı yenilənir. Lift təsərrüfatının təqribən 80 faizi yenilənib. Sumqayıtda 1300-dən çox hündürmərtəbəli binanın təxminən mininin artıq dam örtüyü vurulubdur və qalan binaların da dam örtükləri vurulacaq.

"ASAN xidmət" mərkəzi yaradılmışdır. İndi göstəriş vermişəm ki, ikinci "ASAN xidmət" yaradılsın. Çünki tələbat artır və bəzən növbələr yaranır. Biz buna imkan verə bilmərik.

Sosial infrastruktur yenilənir. Məcburi köçkünlər üçün yeni şəhərciklər, evlər tikilir. Bu il 1800 ailə artıq yerləşibdir. Gələn il minimum 3 min köçkün ailəsi yeni evlərə köçəcək. Köçkünlər üçün Sumqayıtda evlərin tikintisi bundan sonra da təmin ediləcək ki, yəni evsiz-eşiksiz, pis vəziyyətdə yataqxanalarda, bağçalarda və s. yerlərdə yaşayan köçkünlər yaxşı evlərə köçürülsünlər. Biz bunu da edəcəyik.

Məktəb tikintisi gedir. 1 saylı xəstəxana mənim göstərişimlə artıq 5-6 ildir ki, təmirdən çıxıb. İndi 2 saylı xəstəxananın təmiri və əslində yenidən tikilməsi üçün vəsait ayrıldı. Biz bunu da edəcəyik.

Sumqayıt, əlbəttə, sənaye şəhəri kimi inkişaf edir. Ancaq bugünkü sənaye bugünkü çağırışlara cavab verir. Köhnədən qalan sənaye müəssisələrinin, demək olar ki, hamısı artıq fəaliyyətini dayandırıb. O ərazidə - yüz hektarla ölçülən ərazilərdə sənaye parkları yaradılıb - Sumqayıt Texnologiyalar Parkı və Sumqayıt Kimya Sənaye Parkı. Sumqayıt Texnologiyalar Parkında 10, Sumqayıt Kimya Sənaye Parkında isə 13 zavod fəaliyyət göstərir və əlavə 7 zavod, yəqin ki, gələn il fəaliyyətə başlayacaq. Sumqayıt Kimya Sənaye Parkında 20 rezident var. Qoyulmuş sərmayə milyardlarla dollar səviyyəsindədir. Onların arasında dövlət xətti ilə tikilmiş "SOCAR Polymer", karbamid və digər zavodlar var. Özəl sektor da çox böyük maraq göstərir. Ona görə Sumqayıt bu gün müasir sənaye şəhəridir, Cənubi Qafqazın ikinci sənaye şəhəridir. Sumqayıt müəssisələrində ildə təqribən 2 milyard manatlığa yaxın məhsul istehsal olunur. Ona görə Sumqayıt bundan sonra da müasir sənaye şəhəri kimi inkişaf edəcək.

Parklar abadlaşır, yeni parklar, bağlar salınır. Əlbəttə ki, onların arasında Sumqayıt bulvarını xüsusilə qeyd etmək istərdim. Mən bu bulvarın açılışı ilə əlaqədar keçirilmiş tədbirdə demişəm və bir daha demək istəyirəm ki, bu, möcüzədir, cəmi 11 ay ərzində 5,2 kilometr uzunluğunda və 150 hektarı əhatə edən gözəl bulvar salınmışdır. Sumqayıt bulvarının salınması mənim çoxdankı arzum idi. Mən əvvəlki dövrlərdə də dəfələrlə şəhər rəhbərliyinə belə göstəriş vermişdim. Ancaq Zakir Fərəcovu mən vəzifəyə təyin edəndən sonra bu məsələ də həll olundu. Çox şadam ki, bu gün Sumqayıt bulvarı vətəndaşlar üçün yeni, gözəl bir istirahət zonasıdır. Orada ictimai obyektlər var, indi orada Muğam Mərkəzi yaradılıb, digər ictimai obyektlər şəhərə yeni gözəllik verir. Onsuz da Sumqayıtın kifayət qədər istirahət zonaları vardır. Parkların hamısı abadlaşdırılıb. Amma bulvar, əlbəttə ki, ayrı bir məsələdir. Uzunluğu əvvəlki Bakı bulvarından təxminən 2 dəfə böyükdür. Çünki əvvəlki ənənəvi Bakı bulvarının uzunluğu 3 kilometr idi, indi 16 kilometrdir. Əlbəttə, mən demək istəmirəm ki, burada da 16 kilometr uzunluğunda bulvar tikilsin. Amma hər halda əgər imkan olacaqsa, biz gələcəkdə bulvarı genişləndirməliyik.

Yəni bütün sahələr üzrə inkişaf var, inkişaf gedir. Bu Dram Teatrının, "Kimyaçı" sarayının binalarının əsaslı təmiri də bunun təzahürüdür. Bu Dram Teatrında Ulu Öndər Sumqayıtın yubileyini qeyd etmişdir. Yəni bu teatrın böyük tarixi vardır. Bu gün burada bizim görüşməyimiz həm rəmzi xarakter daşıyır, həm də təbiidir. Bu, tarixi həqiqəti təsdiqləyir. Bu binada Ulu Öndərin ruhu var. O, Sumqayıtı gözəl, müasir, havası təmiz, insanlar üçün rahat şəhər kimi görmək istəyirdi. O siyasi vəsiyyətində demişdi, bir çox işlər görülüb, amma görə bilmədiyimiz işləri bizim davamçılarımız görəcəkdir. Şadam ki, belə də oldu.

Əziz dostlar, bu bayram münasibətilə sizi bir daha təbrik edirəm, yeni uğurlar, qələbələr arzulayıram. Sağ olun.

# güllü-çiçəkli, işıqlı və abad bir şəhərə çevrilib

## Prezident İlham Əliyev Sumqayıtın 70 illiyinə həsr olunmuş tədbirdə iştirak edib



**Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir FƏRƏCOV** çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident.

Hörmətli qonaqlar.

İcazə verin sumqayıtlılar adından Sizi Ulu Öndərimiz Heydər Əliyevin "kiçik bir Azərbaycan" adlandırdığı gözəl Sumqayıtda salamlayaq və şəhərimizə xoş gəlmisiniz deyək.

Ulu Öndərimiz Sumqayıta, onun zəhmətkeş insanlarına xüsusi qayğı ilə yanaşırdı, şəhərimizin inkişafına çox böyük diqqət yetirirdi. Böyük tarixi şəxsiyyət Heydər Əliyev şəhərimizə 16 dəfə səfər etmişdi. Sumqayıtın müasir bir şəhər kimi formalaşması, inkişafı məhz Ulu Öndərin adı ilə bağlıdır. Biz sevinirik ki, Ulu Öndərimizin şəhərimizə olan bu münasibəti bu gün Sizin tərəfinizdən də uğurla davam etdirilir. Sizin hər gəlişiniz sumqayıtlılar üçün böyük bayrama çevrilir, şəhərimizin inkişafında yeni mərhələ açır.

Cənab Prezident, Azərbaycana rəhbərlik etdiyiniz illər ərzində ictimai-siyasi həyatın bütün sahələrində böyük uğurlar əldə olundu, xalq və dövlət üçün taleyüklü layihələr həyata keçirildi. Azərbaycanın iqtisadi potensialı gücləndi, əhalinin həyat səviyyəsi əhəmiyyətli dərəcədə yüksəldi. Odur ki, Azərbaycan iqtisadi inkişaf sürətinə görə son illərdə dünyanın qabaqcıl dövlətləri sırasında şərəflə addımlayır.

Sizin həyata keçirdiyiniz siyasət nəticəsində Azərbaycanın regionun lider dövlətinə, söz sahibinə çevrilməsi, beynəlxalq birlikdəki yerini daha da möhkəmləndirməsi dünya miqyasında qəbul edilən reallıqdır. Bu reallığı təsdiqləyən bir çox amilləri sadalamaq mümkündür. Bu sırada Sizin ideyanızla və iştirakınızla Bakıda keçirilən beynəlxalq əhəmiyyətli tədbirlər gənc Azərbaycan dövlətinin dünyada artan nüfuzunu təsdiq edən mühüm faktorlardır. Azərbaycan müxtəlif xarakterli - siyasi, iqtisadi, idman, səhiyyə və sair tədbirlərin keçirildiyi məkana çevrilib. Ölkəmizin mədəniyyətlərarası və sivilizasiyalararası dialoq mərkəzlərindən biri olmasını artıq bütün dünya qəbul edir və bunlar dövlətimizin artan nüfuzundan xəbər verir.

Cənab Prezident, bu gün müstəqil Azərbaycan dövlətinin öz dəstxəti, dövlətçilik siması, inkişaf yolu var. Bu, Sizin milli maraqlara əsaslanan siyasətiniz, iqtisadi inkişaf və demokratikləşdirmə, hüquqi dövlət quruculuğu, effektiv diplomatiya istiqamətində ardıcıl və məqsədyönlü fəaliyyətinizin nəticəsidir.

Azərbaycanın beynəlxalq imicinin yüksəlişinə təkan verən amillərdən biri ölkəmizin iqtisadi cəhətdən dinamik inkişafıdır. Həyata keçirilən dövlət proqramları bütün bölgələrin inkişafına nail olmaqla əhalinin məşğulluğunun təmin edilməsinə, abadlıq və quruculuq işlərinin aparılmasına, infrastrukturun yenidən qurulmasına yol açıb. Son illər ərzində ölkəmizdə baş vermiş inkişaf və tərəqqi, sözün həqiqi mənasında, qürur hissi doğurur.

Cənab Prezident, müstəqil Azərbaycanımızın bütün bölgələri kimi, Sumqayıt şəhəri də dinamik inkişaf dövrünü yaşayır. Sizin rəhbərliyiniz, yüksək diqqət və qayğınız nəticəsində həyata keçirilən bu abadlıq, quruculuq və tikinti işləri sumqayıtlılara xoş ovqat və sakit həyat tərzi bəxş edib. Birbaşa rəhbərliyiniz, yüksək diqqət və qayğınız nəticəsində həyata keçirilən genişmiqyaslı uğurlu layihələr şəhərimizin simasını tamamilə dəyişib.

Məlumdur ki, hər bir işin icrası zamanı ilk növbədə dəqiq hədəflərin, aydın tezislərin müəyyən edilməsi tələb olunur. Bu baxımdan Sumqayıtda görülən işlər xaotik xarakter daşımır, Sizin tövsiyələrinizi əsas tutaraq, sistemli, planlı və müasir şəhərsalma prinsiplərinə uyğun olaraq, vahid yanaşmaya əsaslanan proqram çərçivəsində və konseptual şəkildə aparılır.

Möhtərəm cənab Prezident, Sizin qeyri-neft sektorunun inkişafı istiqamətində verdiyiniz tapşırıqlara uyğun olaraq görülən işlər ölkəmizin hər yerində olduğu kimi, Sumqayıt şəhərində də öz bəhrəsini verməkdədir. Şəhərin inkişafı ilə əlaqədar nəzərdə tutulmuş tədbirlər mərhələ-mərhələ uğurla icra edilir. Bu prosesin əsasını Sizin verdiyiniz dəyərli tövsiyə və tapşırıqlar təşkil edir. Siz Sumqayıtdakı vəziyyətlə yaxından tanışsınız, ətraflı məlumata maliksiniz. Fürsətdən istifadə edib diqqətinizə çatdırmaq istərdim ki, Sizin son illərdə şəhərimizə səfərləriniz zamanı açılışını etdiyiniz "SOCAR Polymer", polipropilen və yüksək sıxlıqlı polietilen, karbamid zavodları və digər müəssisələr hesabına minlərlə yeni iş yerləri yaradılıb. Hazırda Kimya Sənaye Parkında şüşə, yunəyirici və boyaq fabrikinin tikintisi başa çatmaq üzrədir. Artıq əminliklə deyə bilərik ki, Sumqayıt Cənubi Qafqazın ikinci böyük sənaye mərkəzinə çevrilib. Son illərdə şəhərimizin iqtisadiyyatı sürətlə inkişaf etmiş, aparıcı sahələrdə müsbət irəliləyişlər təmin olunmuş, yeni istehsal sahəsinin yaradılması nəticəsində ümumi daxili məhsul istehsalının həcmi 2,5 dəfə, sənaye məhsulu istehsalı isə 3 dəfə artmışdır.

2011-ci il avqustun 7-də Siz Sumqayıt şəhərində səfərdə olarkən burada müasir bulvar kompleksinin yaradılmalı olduğunu vurğulamışdınız. Qeyd etmək istərdim ki, hələ 45 il əvvəl, 1974-cü ildə Ulu Öndər şəhərin 25 illik yubiley tədbirində bu səhnədə çıxış edərkən Sumqayıtda dəniz kənarında böyük park və bulvarın yaradılması fikrini irəli sürmüşdü. Cənab Prezident, 45 ildən sonra bu park və bulvarın yaradılması Sizin tapşırığınızla reallaşdı. Qısa müddət ərzində ümumi sahəsi 106 hektar, uzunluğu 4,2 kilometr olan ərazidə möhtəşəm bulvar yaradıldı. Burada şəhər sakinlərinin piyada gəzintisi, avtomobil yolu, istirahət obyektləri, uşaqlar üçün əyləncə mərkəzi, idman infrastrukturu quruldu, fərqli ölçülərdə və bir-birini təkrarlamayan yaşıl parklar salındı. Son günlərdə isə Sizin xeyir-duanızla Sumqayıt bulvarı əlavə olaraq daha 40 hektar genişləndirildi və bir kilometr uzadıldı.

Şəhərimizdə 60-dan çox küçə əsaslı təmir olunmuş, 10 mikrorayon, 17 məhəllədaxili ərazilərə, Hacı Zeynalabdin, Corat qəsəbələrinə, Sumqayıt Stansiyası, Ceyranbatan, Novxanı və Corat bağları yaşayış massivlərinə yeni asfalt döşənmişdir.

Cənab Prezident, məlumat üçün bildirmək istəyirəm ki, şəhərin mərkəzi küçələrində asfalt salınmamış yerlər qalmamışdır. Ümumilikdə şəhər ərazisinə 3,5 milyon kvadratmetr yeni asfalt döşənmişdir.

Uzun illər şəhərdə həlli vacib olan məsələlərdən biri - dam örtüklərinin yenidən qurulması mərhələli şəkildə həll olunur. Sizin tapşırığınız əsasında şəhərimizdə 1361 yaşayış binasından 950-sinin dam örtüyü dəyişilmiş, 250 binanın fasadı isə yenidən qurularaq təmir olunmuşdur. Şəhərdə mövcud 594 liftdən istismar müddətini ötmüş 400-dən çox lift yenisi ilə əvəz edilmişdir.

Yaşayış fonduna daxil olan binaların 800-nün zirzəmisi çirkab sularından təmizlənmiş, kommunikasiya xətləri dəyişdirilmiş, dezinfeksiya edilmiş, yaşayış binalarında 3200 giriş və pilləkən qəfəsləri təmir olunmuşdur. 70 nümunəvi məhəllə yaradılmış, şəhər ərazisində 500 mindən çox ağac, milyondan artıq gül və kollar əkilmişdir. Küçə işıqlandırılması şəhərin 80 faizini əhatə edir. Bu sahədə görüləcək işlər hələ çoxdur.

Mövcud uşaq bağçalarından 48-də təmir işləri aparılmış, dam örtükləri yenilənmiş, istilik sistemi bərpa olunmuşdur. Məktəblərdə əsaslı və cari təmir işləri aparılmış, istilik sistemi bərpa edilmişdir. 9 nömrəli tam orta məktəb binasının tikintisi başa çatmaq üzrədir. Məktəblərdə şagird sıxlığı olduğundan yeni məktəbin və 8 məktəbdə əlavə tədris korpusunun tikintisinə ehtiyac var.

Səhiyyə ocaqlarının 11-i əsaslı və 3-ü cari təmir olunmuşdur. Sizin sərəncamınızla ayrılmış vəsait hesabına 2 saylı şəhər xəstəxanası sökülərək yerində yeni müasir xəstəxananın tikintisi ilə əlaqədar müvafiq işlər aparılır. Şəhərin ən böyük ekoloji problemlərindən biri olan Acıdərə kanalının boruya alınması işləri davam etdirilir. Kanalın 1600 poqonmetr hissəsi artıq boruya alınmışdır.

Cənab Prezident, Sizin yaxından köməyiniz və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın aidiyyəti qurumların rəhbərlərinə qaçqın və məcburi köçkünlərin mənzil şəraitinin yaxşılaşdırılması məqsədilə verdiyi tapşırığa uyğun olaraq, 2005 məcburi köçkün ailəsi yeni tikilən evlərə köçürülmüşdür. Bu işlər davam etdirilir. Şəhər icra hakimiyyəti tərəfindən məcburi köçkünlərə mənzil tikintisi üçün Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə 30 hektar torpaq sahəsi ayrılmışdır.

Möhtərəm cənab Prezident, Sizin tapşırığınıza əsasən, şəhərdəki şəhid ailələri və Qarabağ müharibəsi əlillərinə bu il 125 mənzil verilmişdir. Əsası 1968-ci ildə qoyulan Sumqayıt Dövlət Dram Teatrı uzun illər idi təmir olunmurdu. Minnətdarlıq hissi ilə bildirirəm ki, Sizin tapşırığınızla teatrın binası yüksək zövqlə əsaslı təmir və rekonstruksiya olunaraq yenidən quruldu, binanın bütün xidməti, dekorasiya və qrim otaqları estetik üslubda yaradıldı, bədii və texniki cəhətdən yüksək səviyyədə tamaşalar təqdim etmək üçün müasir avadanlıqlarla və işıqlandırma sistemi ilə təchiz olundu.

Şəhərimizin mədəni həyatını canlandıracaq davamlı infrastruktur layihələri də həyata keçirilib. Ümummilli Liderimizin adını daşıyan parkda möhtəşəm Heydər Əliyev Mərkəzi tikilərək istifadəyə verilib. Bu mərkəzdə 420 nəfərlik akt zalı, gənclər üçün müzakirə və diskussiya otaqları, nikah mərasimi zalı, elektron kitabxana hər gün insanlarımızın üz tutduğu müqəddəs bir məkana çevrilib. Müasir tipli uşaq incəsənət və şahmat məktəbləri qısa müddətə tikilib istifadəyə verilmişdir. Son dövrlərdə Yeni Azərbaycan Partiyasının şəhər təşkilatı üçün yeni bina, Bayraq Muzeyi inşa olunmuşdur. Sizin tapşırığınızla əsaslı təmir olunan "Kimyaçı" Mədəniyyət Sarayı şəhərimizin ictimai-siyasi və mədəni həyatında mühüm rol oynayır. Bir qədər sonra Sizin xeyir-duanızla açılacaq Muğam Mərkəzini, "Nizami" kinoteatrını da bu sıraya aid etmək olar.

Şəhər ərazisində sərnişinlərin rahatlığının təmin olunması məqsədilə Türkiyə istehsalı olan 206 avtobus kreditlə alınaraq xətlərə buraxılmışdır. Planlı şəkildə salınan yeni parklar, xiyabanlar, asfalt yollar, gözəlləşən prospektlər, bütövlükdə abadlaşan məhəllədaxili yollar, tikilən sosial obyektlər, əlbəttə, Sizin böyük iradənizin, dövlətçilik qətiyyətinizin sayəsində meydana gəlib. Bütün bunlar Sumqayıtda aparılan abadlıq və quruculuq salnaməsinin bir hissəsinə çevrilib.

Cənab Prezident, görülmüş işlər şəhər sakinlərində dövlətimizin iqtisadi qüdrətinə, siyasi gücünə, iradəsinə inamı daha da artırır. Ən əsası odur ki, şəhərimizin sakinləri arasında sağlam mənəvi-psixoloji iqlim yaranıb. Şəhər sakinləri Sizin daxili və xarici siyasətinizi bəyənir, ürəkdən dəstəkləyir və həmişə Sizin yanınızdadırlar.

Fəxrlə demək olar ki, bugünkü Azərbaycan Ümummilli Liderimizin arzu etdiyi Azərbaycandır və Sumqayıt şəhəri də bu gün Ulu Öndərin arzuladığı kimi, güllü-çiçəkli, işıqlı və abad bir şəhərə çevrilib.

Sumqayıt - müstəqilliyimizin canlı simasıdır. Ötən illər onun tarixinə neçə-neçə gözəl anlar yazıb. İnsan zəkasının, əməyinin və birliyinin vəhdəti olan Sumqayıt islahatların nümunə göstərildiyi məkandır. Doğma şəhərimizə, onun inkişafına hər birimiz öz töhfəmizi verməli, nümunə göstərməliyik. Əminliklə bildirmək istərdim ki, illər ötəcək, xariqələr şəhəri Sumqayıt həmişə dövlət başçısına verdiyi sözə sahib çıxacaq. Çünki sumqayıtlılar etimadı doğrultmağa çalışan zəhmətkeş insanlardır. Onların həyat amalı Heydər Əliyevin bizə miras qoyduğu ideyalara sədaqət, Sizin diqqət və qayğınıza məsuliyyətlə yanaşmağımız, uğurlu işimizlə cavab verməkdir.

Sevinirik ki, indi Sumqayıtın gündüzü də, gecəsi də birdir, al-əlvandır, könül oxşayır, insanlarımız sağlam ruhla, rahat şəkildə işləyir və istirahət edirlər. Artıq Sumqayıtda sağlam mühit, sağlam atmosfer formalaşmış və mehriban bir Sumqayıt ailəsi yaranmışdır.

Cənab Prezident, yeri gəlmişkən, icazə verin, Sumqayıtın şəhər statusu almasının 70 illiyi münasibətilə sumqayıtlıları səmimi-qəlbdən təbrik edim.

Fərəh duyuruq ki, bu gün Sizin sayənizdə Azərbaycanın adı dünya kürsülərindən çox ucadan səslənir. Bu gün Azərbaycan dünyanın nadir ölkələrindəndir ki, özü öz gələcəyini müəyyən edir, müstəqil və sabit siyasət yeridir. Bu, tarixi bir həqiqətdir. Biz bununla qürur duyuruq. İnanırıq ki, gələcəkdə də Sizin rəhbərliyiniz altında ölkəmiz yeni-yeni zirvələr fəth edəcək.

Möhtərəm cənab Prezident, Sizin dünənki sərəncamınızla 66 nəfər sumqayıtlı fəxri adlar və medallarla təltif olunub. Bu, Sizin Sumqayıta və sumqayıtlılara göstərdiyiniz böyük diqqət və qayğınızın daha bir bariz nümunəsidir. Təltif olunanlar adından bu diqqət və qayğıya görə bütün sumqayıtlıların Sizə dərin minnətdarlığını bildirirəm. Siz artıq Sumqayıta 24-cü dəfədir səfər edirsiniz. Sizin hər səfəriniz Sumqayıtın tarixinə yeni səhifələr açır.

Cənab Prezident, Sizi sumqayıtlılar adından əmin edirəm ki, bu gündən sonra da Sizin tapşırıq və tövsiyələrinizin layiqincə yerinə yetirilməsi üçün əzmlə çalışacağıq.

Sizi şəhərimizin 70 illik yubileyinə həsr olunmuş tədbirdə görməyə çox şadıq. Sizə Sumqayıtın çoxminli əhalisinin dərin hörmət və ehtiramını, şəhərimizin inkişafına, çiçəklənməsinə göstərdiyiniz diqqətə, qayğıya görə minnətdarlığını çatdırıram.

Tanrı Sizi qorusun.

* * *



**"Şöhrət" ordenli Əməkdar müəllim Ofelya BABAYEVA** dedi:

- Hörmətli cənab Prezident.

Sizi bu möhtəşəm salonda salamlamaqdan böyük qürur və fəxarət hissi keçirirəm. Mən bu salonda dəfələrlə çıxış etmişəm. Ancaq ilk çıxışımı hər dəfə həyəcanla xatırlayıram. 1974-cü il - Sumqayıtın şəhər statusu almasının 25 illiyi.

Rəyasət heyətində Ulu Öndərimiz, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi, bütün ölkənin sevimlisi Heydər Əlirza oğlu Əliyev əyləşmişdi. Düz 45 il əvvəl mənə - 26 yaşlı gənc müəllimə və şairə Sumqayıt ziyalıları adından çıxış etmək səadəti nəsib olmuşdur. Çıxışım Ulu Öndərin, o böyük insanın xoşuna gəldi. "Afərin!" dedi. Mən isə çıxışımı o zaman yazdığım misralarla bitirdim.

*Mən qızınam, Azərbaycan,*
*Arzularım çiçək-çiçək.*
*Bilirəm ki, qayğın ilə*
*Bu arzular göyərəcək.*

Bəli, cənab Prezident, taleyimə çox-çox minnətdaram ki, düz 45 il sonra Ulu Öndərin layiqli davamçısının, bu gözəl ölkənin Prezidentinin qarşısında da çıxış edirəm. Xatirələr heç zaman unudulmur, yaddan çıxmır.

Ulu Öndərin xeyir-duasını aldığım o gündən bu ana kimi hər cür qayğı və diqqəti hiss etmişəm. Sonralar Azərbaycan Yazıçılar Birliyinin üzvü, uzun illər bu şəhərin məktəblərində direktor, Təhsil şöbəsinin müdiri, şəhər sovetinin deputatı, mədəniyyət komissiyasının sədri olduğum zamanlarda da o böyük insanın qayğısı və tövsiyələri mənim uğur yoluma işıq saçıb. Bu gün Azərbaycan bütün dünyada özünün uğurları ilə diqqəti cəlb edir. Bu günlərdə gözəl paytaxtımız Bakıda keçirilən Qoşulmama Hərəkatının Zirvə Görüşündə 160-a yaxın ölkənin və beynəlxalq təşkilatın nümayəndələrinin iştirak etməsi, Sizin rəhbərliyinizlə Azərbaycanımızın 3 il bu hərəkata sədrliyi, Dünya dini liderlərinin II Sammitində dərin məzmunlu nitqiniz, il ərzində ölkə əhalisinin rifahının yüksəlməsinə yönəldilmiş sərəncamlarınız hər kəsdə minnətdarlıq hissi doğurur.

Dahi Azərbaycan şairi İmadəddin Nəsiminin, görkəmli ədiblərimiz Cəfər Cabbarlının, Cəlil Məmmədquluzadənin, İsmayıl Şıxlının yubileyləri ilə bağlı sərəncamlarınız ədəbi irsə yüksək hörmətinizdən irəli gəlir. Bir neçə kəlmə ilə Sumqayıtın şəhər statusu almasının 70 illiyi günlərində təhsilimizin uğurları haqqında danışmaq istəyirəm.

Sizin göstərişinizlə şəhərimizdə 52 məktəb, 58 uşaq bağçası, idman məktəbləri təmir edilib və müasir tələblərə cavab verir. Qəzalı vəziyyətdə olan 9 saylı orta məktəb üçün yeni binanın tikilməsi orada təhsil alan yüzlərlə şagirdin, onların valideynlərinin, pedaqoji kollektivin hədsiz sevincinə səbəb olub. Pedaqoji kollektivlər, şagirdlər, valideynlər də bu qayğınıza əməli işlə cavab verirlər. Neçə illərdir ki, Sumqayıt təhsili ali məktəblərə qəbula görə ilk üçlükdədir.

Yüksək balla ali məktəblərə daxil olan məzunlarımızın hər il ən azı 8-10 nəfəri Prezident təqaüdünə layiq görülür. Bütün bunlara görə mən Sizə sonsuz minnətdarlığımı bildirirəm, əziz Prezident! Son illər Sumqayıtın bu inkişafı Sizin şəhərimizə olan böyük diqqətinizin bəhrəsidir. Mənim sadə əməyimə yüksək qiymət verdiyinizə görə minnətdarlığımı bildirirəm. Müstəqil Azərbaycanın yüksək dövlət mükafatları olan "Tərəqqi" medalını, "Şöhrət" ordenini, Əməkdar müəllim fəxri adını Sizin sərəncamlarınızla almağım ömrümün ən xoş yaşantılarıdır.

Ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Azərbaycan təhsilinə, mədəniyyətinə, milli-mənəvi dəyərlərimizin qorunmasına və təbliğinə göstərdiyi qayğıya görə minnətdarlığımızı ona çatdırmağı xahiş edirəm.

Allah Azərbaycanımızı, Sizi, xeyirxah ailənizi qorusun!

* * *



**"Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin direktoru Nazim TALIBOV** dedi:

- Möhtərəm cənab Prezident.

Hörmətli tədbir iştirakçıları.

Ölkəmizin son illərdə iqtisadi inkişaf sahəsində qazandığı böyük nailiyyətlər, heç şübhəsiz ki, Ümummilli Lider Heydər Əliyev tərəfindən formalaşdırılmış möhkəm təmələ əsaslanır. Müasir Azərbaycan dövlətinin banisi, Ulu Öndər Heydər Əliyevin misilsiz idarəçilik istedadı, gərgin əməyi nəticəsində əldə olunmuş nailiyyətlər sonrakı illərdə ölkə iqtisadiyyatının davamlı inkişafı üçün möhkəm zəmin yaratmışdır.

Hələ ötən əsrin 70-ci illərinin ortalarından başlayaraq Sumqayıtda kimya sənayesinin yenidən qurulması, yeni istehsal müəssisələrinin yaradılması sahəsində xeyli işlər görülmüşdür.

Həyata keçirilmiş genişmiqyaslı işlərin, qısa müddətdə reallığa çevrilmiş layihə və ideyaların nəticəsi idi ki, artıq ötən əsrin 70-80-ci illərində Sumqayıt öz iqtisadi potensialına görə keçmiş Sovet İttifaqında güclü sənaye şəhəri kimi daha geniş tanınmağa başlamışdır. Sumqayıtda istehsal olunan məhsullar SSRİ-nin və xarici ölkələrin 100-dən artıq şəhərinə ixrac olunurdu. Həmin dövrlərdə Sovetlər birliyində istehsal olunan kimya məhsullarının təqribən 40 faizi Sumqayıt şəhərində fəaliyyət göstərən müəssisələrin payına düşürdü.

Təsadüfi deyil ki, Sumqayıtın sənaye sahəsində keçmiş şöhrətini qaytarmaq məqsədilə, möhtərəm cənab Prezident, Sizin tərəfinizdən 2011-ci ildə ölkəmizdə ilk sənaye parkı məhz şəhərimizdə yaradılmışdır.

Ötən müddət ərzində bu parkda fəaliyyət göstərən rezidentlərin biznes fəaliyyətinin dəstəklənməsi, o cümlədən investisiya xərclərinin azaldılması üçün dövlət tərəfindən sənaye parkının infrastrukturunun yaradılması ilə bağlı zəruri tədbirlər həyata keçirilmiş, sənaye parkının rezidentlərinə 7 il müddətinə vergi və gömrük güzəştləri müəyyən edilmişdir.

Cənab Prezident, Sizin Sumqayıt Kimya Sənaye Parkına göstərdiyiniz yüksək diqqət və dövlət tərəfindən görülən kompleks təşviqedici tədbirlər sənaye parkına yerli və xarici investorların marağını getdikcə artırır. Siz gərgin iş qrafikinizə baxmayaraq, vaxt tapıb ötən dövrdə Sumqayıt Kimya Sənaye Parkına 6 dəfə səfər etmiş, 5 sənaye müəssisəsinin təməlqoyma, 12 sənaye müəssisəsinin isə açılış mərasimlərində iştirak etmisiniz.

Hazırda Sumqayıt Kimya Sənaye Parkında investisiyalarının həcmi 3 milyard dollar olan 20 rezident qeydiyyata alınıb. Sənaye Parkının təməlinin Sizin iştirakınızla 2013-cü ildə qoyulmasına baxmayaraq, artıq burada 13 müəssisə istehsal fəaliyyəti ilə məşğuldur və parkda 5 mindən artıq insan daimi işlə təmin edilib. Bunların əksəriyyəti Sumqayıt şəhərinin və ətraf ərazilərin sakinləridir.

Möhtərəm cənab Prezident, bu gün təkcə Sumqayıt Kimya Sənaye Parkının nümunəsində deyil, Sizin fərman və sərəncamlarınıza uyğun olaraq yaradılmış təkrar emal, gəmiqayırma, yüngül sənaye və əczaçılıq sahələrində ixtisaslaşmış digər sənaye parklarının da müsbət səmərəsini görə bilərik.

İlk növbədə sənaye parklarının iqtisadi inkişafda və sənayedə əsas əhəmiyyətli rolu, heç şübhəsiz ki, idxalın əvəz edilməsi və yeni ixrac imkanlarının yaradılmasıdır. Azot gübrəsi, polimerlər, şpris, ferroərintilər, tütün məmulatları, aqrokimyəvi məhsullar və ölkəmiz üçün ənənəvi olmayan bu kimi onlarla yeni məhsulun istehsalı sənaye parklarında həyata keçiriləndək həmin məhsullar, demək olar ki, 100 faiz həcmdə idxal olunurdu. Bu məhsullar üzrə idxalın əvəzlənməsi, eləcə də həmin məhsulların daha çox ixraca hesablanması və nəticədə ölkəmiz üçün yeni ixrac imkanlarının yaranması nəinki ölkədən valyuta çıxarılmasının qarşısını alır, əksinə, ölkəyə əlavə valyuta gəlməsinə zəmin yaradır ki, bu da nəticədə iqtisadiyyatın vacib amillərindən biri kimi milli valyutanın möhkəmlənməsinə öz töhfəsini verir.

Eyni zamanda, sənaye parklarının iqtisadiyyatda digər vacib rolu ölkəyə yeni texnologiyaların gətirilməsidir. Bu gün sənaye parklarında dəyəri 100 milyonlarla dollar olan zavodlarda dünyanın ən qabaqcıl texnologiyalarından istifadə edilir. Bu texnoloji yeniliklərin tətbiqi bizə rəqabətqabiliyyətli məhsul istehsal etməyə imkan verməklə yanaşı, həm də sosial səmərə yaratmaqla insan resurslarının inkişaf etdirilməsində, bilikli kadrların cəlb olunmasında, eləcə də mövcud kadr potensialının artırılmasında mühüm əhəmiyyətə malikdir.

Digər əhəmiyyətli məsələ sənaye parklarının ölkənin xammal ixracatçısından hazır məhsul ixracatçısına çevrilməsindəki roludur. Ölkəmiz ənənəvi olaraq neft və qaz ixracatçısıdır, lakin bu göstərici qeyri-neft sektorunun xeyrinə dəyişməkdədir. Misal üçün, Sumqayıt Kimya Sənaye Parkında reallaşan karbamid zavodu və "SOCAR Polymer" layihələrinin icrası nəticəsində karbohidrogen ehtiyatlarına söykənən yeni məhsullar istehsal olunur ki, nəticədə neft və qaz xammal şəklində deyil, daha dəyərli məhsula çevrilərək ixrac edilir. Bundan başqa, Mingəçevir Sənaye Parkındakı pambıq ipliyi istehsalı fabrikinin timsalında pambıqçılıq sahəsində də analoji prosesi müşahidə etmək olar.

Möhtərəm cənab Prezident, hörmətli tədbir iştirakçıları, bugünədək sənaye parklarında 2 milyard manata yaxın məhsul istehsal olunmuş, təqribən 400 milyon manatlıq məhsul ixrac edilmişdir. Əksəriyyəti ölkəmiz üçün yeni olan sənaye məhsullarının ixrac coğrafiyasında MDB ölkələrini, Türkiyə, Ukrayna, Gürcüstan, Amerika Birləşmiş Ştatları, Yaponiya, Birləşmiş Ərəb Əmirlikləri, Polşa, Danimarka və Hollandiyanı misal göstərmək olar.

Statistik göstəricilərə nəzər saldıqda, 2018-ci ilin 9 ayında Sumqayıt Kimya Sənaye Parkında 170 milyon manatlıq məhsul istehsal edilmişdisə, bu ilin 9 ayında 2,6 dəfə çox - yeni 440 milyon manatlıq məhsul istehsal olunmuşdur. İxrac isə 2018-ci ilin analoji dövrü ilə müqayisədə 3,6 dəfə artaraq bu ilin 9 ayında 190 milyon manat təşkil etmişdir. Diqqətinizə çatdırıram ki, 2018-ci ildə bu göstərici 52 milyon manat olmuşdur.

Həmçinin bu ilin 9 ayında parka 600 milyon manat investisiya yatırılmışdır ki, bu da ölkə sənayesinin qeyri-neft sektoru üzrə investisiyalarının 50 faizini təşkil etmişdir.

Eyni zamanda, bu ilin 9 ayında 440 milyon manatlıq məhsul istehsalı ilə Sumqayıt Kimya Sənaye Parkının ölkə sənayesinin qeyri-neft sektorunda xüsusi çəkisi 5,3 faiz olmuşdur.

Bundan əlavə, bu il 190 milyon manatlıq ixracla Sumqayıt Kimya Sənaye Parkının ölkə üzrə qeyri-neft sənaye məhsullarının ixracında xüsusi çəkisi 11 faiz təşkil etmişdir.

Beləliklə, deyə bilərik ki, cənab Prezident, bilavasitə Sizin təşəbbüsünüzlə Sumqayıt şəhərində yaradılmış Kimya Sənaye Parkı müsbət nəticələrini verməkdədir və ölkənin qeyri-neft sektoru üzrə makroiqtisadi göstəricilərinə birbaşa müsbət təsirini göstərir.

Möhtərəm cənab Prezident, sonda fürsətdən istifadə edərək Kimya Sənaye Parkının kollektivi adından Sumqayıt əhalisini şəhərin 70 illik yubileyi münasibətilə təbrik edirəm. Əminəm ki, möhtərəm cənab Prezident, Sizin rəhbərliyinizlə Sumqayıt bundan sonra daha da inkişaf edəcək, şəhərin sənaye potensialı, o cümlədən Kimya Sənaye Parkı ölkəmizin iqtisadiyyatına daha da böyük töhfələr verəcəkdir.

Diqqətinizə görə təşəkkür edirəm.

* * *



**Sumqayıtdakı 1 nömrəli poliklinikanın baş həkimi Arzu BƏNDƏLİYEVA** dedi:

- Möhtərəm cənab Prezident.

Hörmətli tədbir iştirakçıları.

Sizi bu gün 70 illiyini qeyd etdiyimiz, öz gözəlliyi, möhtəşəmliyi ilə hər kəsi heyran qoyan doğma şəhərimizdə çoxsaylı səhiyyə işçiləri adından salamlayıram.

Həyatını ölkəmizin yüksəlişinə və insanların xoşbəxtliyinə həsr edən Ulu Öndərimiz xalqın sağlamlıq məsələlərinə daim taleyüklü məsələ kimi yanaşıb, səhiyyəni cəmiyyət və dövlət həyatında ən mühüm sahə kimi qiymətləndirərək demişdir: "Səhiyyə bizim üçün, hər bir cəmiyyət və dövlət üçün çox lazımlı, həyatın bütün sahələrini əhatə edən sahədir. Onun üçün zəruri tədbirlər görülüb və gələcəkdə də görüləcəkdir".

Siz Ulu Öndərimizin uzaqgörən siyasətini bütün sahələrdə davam etdirdiyiniz kimi, sosial sahə olan səhiyyənin inkişafına da daim xüsusi diqqət və qayğı göstərirsiniz. Mən bir həkim kimi səhiyyəmizin inkişafını diqqətlə izləyirəm. Bu sahədə əldə olunan nailiyyətlərə, tərəqqiyə hədsiz sevinirəm. Bu uğurların təməlində Sizin sosial siyasətinizin əsasını təşkil edən insan amili, insan sağlamlığı dayanır. Eyni zamanda mətbuatda gedən məlumatlarla da tanış oluram. Təkcə bir faktı demək kifayətdir ki, son illər Sizin və Birinci vitse-prezidentimiz, Heydər Əliyev Fondunun rəhbəri hörmətli Mehriban xanım Əliyevanın qayğısı sayəsində ölkəmizdə 600-dən çox tibb müəssisəsi yenidən tikilmiş və yaxud əsaslı təmir edilmiş, ən müasir tibbi avadanlıqlarla təchiz olunaraq əhalinin istifadəsinə verilmişdir.

Göstərdiyiniz yüksək diqqət və qayğı nəticəsində bütün sahələrdə aparılan genişmiqyaslı quruculuq, abadlıq işləri nəticəsində doğma Sumqayıtımız hazırda ekoloji cəhətdən təmiz, füsunkar bir şəhərə çevrilmişdir. Şəhərimizin səhiyyəsinə olan dövlət qayğısı nəticəsində son illər burada 10-dan çox tibb müəssisəsi əsaslı təmir olunaraq ən müasir avadanlıqlarla təchiz edilmiş və sakinlərin istifadəsinə verilmişdir. Hazırda Sumqayıtda 5 min səhiyyə işçisi yüksək zövqlə təmir olunmuş həmin sağlamlıq müəssisələrində şəhərimizin əhalisinə keyfiyyətli tibbi xidmət göstərir.

Son illər səhiyyənin prioritet sahələri üzrə qəbul edilən 11 dövlət proqramı əsasında həyata keçirilən tədbirlər nəticəsində ana və uşaqlara, onkoloji, endokrinoloji, irsi qan xəstəlikləri, böyrək çatışmazlığı olan və s. xəstələrə göstərilən tibbi xidmətin səviyyəsi xeyli yaxşılaşdırılmışdır. Təbii ki, səhiyyəni prioritet sahə kimi müəyyənləşdirən Heydər Əliyev Fondunun bu sahədəki xidmətləri əvəzsizdir. Həyata keçirilən çoxlu sayda irimiqyaslı layihələrə dəstək olan çox hörmətli Mehriban xanım Əliyeva ana, uşaq və ailə sağlamlığının qorunmasına və möhkəmlənməsinə böyük önəm verir.

Ardı 4-cü səh.

# Sumqayıt bu gün Ulu Öndərin arzuladığı kimi, güllü-çiçəkli, işıqlı və abad bir şəhərə çevrilib

## Prezident İlham Əliyev Sumqayıtın 70 illiyinə həsr olunmuş tədbirdə iştirak edib

*Əvvəli 3-cü səh.*

"Ana və uşaqların sağlamlığının qorunması üzrə Dövlət Proqramı"nın icrası ilə bağlı diridoğulmanın yeni beynəlxalq meyarlarına əsasən, 2017-ci ilin dekabrından Səhiyyə Nazirliyinin müvafiq əmrinə əsasən, Sumqayıt 1 nömrəli doğum evi Perinatal Mərkəz kimi fəaliyyət göstərərək, şəhərin perinatal patologiyalı yenidoğulmuşları ilə bərabər, ətraf rayonların patologiyalı yenidoğulmuşlarına da beynəlxalq standartlara uyğun tibbi yardım göstərir. Bu da yüzlərlə yarımçıq doğulmuş, azçəkili uşaqların həyatda qalmasına və yaşamasına səbəb olur.

Cənab Prezident, Sizin ölkə əhalisinin sağlamlığının qorunmasına göstərdiyiniz diqqət və qayğının nəticəsidir ki, tapşırığınıza əsasən hər il respublikamızın bütün bölgələrində olduğu kimi, şəhərimizin də minlərlə sakini pulsuz tibbi profilaktik müayinədən keçirilir. Bu da onların xəstəliklərinin vaxtında aşkar olunaraq sağalmalarına imkan yaradır. Bu, bir daha göstərir ki, Siz bu siyasətinizlə bütün dəyərlər sırasında insan sağlamlığını hər şeydən üstün tutursunuz.

Möhtərəm Prezident, qeyd etmək istəyirəm ki, mənim də uzun müddət çalışdığım, şəhərin aparıcı müalicə ocaqlarından biri olan, əsaslı təmirinə ehtiyac duyulan, rentabelliyini çoxdan itirmiş çoxprofilli 2 nömrəli şəhər xəstəxanasının sökülərək yenidən tikilməsi barədə verdiyiniz sərəncam Sumqayıtın 70 illik yubileyinə töhfə olmaqla bərabər, bütün şəhər sakinlərində və tibb işçilərində hədsiz sevinc hissi doğurmuşdur.

Əziz Prezidentimiz, bütün sosial sahələrə, o cümlədən səhiyyə sahəsinə göstərdiyiniz diqqət və qayğıya görə çoxsaylı tibb işçiləri adından Sizə minnətdarlığımızı və təşəkkürümüzü bildiririk. Sizi əmin edirik ki, tibb işçiləri həmişə olduğu kimi, bundan sonra da səhiyyə sahəsində fədakar xidmətləri ilə bərabər Sizin ətrafınızda sıx birləşərək dövlətə və dövlətçiliyimizə töhfələrini layiqincə verəcəklər.

Diqqətinizə görə təşəkkür edirəm.

* * *



**Əməkdar inşaatçı Maqsud MAQSUDOV** dedi:

- Möhtərəm cənab Prezident.

Hörmətli tədbir iştirakçıları.

Bizə çox xoşdur ki, cənab Prezident, bu gün Sumqayıtın şəhər statusu almasının 70 illik yubileyini Sizinlə birlikdə qeyd edirik. Əlli dörd il bundan əvvəl - 1965-ci ildə Sumqayıt şəhərindəki Qırmızı Əmək Bayrağı Ordenli 1 nömrəli Tikinti Trestinə ali təhsilli inşaatçı-mühəndis kimi göndərişlə gəlmişəm. İşlədiyim kollektiv Sumqayıtın şəhər statusu almasından xeyli əvvəl burada fəaliyyət göstərib. Sonradan Azərbaycanın Sənaye Tikintisi Nazirliyinin tərkibində 1 nömrəli tikinti tresti yaradılmış və Sumqayıt şəhərində yerləşdirilmişdir. Bu kollektivdə çoxsaylı xalqların nümayəndələri çalışmışlar. Sumqayıtda istifadəyə verilən zavod və fabriklər, uşaq bağçaları, məktəblər, xəstəxanalar və mədəniyyət saraylarının əksəriyyəti bu kollektivin əməyinin məhsuludur. Sumqayıtda çox güclü inşaatçılar ordusu yaradılmışdır. Onların çoxu hazırda Sumqayıtda yaşayır.

Əsas diqqətçəkən məqam odur ki, Sumqayıt şəhərinin yaranmasında, inkişafında və ittifaq səviyyəsində tanınmasında əməyi olan insanlar Sizin diqqətinizdədir. Onlar orden və medallarla təltif olunur, şəhər tədbirlərinə dəvət edilir, onlara qayğı göstərilir. Necə deyərlər, bizim respublikamızda heç kəs unudulmur, heç kəs yaddan çıxmır.

Xüsusi olaraq qeyd etmək istəyirəm ki, Sumqayıtda tikinti-quraşdırma işləri 1969-cu ildən Ulu Öndər Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsinə seçildikdən sonra daha geniş vüsət almışdı. Qara və əlvan metallurgiya, kimya, neft-kimya, məişət kimyası, mineral gübrə zavodlarında yeni istehsal sahələri işə salınmışdı. Bu zavodlarda istehsal olunan məhsullar Sumqayıtı İttifaq səviyyəsində tanıtmış və respublikanın ikinci sənaye şəhəri səviyyəsinə yüksəltmişdi. 1978-ci ildə Sumqayıtda istehsal gücü 100 min ton olan yuyucu vasitələr zavodunun istismara verilməsində Ulu Öndər Heydər Əliyevin iştirakı biz inşaatçıların həyatına ömürlük həkk olunmuşdur. Ulu Öndər kollektivlə görüşdü, məsləhətlərini verdi və təbriklərini çatdırdı.

Ulu Öndər daha bir kompleksin - sintetik kauçuk zavodunun təməlini qoymuş və bu tikintini Mərkəzi Komitənin nəzarətində olan obyektlərin cədvəlinə daxil etdirmişdir. Mən çox fəxrlə qeyd etmək istəyirəm ki, bu kompleks vaxtında istismara verilmiş və bu gün də öz fəaliyyətini davam etdirir.

Şəhərimizdə ən böyük "Kimyaçı" Mədəniyyət Sarayının tikintisi məhz Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu sarayın tikintisinə Moskva vəsait ayırmırdı və tikinti uzadılırdı. Ulu Öndərin yaxından iştirakı və köməyi nəticəsində maliyyələşmə həll olundu və bu saray tikilib istifadəyə verildi. Hazırda burada ən vacib tədbirlər keçirilir.



Möhtərəm cənab Prezident, Sumqayıt son illərdə daha sürətlə inkişaf edir. Sumqayıtda nəhəng sənaye, yaşayış, sosial-mədəni və məişət obyektləri inşa olunur. Şəhər gündən-günə gözəlləşir, yeni ünvanlar yaranır.

Respublikada aparılan islahatlar, yeniliklər, Prezident sərəncamları Sumqayıt şəhərində öz uğurlu bəhrəsini verir. Bilirsiniz ki, Sumqayıt şəhərindəki qaçqın və məcburi köçkünlər uzun illərdir ayrı-ayrı insanlara məxsus mənzillərdə, bağçalarda, məktəblərdə, mədəniyyət evlərində yaşayırdılar. 12-ci mikrorayonda və Stansiya Sumqayıtda tikilən yaşayış binaları istismara verildikdən sonra ayrı-ayrı şəxslərin mənzillərində, bağçalarda, məktəblərdə, mədəniyyət evlərində məskunlaşan qaçqın və məcburi köçkün ailələrinin müəyyən hissəsi o evlərə köçürüldü. Bunun nəticəsində ayrı-ayrı insanların mənzilləri özlərinə qaytarılmış və onların həyat şəraiti yaxşılaşdırılmış, bağçaların, məktəblərin müəyyən hissəsi boşaldılmışdır. Sumqayıtda aparılan geniş tikinti-quraşdırma və abadlıq işləri insanların həyat şəraitinin yaxşılaşdırılmasına yönəlmişdir.

Cənab Prezident, görülən bütün bu işlər Sizin Sumqayıta və sumqayıtlılara diqqət və qayğınızın, şəhər rəhbərinə isə inamınızın nəticəsidir. Siz Sumqayıtın inkişafı üzrə bir neçə sərəncam imzalamış, maliyyə vəsaiti ayırmısınız. Sumqayıtın inkişafında əməyi olan insanları orden və medallarla təltif etmisiniz.

Bütün bu diqqət, qayğı və inama görə şəhərimizin inşaatçılar ordusu adından Sizə təşəkkürümüzü və minnətdarlığımızı bildiririk.

* * *



**Sumqayıt Dövlət Dram Teatrının aktyoru, Əməkdar artist Cəlal MƏMMƏDOV** dedi:

- Çox hörmətli cənab Prezident.

Hörmətli qonaqlar, əziz sumqayıtlılar.

Cənab Prezident, şəhərimizin 70 illik yubileyi münasibətilə bizimlə görüşə gəldiyinizə görə Sizə bütün Sumqayıt ictimaiyyəti adından, xüsusilə mədəniyyət və incəsənət xadimləri adından dərin təşəkkürümüzü bildiririk.

Son illər Sumqayıtın sürətli inkişafı şəhərimizin mədəni həyatında da yeni uğur və nailiyyətlərin qazanılmasına güclü təkan verib. Sizin Azərbaycan mədəniyyətinə verdiyiniz dəyər, onun inkişafına göstərdiyiniz diqqət və qayğı parlaq surətdə özünü göstərir. Məhz Sizin çox böyük sevgi ilə bu kövrək sahəyə, xüsusilə teatra və teatr xadimlərinə göstərdiyiniz diqqət və qayğı mədəniyyətimizin bütün sahələrində yeni uğurların əldə edilməsinə, onun daha da zənginləşməsinə münbit şərait yaradır. Həmçinin vurğulamalıyam ki, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbəri çox hörmətli Mehriban xanım Əliyeva Azərbaycan mədəniyyətinin dünya miqyasında təbliğ olunmasında, tanınmasında, dünya irs siyahısında yer almasında və mədəniyyətimizin bir bəşəri dəyər kimi qiymətləndirilməsi yolunda Sizinlə çiyin-çiyinə çalışır və böyük xidmətlər göstərir.

Cari ilin martında Sizin və Mehriban xanımın mədəniyyət və incəsənət xadimləri ilə görüşünüz, onların problemlərini dinləməyiniz, bir çox məsələlərin yerindəcə həllini tapması bizləri çox sevindirir, teatr xadimlərinə diqqət və qayğınız bizə gələcəkdə daha da həvəslə işləmək üçün böyük stimul verir.

Cənab Prezident, qısaca olaraq Sumqayıt Dövlət Dram Teatrı haqqında danışmaq istərdim. 1968-ci ildə Azərbaycan Nazirlər Sovetinin qərarı və Mədəniyyət Nazirliyinin sərəncamı ilə şəhərimizdə ilk professional kollektiv - H.Ərəblinski adına Sumqayıt Dövlət Gənclər Teatrı yaradıldı. Öz pərdəsini 1969-cu il mart ayının 14-də Azərbaycan dramaturgiyasının banisi M.F.Axundzadənin "Müsyö Jordan və Dərviş Məstəli Şah" pyesinin tamaşası ilə açdı. 1974-cü ildə Mədəniyyət Nazirliyinin qərarı ilə teatr Sumqayıt Dövlət Dram Teatrı adlandırıldı. Müxtəlif dövrlərdə bu teatrda Xalq artistləri Barat Şəkinskaya, Rza Əfqanlı, Əliağa Ağayev, Məlik Dadaşov, Nəsir Sadıqzadə və bir çox başqa görkəmli sənətkarlar çalışıblar.

Bir faktı böyük qürur hissi ilə vurğulamaq istəyirəm ki, 1981-ci ildə Moskva şəhərində keçirilən "Ümumittifaq teatr festivalı"nda N.Həsənzadənin "Bütün Şərq bilsin" əsəri əsasında hazırlanmış tamaşa ilə çıxış edən Sumqayıt teatrı festivalın fəxri diplomuna, Nəriman Nərimanov obrazını yaradan Xalq artisti Məlik Dadaşov isə 1-ci dərəcəli diploma layiq görülmüşdü.

O vaxtlar Azərbaycan KP MK-nın birinci katibi işləyən Ulu Öndər Heydər Əliyev bu tamaşaya baxdıqdan sonra səhnəyə qalxaraq teatrın kollektivini təbrik etmiş və teatr sənətini mükəmməl bilən teatrşünas kimi tamaşa haqqında müsbət fikirlərini söyləmişdi.

2003-cü il aprelin 3-də Ulu Öndər Heydər Əliyev Sumqayıt şəhərinə tarixi səfəri zamanı teatrımızın işini yüksək qiymətləndirmiş, teatra xüsusi diqqət və qayğı göstərilməsini vacib hesab etmişdir.

Bir faktı xüsusi qeyd etmək istəyirəm ki, Aqşin Babayevin Ulu Öndər Heydər Əliyevin həyatı və siyasi fəaliyyətinə həsr olunmuş "Xilaskar" əsərinin tamaşası 2005-ci ildə məhz bizim Sumqayıt teatrında hazırlanıb. Azərbaycanda Ulu Öndər Heydər Əliyevin bədii obrazı ilk dəfə Sumqayıt Dövlət Dram Teatrının səhnəsində yaradılıb.

Hörmətli cənab Prezident, Sizin tapşırığınıza əsasən son dövrlərdə Sumqayıtda mədəniyyət və incəsənət sahəsinə, ədəbiyyata böyük diqqət və qayğı var. İnşa olunan yeni binalar, inzibati tikililər, böyük zövqlə yaradılan istirahət guşələri, yeni çəkilən yollar, salınan parklar şəhərin iqtisadi qüdrətinin göstəricisi olmaqla yanaşı, həm də mədəniyyət nümunələri kimi estetik bir mənzərə yaradır.

Mən xüsusilə bu gün işləyib çalışdığım, uzun illər təmirsiz qalan, məhz Sizin diqqət və qayğınız sayəsində yüksək maddi-texniki baza ilə təmin olunmuş bu möhtəşəm teatrımızın binasına görə kollektivimiz adından və şəhərimizin mədəniyyət işçiləri adından Sizə dərin təşəkkürümü bildirmək istəyirəm.

Son illər şəhərimizdə gedən sürətli abadlıq və quruculuq işləri biz sumqayıtlıları həqiqətən sevindirir. Ulu Öndərimizin adını daşıyan möhtəşəm Heydər Əliyev Mərkəzi, Uşaq İncəsənət Məktəbi, Sizin möcüzə adlandırdığınız, qısa müddət ərzində inşa olunan Sumqayıt bulvarı, bulvarımıza xüsusi gözəllik verən Bayraq Muzeyi, 750 yerlik "Kimyaçı" Mədəniyyət Sarayı, bu gün açılışını etdiyiniz möhtəşəm Muğam Mərkəzi, həmçinin dahi Nizaminin adını daşıyan kinoteatrın şəhərimizin yubileyi ərəfəsində istifadəyə verilməsi biz Sumqayıt sakinlərini çox sevindirir. Bu mədəniyyət ocaqları şəhərimizin mədəni həyatına çox böyük töhfələr verir.

Cənab Prezident, çıxışımın sonunda bildirmək istəyirəm ki, Sumqayıt teatrı heç vaxt ölkədə digər teatrların qazandığı nailiyyətlərdən kənarda qalmayıb. Teatrımız dünyanın bir çox ölkələrində keçirilən beynəlxalq teatr festivallarında iştirak edib və böyük uğurlar qazanıb, Hindistan, Türkmənistan, Gürcüstan, Rusiya, Türkiyə və başqa ölkələrdə Azərbaycanı və şəhərimizi layiqincə təmsil edib.

Cənab Prezident, fürsətdən istifadə edib paytaxt Bakıda fəaliyyət göstərən bir neçə teatrın statusunun, həmçinin teatr xadimlərinin əməkhaqqının artırılmasına görə Sizə dərin təşəkkürümü bildirirəm. Diqqətinizə görə çox sağ olun.

Yaşasın Sumqayıt!

Yaşasın müstəqil Azərbaycan!

Yaşasın Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev!

# Mədəniyyət ocaqları şəhər sakinlərinin və qonaqların asudə vaxtlarının səmərəli təşkilində mühüm rol oynayır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Sumqayıtda "Nizami" kinoteatrının yeni binasının açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı kinoteatrın binasının rəmzi açılışını bildirən lenti kəsdi.

"Azərikimya" İstehsalat Birliyinin baş direktoru İmran Arzumanzadə məlumat verdi ki, "Nizami" kinoteatrı üçün yeni binanın inşasına bu ilin mayında başlanılıb. Nəriman Nərimanov küçəsində yerləşən binanın ərazisi abadlaşdırılıb, ətrafda istirahət parkı salınıb. İkimərtəbəli binada hər biri 80-100 yerlik olmaqla 3 kino zalı və digər inzibati otaqlar var.

Qeyd edək ki, müasir səviyyədə yaradılan, ən son texnoloji yeniliklərə əsaslanan video və audiosistemlə təchiz olunan "Nizami" kinoteatrının yeni binasının istifadəyə verilməsi Sumqayıtın mədəni həyatında mühüm hadisədir. Bu, şəhər həyatı ilə bağlı mədəni tədbirlərin keçirilməsini daha da stimullaşdıracaq, insanların istirahətinin təşkilində əhəmiyyətli rol oynayacaq, gənclərin bu tədbirlərdə daha fəal iştirakına təkan verəcək.






Kinoteatrın qarşısında Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin heykəli qoyulub.

Son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda aparılan uğurlu islahatlar digər sahələrlə yanaşı, mədəniyyət sferasını da əhatə edib. Bu islahatların səmərəli nəticələrini isə istər mədəniyyət sahəsində çalışanların sosial-rifah halının yaxşılaşdırılmasında, yeni mədəniyyət obyektlərinin inşasında və mövcud olanların müasir səviyyəyə çatdırılmasında, istərsə də bu sferanın maddi-texniki bazasının möhkəmlənməsində aydın görmək olar. Ölkəmizdə bu istiqamətdə icra olunan layihələr isə davamlı xarakter alıb. Sumqayıtda "Nizami" kinoteatrı üçün yeni binanın inşası bunu bir daha göstərir. Bu cür layihələrin həyata keçirilməsi yeni mədəniyyət ocaqlarının yaradılması baxımından ölkəmizdə görülən işlərin ardıcıllığını nümayiş etdirir. Eyni zamanda, şəhər sakinlərinin və qonaqların asudə vaxtlarının səmərəli təşkilində, onların müasir kino sənayesinin yeni məhsulları ilə tanış olmasında belə mədəniyyət ocaqları mühüm rol oynayır.

# Sumqayıt bu gün Ulu Öndərin arzuladığı kimi, güllü-çiçəkli, işıqlı və abad bir şəhərə çevrilib

## Muğamın yaşadılması, onun gələcək nəsillərə çatdırılması daim diqqət mərkəzindədir





Noyabrın 21-də Sumqayıtda Muğam Mərkəzi istifadəyə verilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Mərkəzin açılışında iştirak edib.

Dövlət başçısı Muğam Mərkəzinin rəmzi açılışını bildirən lenti kəsdi, burada yaradılan şəraitlə tanış oldu.

Məlumat verildi ki, inşasına bu ilin mayında başlanılan Mərkəzin binası ikimərtəbəlidir. Burada konfrans zalı, qrim, məşq, rejissor otaqları yaradılıb. Sinif otaqlarının hamısı zəruri avadanlıqla təchiz edilib. Tamaşaçı tutumu 400 nəfər olan konsert zalında müxtəlif mədəni tədbirlərin, o cümlədən muğam gecələrinin keçirilməsi üçün hər cür şərait var. Sinif otaqlarında isə muğamın sirlərinə yiyələnmək üçün bütün imkanlar mövcuddur.

Sumqayıt bulvarı ərazisində yerləşən Muğam Mərkəzinin ətrafı abadlaşdırılıb. Burada yaradılan şərait bir daha təsdiqləyir ki, xalqımızın ən qədim musiqisi olan muğamın yaşadılması, onun gələcək nəsillərə çatdırılması daim diqqət mərkəzindədir. Xalqın ruhundan süzülən muğamın inkişafı ilə bağlı dövlətin nümayiş etdirdiyi konsepsiya onun təbliği və dünya xalqlarına çatdırılmasında da əhəmiyyətli rol oynayır.

Son illərdə istər ölkəmizdə, istərsə də onun hüdudlarından kənarda muğamın təbliğinə dövlət səviyyəsində yüksək diqqət göstərilir. Bu baxımdan son dövrlərdə yaradılan Muğam mərkəzlərinin müstəsna əhəmiyyəti var. 2008-ci ildə Bakıda və Ağcabədidə, 2010-cu ildə Füzulidə, 2018-ci ildə Ağdamda inşa olunan Muğam mərkəzləri ölkəmizdə muğamın inkişafına mühüm töhfələr verib. Bəşəriyyətin şifahi və mənəvi irsinin incilərindən olan muğamın təbliği və inkişafı istiqamətində dövlət tərəfindən son illərdə görülən sanballı işlərə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da tarixi töhfələr verir. Fondun həyata keçirdiyi layihələrin nəticəsidir ki, 2003-cü ildə UNESKO həm milli, həm də bəşər mədəniyyəti üçün Azərbaycan muğamının bədii dəyərini etiraf edib. Muğam UNESKO-nun "Bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərləri" siyahısına salınıb. Ötən illərdə Heydər Əliyev Fondu ilə Azərbaycan Televiziyasının birgə layihəsi əsasında muğam televiziya müsabiqələrinin keçirilməsi bu əvəzsiz sənət nümunəsinin yaşadılması, xalqımızın qədim yaddaşından gələn muğamlarımızın qorunması istiqamətində mühüm hadisələr kimi tarixə düşüb.

## Sumqayıt Bulvar Kompleksində bütün yaş qruplarının istirahəti üçün yüksək şərait yaradılıb





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Sumqayıt Dənizkənarı Bulvar Kompleksinin yeni salınmış hissəsində yaradılan şəraitlə tanış olub.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı elektromobillə Sumqayıt Dənizkənarı Bulvar Kompleksinin yeni salınmış hissəsini gəzdi.

Məlumat verildi ki, Sumqayıt bulvarı şəhərin şimal-qərb istiqamətində 1 kilometr uzunluğunda, 400 metr enində, ümumilikdə isə 40 hektar sahədə genişləndirilib. Beləliklə, bu istirahət məkanının sahəsi 106 hektara, uzunluğu isə 5,2 kilometrə çatdırılıb. Ərazidə geniş miqyasda yaşıllıq sahəsi salınıb, müasir işıqlandırma sistemi qurulub. Park boyu 1 kilometr uzunluğunda yeni yol inşa olunub. Kompleksin yeni salınan hissəsində bütün yaş qruplarının istirahəti üçün yüksək şərait yaradılıb.

Bu gün ölkəmizdə həyata keçirilən sosial-iqtisadi layihələrin tərkib hissələrindən biri də yeni istirahət guşələrinin, park və xiyabanların yaradılmasıdır. Son dövrlərdə Prezident İlham Əliyevin tapşırığına əsasən, bütün şəhər və rayonlarda yeni parkların, xiyabanların, istirahət guşələrinin yaradılması, mövcudlarının isə əsaslı şəkildə yenidən qurulması istiqamətində mühüm layihələr icra edilir. Bu istiqamətdə reallaşdırılan ən mühüm layihələrdən biri də Sumqayıtda Dənizkənarı bulvarın və şəhər çimərliyinin yaradılmasıdır. Bu kompleksdəki şərait sübut edir ki, Azərbaycan dövləti vətəndaşların istirahətlərini mənalı təşkil etmək, asudə vaxtlarını səmərəli keçirmək üçün bütün zəruri addımları atır. Xəzərin sahilindəki bu kompleks Sumqayıt şəhərinin simasının daha da gözəlləşdirilməsi baxımından da olduqca əhəmiyyətlidir.

## Azərbaycan ilə Bolqarıstanda ictimai-siyasi sabitlik və asayiş xalqın iradəsi ilə təmin olunur



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Bolqarıstan Respublikasının Daxili İşlər naziri Mladen Marinovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin üzvlərini salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Xoş gəlmisiniz. Düşünürəm ki, ölkələrimizi bir-birinə bağlayan məsələlər haqqında danışmaq üçün yaxşı imkandır. Mən şadam ki, münasibətlər çox uğurla inkişaf edir. Əlbəttə, yüksək səviyyədə qarşılıqlı səfərlər bizim əlaqələrimizi möhkəmləndirir. Mən bir neçə dəfə, o cümlədən rəsmi səfərlə sizin ölkənizdə olmuşam. Bolqarıstan prezidentləri dəfələrlə Azərbaycana səfər ediblər. Həmçinin Baş Nazir cənab Borisov da bizim qonağımız olub. Beləliklə, ölkələrimiz arasında çox fəal siyasi dialoq mövcuddur.

Əlbəttə ki, biz energetika sahəsində də əməkdaşlıq edirik. Bolqarıstan "Cənub qaz dəhlizi"nin Məşvərət Şurasının işində həmişə yüksək səviyyədə, nazir səviyyəsində iştirak edir. Əminəm ki, ölkələrimizi birləşdirən bu layihə yaxın vaxtda uğurla başa çatdırılacaq. Beləliklə, uzun illər ərzində biz energetika gündəmi ilə bağlı olacağıq. Lakin həmçinin əmtəə dövriyyəsinin də artırılmasını nəzərdə tuturuq. Düşünürəm ki, "Cənub qaz dəhlizi" layihəsinin reallaşdırılmasından sonra ölkələrimizin biznes qurumları bir-biri ilə daha çox əlaqə saxlayacaq və daha sıx əməkdaşlıq edəcəklər.

Gələcək əməkdaşlığın daha bir istiqaməti nəqliyyat sahəsidir. Azərbaycan artıq qonşu ölkələrə və digər dövlətlərə yüklərin Şərq-Qərb marşrutu ilə daşınması üçün tranzit xidmətləri göstərir. Beləliklə, əminəm ki, bu mühüm dəhlizin genişləndirilməsi ilə ölkələrimizdən yük göndərənlər əməkdaşlıq üçün əlavə imkanlar əldə edəcəklər.

Əlbəttə, siz səfər çərçivəsində həm Daxili İşlər nazirlikləri arasında əməkdaşlıq mövzusuna, həm də ictimai asayişin, təhlükəsizliyin təmin edilməsi ilə bağlı məsələlərə toxunacaqsınız. Təcrübə mübadiləsi də böyük əhəmiyyət kəsb edir. Daxili işlər orqanları ictimai asayişin qorunması, vətəndaşların dinc yaşayışının təmin edilməsi üzrə mühüm vəzifəni yerinə yetirirlər. Lakin qeyd etməliyəm ki, artıq uzun illər ərzində həm Bolqarıstanda, həm də Azərbaycanda ictimai-siyasi sabitliyin olduğunu nəzərə alaraq, polis orqanlarının işi sizin bəzi həmkarlarınızın işindən daha azdır. Biz bir sıra inkişaf etmiş ölkələrin polis orqanlarının, demək olar ki, hər gün nümayişçilərlə necə davrandığını, onları döydüklərini, öldürdüklərini, xəsarət yetirdiklərini, qaz, su, dəyənəklə, itlərlə qovduqlarını və çox böyük qəddarlıq nümayiş etdirdiklərini televiziyada görürük. Həm də biz bu cür halları dünyanın müxtəlif ölkələrində, müxtəlif regionlarında, o cümlədən ən inkişaf etmiş ölkələrdə görürük. Lakin Azərbaycanda bizi bir məsələ həmişə maraqlandırır: nə üçün insanların hüquqlarının təmininə cavabdeh olan beynəlxalq təşkilatlar bəzən dinc nümayişçilərin qəddarcasına, qeyri-insani dağıdılmasını görərkən susurlar? Azərbaycanda hansısa kiçik epizod baş verdikdə isə, məsələn, təxminən bir ay əvvəl qanunsuz aksiyanın qarşısının heç bir güc tətbiq etmədən alınmasından sonra beynəlxalq təşkilatlar, bəzi ölkələrin Azərbaycandakı səfirləri bəyanatlar verməyə başlayıblar və az qala hökumətimizi ittiham etməyə cəhd ediblər. Bu hal Avropada həm də qurbanlarla, qətllərlə, xəsarətlərlə, nümayişlərin dağıdılması ilə baş verdikdə isə hüquq müdafiə təşkilatları və beynəlxalq strukturlar susurlar. Bu, ikili standartların təzahürüdür və bu ikili standartlar onları nümayiş etdirən həmin təşkilatları nüfuzdan salır. Kimisə hər hansı məsələdə ittiham etmək üçün ilk növbədə buna mənəvi haqqın olmalıdır. Bizi isə bəzən insan hüquqlarını kobud şəkildə pozanlar və dinc nümayişçiləri qəddarcasına dağıdanlar ittiham etməyə cəhd göstərirlər.

Lakin bir daha demək istəyirəm ki, istər Bolqarıstanda, istərsə də Azərbaycanda ictimai-siyasi sabitlik və asayiş xalqın iradəsi ilə təmin olunur. Sizin ölkəniz mənim dostum cənab Borisovun rəhbərliyi ilə inkişaf və sabitlik yolu ilə irəliləyir. Biz bunu yüksək qiymətləndirir və sizi bütün bu uğurlar münasibətilə təbrik edirik. Beləliklə, mən bizim daxili işlər orqanlarının işinin o qədər də çox olmadığını dedikdə məhz bunu nəzərdə tuturam. Arzu edirəm ki, həmişə sizin işiniz az olsun.

Bir daha xoş gəlmisiniz.

* * *

Daxili İşlər naziri **Mladen MARİNOV** dedi:

- Hörmətli cənab Prezident, çox sağ olun. Sizin məni qəbul etməyiniz mənim üçün böyük şərəfdir. İcazə verin Sizi cənab Baş Nazir Boyko Borisovun adından salamlayım.

Azərbaycan bizim həm energetika sahəsində, həm də gələcək nəqliyyat dəhlizlərinin inkişafında, iqtisadi əlaqələr üzrə və təhlükəsizlik sahəsində strateji tərəfdaşımızdır. "Cənub qaz dəhlizi"nin tikintisinin vaxtında başa çatdırılmasına nail olmaq və beləliklə, bir milyard kubmetr qaz tədarükünü təmin etmək bizim üçün çox vacibdir.

* * *

Prezident İlham Əliyev Bolqarıstanın Baş Naziri Boyko Borisovun salamlarına görə minnətdarlığını bildirdi, onun salamlarını Bolqarıstanın Baş Nazirinə çatdırmağı xahiş etdi.

## Z.F.Fərəcovun 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Sumqayıt şəhərinin 70 illik yubileyi ilə əlaqədar və şəhərin sosial-iqtisadi inkişafında xidmətlərinə görə Zakir Fərəc oğlu Fərəcov 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 noyabr 2019-cu il*

## Sumqayıt şəhərinin 70 illik yubileyi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Sumqayıt şəhərinin 70 illik yubileyi ilə əlaqədar və şəhərin sosial-iqtisadi inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin:

Babayeva Ofelya Hacıməmməd qızı
Quliyev Təbrik Müzəffər oğlu
Maxsudov Maxsudəli Abbas oğlu
Şəfiyev Əşrəf Cavad oğlu.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 noyabr 2019-cu il*

## Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionunun yenidən qurulması məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Sumqayıt Şəhər İcra Hakimiyyətinə ilkin olaraq 5,0 (beş) milyon manat ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə bu Sərəncamın 1-ci hissəsində göstərilən stadionun yenidən qurulmasının başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini nəzərdə tutsun.
4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 noyabr 2019-cu il*

## Sumqayıt şəhərində yeni "ASAN xidmət" mərkəzinin layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Sumqayıt şəhərində yeni "ASAN xidmət" mərkəzinin layihələndirilməsi və tikintisi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə ilkin olaraq 1,0 (bir) milyon manat ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə bu Sərəncamın 1-ci hissəsində göstərilən "ASAN xidmət" mərkəzinin tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini nəzərdə tutsun.
4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 noyabr 2019-cu il*

## Sumqayıt şəhərində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Sumqayıt şəhərində 1 nömrəli şəhər tam orta məktəbi üçün 1800 şagird yerlik yeni binanın tikintisi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 2,0 (iki) milyon manat ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə bu Sərəncamın 1-ci hissəsində göstərilən ümumtəhsil məktəbi binasının tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini nəzərdə tutsun.
4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 noyabr 2019-cu il*

## M.M.Aslanovun 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında səmərəli fəaliyyətinə görə Mahir Məhəmmədəli oğlu Aslanov 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 noyabr 2019-cu il*

## Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin əməkdaşlarına ali xüsusi rütbələrin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Probasiya Xidmətinin rəisi Akşin Vaqif oğlu Ziyadova III dərəcəli dövlət ədliyyə müşaviri ali xüsusi rütbəsi verilsin.

2. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti rəisinin müavini Orxan Əziz oğlu Qasımova ədliyyə general-mayoru ali xüsusi rütbəsi verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 noyabr 2019-cu il*

## Sumqayıt şəhərində çoxmənzilli binaların dam örtüklərinin dəyişdirilməsi işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Bu il şəhər statusu almasının 70 illiyini qeyd edən Sumqayıt ötən dövr ərzində parlaq inkişaf yolu keçərək, ölkənin aparıcı sənaye mərkəzlərindən birinə çevrilmiş, eyni zamanda, elm, təhsil, mədəniyyət və digər sahələrdə böyük uğurlar əldə etmişdir.

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının uğurlu icrası nəticəsində bu gün də sürətlə inkişaf edən Sumqayıt şəhərində qeyri-neft sənayesinin davamlı inkişafının təmin edilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilmiş, o cümlədən gücü 525 MVt olan Elektrik Stansiyası, “Sumqayıt-3” yarımstansiyası tikilmiş, “Azərkimya” İB-in müəssisələri yenidən qurulmuş, Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin “Azgüntex” zavodu, “Sağlam qida” Aqrar-Sənaye Kompleksi, “Azərsun Holdinq”in kağız və karton emalı kombinatı və yağ istehsalı fabriki, “Gilan” Tekstil Parkı, Mis Emalı Zavodu, “Alyans Tekstil” MMC-nin uniformalar istehsalı fabriki, “Azkontakt” MMC-nin beton boru və beton döşəmə daşı istehsalı müəssisələri yaradılmış, Kimya Sənaye Parkında “Azərtexnolayn” MMC-nin polad və polietilen borular, mexaniki və hidrotexniki avadanlıqlar istehsalı zavodu, “STP” MMC-nin müxtəlif istehsal sahələri üzrə ixtisaslaşmış zavodları, İnşaat Kimyəviləri Zavodu, Bakı Əlvan Metallar və Ferroərintilər Zavodu, “Tabaterra” QSC-nin tütün məmulatları istehsalı fabriki, pestisid və aqrokimyəvi məhsulları, azot gübrəsi istehsalı, xortum və fitinq birləşmələri, sürtkü yağları, polipropilen və yüksək sıxlıqlı polietilen, elektron təhsil avadanlıqları, şüşə və saxsı məmulatları istehsalı müəssisələri, Məlumatların Emalı Mərkəzi istifadəyə verilmiş, 84 mindən çox yeni iş yeri açılmışdır.

Bununla yanaşı, şəhərdə sosialyönümlü bir sıra infrastruktur layihələri də yerinə yetirilmiş, o cümlədən Olimpiya və Paralimpiya İdman kompleksləri, Bayraq Muzeyi, Muğam Mərkəzi, Nizami kinoteatrı, Gənclər Mərkəzi, Şahmat Məktəbi, Uşaq İncəsənət Məktəbi, əlil və şəhid ailələri üçün ümumilikdə 240 mənzilli 5 yaşayış binası inşa edilmiş, 1 nömrəli şəhər Mərkəzi Xəstəxanasının, “Kimyaçılar” Mədəniyyət Sarayının, Sumqayıt Dövlət Dram Teatrının, Tarix Muzeyinin, 1 nömrəli Uşaq-Gənclər İdman Məktəbinin, 3 nömrəli Uşaq-Gənclər Şahmat-Dama İdman Məktəbinin binaları əsaslı təmir olunmuş, “ASAN xidmət” mərkəzi fəaliyyətə başlamış, dənizkənarı bulvar kompleksinin ərazisi genişləndirilərək 146 hektara çatdırılmış, şəhər avtomobil yollarının yenidən qurulması, çoxmənzilli binaların dam örtüklərinin dəyişdirilməsi, lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində əsaslı işlər görülmüş, genişmiqyaslı abadlıq-quruculuq işləri aparılmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq Sumqayıt şəhərində 100 çoxmənzilli binanın dam örtüyünün dəyişdirilməsi məqsədilə **qərara alıram:**

1. Sumqayıt şəhərində çoxmənzilli binaların dam örtüklərinin dəyişdirilməsi üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Sumqayıt Şəhər İcra Hakimiyyətinə 6,0 (altı) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 noyabr 2019-cu il*

# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Rusiyaya rəsmi səfəri

## Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Rusiya Hökumətinin sədri Dmitri Medvedevlə görüşüb

Rusiya Federasiyasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva noyabrın 21-də Rusiya Federasiyası Hökumətinin sədri Dmitri Medvedevlə görüşüb.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Rusiya Hökumətinin Qəbullar Evinə gəldi. Rusiya Hökumətinin sədri Dmitri Medvedev Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanı qarşıladı.

Sonra Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Rusiya Federasiyası Hökumətinin sədri Dmitri Medvedevlə görüşü oldu.

Azərbaycanın Birinci vitse-prezidentini salamlayan Rusiya Hökumətinin sədri **Dmitri MEDVEDEV** dedi:





- Hörmətli Mehriban Arif qızı.

Hörmətli dostlar, həmkarlar.

Sizi ölkəmizdə - Rusiyada ürəkdən salamlayıram. Əlbəttə, Azərbaycana səfərimi xatırlayıram. Bu, sonuncu dəfə 2016-cı ilin aprelində olub. Hərçənd sonra bizim bir neçə dəfə görüşmək imkanımız olub. İlk növbədə, xahiş edirəm, Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyevə salamlarımı çatdırasınız. Sizin ölkəmizə səfərinizin çox yaxşı proqramının olmasından məmnunluğumu ifadə etmək istəyirəm. O, mükəmməl və zəngindir. Buraya bizim Sizinlə danışıqlarımız, Rusiya Federasiyasının Prezidenti ilə sabah keçirəcəyiniz görüş, Rusiya regionlarının böyük bir hissəsinin iştirak edəcəyi genişmiqyaslı regionlararası forum daxildir. Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində “Azərbaycan” pavilyonunun açılışı da çox əlamətdar hadisədir. Bütün bunlar ölkələrimiz arasında mehriban qonşuluğu, tərəfdaşlığı və dostluğu tam şəkildə əks etdirir. Sizin səfəriniz də bunun əyani təzahürüdür. Ona görə Sizi ürəkdən salamlayıram və istər iqtisadiyyatda, istərsə də başqa sahələrdə bizim qarşılıqlı fəaliyyətimizin ən mühüm problemlərini müzakirə etməyi təklif edirəm.

* * *

Azərbaycanın Birinci vitse-prezidenti **Mehriban ƏLİYEVA** dedi:

- Hörmətli Dmitri Anatolyeviç.

Hörmətli həmkarlar.

Hər şeydən əvvəl Sizin ölkənizə rəsmi səfərə dəvətə görə Rusiya Federasiyasının rəhbərliyinə dərin minnətdarlığımı bildirmək istəyirəm. Mən yenidən Moskvada olmağıma çox şadam. Moskva mənim üçün doğma şəhərdir. Mənim tələbəlik illərim burada keçib. Sizinlə görüşə çox şadam. Həmçinin fürsətdən istifadə edərək Sizə Azərbaycan Respublikasının Prezidentinin salamlarını və ən xoş arzularını çatdırmaq istərdim.

Azərbaycan Rusiya ilə qarşılıqlı münasibətlərə müstəsna dərəcədə böyük əhəmiyyət verir. Ölkələrimizi möhkəm, qədim dostluq və mehriban qonşuluq əlaqələri birləşdirir. Azərbaycan və Rusiya prezidentlərinin siyasi iradəsi, həmçinin hər iki tərəfin birgə səyləri sayəsində bu gün münasibətlərimiz strateji tərəfdaşlıq kimi xarakterizə olunur. Fəal siyasi dialoq mövcuddur. Azərbaycan və Rusiya prezidentləri mütəmadi olaraq görüşlər keçirirlər. Bu görüşlər, demək olar ki, bütün sahələrdə münasibətlərin inkişafına güclü impuls və dinamizm verir.

Şübhəsiz ki, iqtisadi əməkdaşlıq bizim ikitərəfli gündəliyimizin ən mühüm komponentlərindən biridir. Rusiya Azərbaycanın əsas ticarət tərəfdaşlarından biridir, qeyri-neft məhsullarının idxalı üzrə birinci yeri tutur. Əgər biz göstəricilərə baxsaq, onlar böyük nikbinlik doğurur. Biz hər il artım qeyd edirik, əmtəə dövriyyəsi artır. Ötən il 19 faiz artım olub və 2,6 milyard ABŞ dolları təşkil edib. Bu ilin 9 ayında isə artım 24 faizə çatıb. Yəni bu göstəricilər olduqca nikbindir. Qarşılıqlı sərmayə qoyuluşu artır. Azərbaycan iqtisadiyyatına yatırılan Rusiya sərmayələrinin həcmi 4,9 milyard dollardır, Azərbaycan Rusiyaya 1,2 milyard dollar sərmayə qoyub. Mühüm olan odur ki, hökumətlərarası komissiyanın təhlilinə görə, bu potensialdan tam şəkildə istifadə edilməyib, daha 2-3 dəfə artım mümkündür.

Hörmətli Dmitri Anatolyeviç, Siz regionlararası əməkdaşlığı qeyd etdiniz. Həqiqətən, bu, bizim ikitərəfli qarşılıqlı fəaliyyətimizin çox mühüm tərkib hissəsidir. Mənim səfərim çərçivəsində X regionlararası forum keçiriləcək. Turizm sahəsində yaxşı göstəricilər var. Rusiyadan bizim ölkəmizə səyahət edən turistlərin sayı artır. Ötən il 900 min rusiyalı Azərbaycanda olub. Cari ildə həmin göstəricinin artacağı gözlənilir.

Əlbəttə, mən humanitar əlaqələrimizdən danışmaq istəyirəm. Çünki hesab edirəm ki, ölkələrimiz arasında humanitar əlaqələr, xüsusən təhsil sahəsində nümunəvidir. Azərbaycanda rus dilinə və rus mədəniyyətinə böyük hörmətlə yanaşırlar. Bizim ölkəmizdə rus dilində təhsil tam şəkildə qorunub saxlanılıb, 338 məktəbdə tədris rus dilində aparılır, 14 ali məktəbdə rus dilində bölmələr var, 50 məktəbdə Təhsil Nazirliyinin rus dilinin intensiv tədrisi pilot layihəsi uğurla həyata keçirilir. Əlbəttə, ali təhsil səviyyəsində qarşılıqlı fəaliyyət var. Lomonosov adına Moskva Dövlət Universitetinin, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialları Azərbaycanda uğurla fəaliyyət göstərir. Düşünürəm ki, bu sahədə də böyük potensial mövcuddur. Ümidvaram ki, gələcəkdə əməkdaşlığımız bütün sahələr üzrə genişlənəcək, ölkələrimizin və xalqlarımızın rifahına xidmət edəcək.

Səmimi qəbula, qonaqpərvərliyinizə görə Sizə bir daha dərin təşəkkürümü bildirmək və ən xoş arzularımı çatdırmaq istəyirəm. Sağ olun.

## Birinci vitse-prezident Mehriban Əliyeva “Lujniki” Olimpiya Kompleksində Gimnastika Mərkəzi ilə tanış olub





Noyabrın 21-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Rusiyaya rəsmi səfəri çərçivəsində “Lujniki” Olimpiya Kompleksində Ümumrusiya Bədii Gimnastika Federasiyasının prezidenti İrina Viner-Usmanovanın Gimnastika Mərkəzi ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanı “Lujniki” Olimpiya Kompleksində Ümumrusiya Bədii Gimnastika Federasiyasının prezidenti İrina Viner-Usmanova qarşıladı.

Birinci vitse-prezident Mehriban Əliyeva burada İrina Viner-Usmanovanın Gimnastika Mərkəzi ilə tanış oldu.

Məlumat verildi ki, bu ilin iyun ayında açılan Gimnastika Mərkəzində məşq zalları, məşqçilər və hakimlər üçün otaqlar, multimedia muzeyi, şərhçi otaqları, yeməkxana, press-bar və emalatxanalar var.

Mərkəzdə bədii gimnastikanın tarixində ilk multimedia muzeyi yaradılıb. Muzeyin ekspozisiyasına taç-masa ilə birlikdə 5 LED ekran daxildir. Həmin ekranlar vasitəsilə bədii gimnastikanın tarixi, bu idman növündə fərqlənənlər, Rusiyanın gimnastika məktəbləri haqqında məlumatlar əks olunur.

Sonra əsas arena ilə tanışlıq oldu.

Bildirildi ki, Gimnastika Mərkəzinin yerləşdiyi ərazinin ümumi sahəsi 25,7 min kvadratmetr olmaqla beş mərtəbədən və nadir layihə əsasında informasiya modelləşdirilməsi texnologiyalarının tətbiqi ilə bir yeraltı mərtəbədən ibarətdir. Binanın gimnastika lenti formasında damı Gimnastika Mərkəzinin rəmzinə çevrilib. Bina beynəlxalq səviyyəli yarışlar keçirilməsinin və idmançıların peşəkar hazırlığının bütün tələblərinə cavab verir. Gimnastika Mərkəzi yarış vaxtı 500 idmançı və 4 minədək azarkeş tutumuna malikdir.





Qeyd edək ki, Rusiyada müasir bədii gimnastika Bədii Gimnastika Federasiyasının prezidenti, milli yığmanın baş məşqçisi, idman aləmində nüfuzlu şəxslərdən olan İrina Viner-Usmanovanın rəhbərliyi ilə inkişaf edir. Onun yetirmələri sırasında 6 Olimpiya medalçısı var. Mərkəz üç yaşından başlayaraq uşaqları qəbul edir. Burada həmçinin rəqs və xoreoqrafiya dərsləri tədris olunur. İrina Viner-Usmanovanın ölkələrimiz arasında idman və ümumilikdə dostluq əlaqələrinin inkişafında xüsusi rolu var. Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Azərbaycan və Rusiya arasında idman sahəsində əlaqələrin möhkəmləndirilməsində xidmətlərinə görə İrina Viner-Usmanova “Dostluq” ordeni ilə təltif edilib.



Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva və Ümumrusiya Bədii Gimnastika Federasiyasının prezidenti İrina Viner-Usmanova çay masası arxasında söhbət etdilər.

Birinci vitse-prezident Mehriban Əliyeva İrina Viner-Usmanovaya gələcək fəaliyyətində yeni-yeni uğurlar arzuladı.

Sonda Birinci vitse-prezident Mehriban Əliyevaya xatirə hədiyyəsi təqdim olundu.

## Baş Nazir Əli Əsədov Böyük Britaniyanın Baş Nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson ilə görüşüb



Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədov noyabrın 21-də Londonda Böyük Britaniyanın Baş Nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson ilə görüşüb.

*AZƏRTAC*

## Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib.

Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə və "Konstitusiya Məhkəməsi haqqında" qanunun 7.1-ci maddəsinə əsasən, "Azərbaycan Respublikasının rezident və qeyri-rezidentlərinin xarici valyuta əməliyyatlarının aparılması Qaydaları"nın 4.3.1.3-cü bəndinin şərh edilməsinə dair Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin müraciətinə baxılaraq, icraata qəbul olunması haqqında qərardad çıxarılıb.

Müraciətə mahiyyəti üzrə, tərəflərin iştirakı ilə Konstitusiya Məhkəməsi Plenumunun dekabrın 11-nə təyin edilmiş iclasında baxılacaq.

## Milli Məclisin Sədri Oqtay Əsədov Sankt-Peterburqda bir sıra görüşlər keçirib

Milli Məclisin Sədri Oqtay Əsədovun başçılığı ilə parlament nümayəndə heyəti MDB PA-nın şura və növbəti plenar iclaslarında iştirak etmək üçün Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində səfərdədir.





Parlamentin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nümayəndə heyətinin tərkibinə deputatlardan Xanlar Fətiyev, Fəzail Ağamalı, Mirkazım Kazımov, Bəxtiyar Əliyev, Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər daxildirlər.

Noyabrın 21-də səfər çərçivəsində Milli Məclisin Sədri Rusiya Federasiyası Federal Şurasının Sədri xanım Valentina Matviyenko ilə görüşüb. Federal Şuranın Sədri bildirib ki, Rusiya ilə Azərbaycan arasındakı əlaqələr günbəgün inkişaf edir. Dövlət başçılarımızın görüşləri zamanı aparılan danışıqlar münasibətlərimizin dərinləşməsi üçün möhkəm zəmin yaradıb.

V.Matviyenko Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Moskvada keçirilən Rusiya-Azərbaycan Regionlararası Forumunda iştirakını yüksək qiymətləndirərək, tədbirin önəmini xüsusi vurğulayıb. Qeyd edilib ki, belə forumlar qarşıya qoyulmuş hədəflərə çatmaq baxımından böyük önəm daşıyır.

Bakıya son səfərini xatırlayan V.Matviyenko Azərbaycanda gördüyü qonaqpərvərlikdən və səfər çərçivəsində keçirdiyi görüşlərdən, apardığı danışıqlardan məmnunluğunu ifadə edib. Bildirilib ki, parlamentlərarası əlaqələr dövlətlərarası münasibətlər sistemində mühüm yer tutur. Bu baxımdan bu sahədə əlaqələrimizin dərinləşməsi həyatın digər sahələrinə də öz müsbət təsirini göstərir.

Milli Məclisin Sədri Oqtay Əsədov V.Matviyenkonun cari ilin aprelində ölkəmizə səfəri çərçivəsində keçirilən görüşlərin parlamentlərarası münasibətlərin daha da dərinləşməsi baxımından əhəmiyyətli olduğunu söyləyib. Sədr MDB PA-nın 50-ci plenar iclasında müzakirə olunacaq məsələlərin MDB məkanı üçün əhəmiyyətindən və qurumun vətəndaş cəmiyyəti institutlarının, o cümlədən demokratiyanın inkişafına verdiyi töhfədən danışıb. Ölkələrimizin nüfuzlu beynəlxalq qurumlarda iştirakını, bu platformada nümayəndə heyətlərimizin mütəmadi görüşlərini təqdir edib. Sədr Oqtay Əsədov dövlətlərimiz arasındakı yüksək siyasi dialoqun iqtisadi sahəyə də müsbət təsirini vurğulayıb. Azərbaycanın nəinki Rusiyanın federal qurumları ilə, o cümlədən bu ölkənin regionları ilə də əlaqələri dərinləşdirməkdə maraqlı olduğunu söyləyib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə edilib.

* * *

Həmin gün Milli Məclisin Sədri Oqtay Əsədov MDB PA-nın tədbirlərində iştirak edən Özbəkistan Ali Məclisi Senatının Sədri xanım Tənzilə Narbayeva ilə görüşüb.

Ali Məclis Senatının Sədri MDB PA tədbirləri çərçivəsində bu görüşdən məmnun qaldığını, azərbaycanlı deputatlarla növbəti dəfə fikir mübadiləsi aparmaq imkanından razılığını ifadə edib.

Xanım T.Narbayeva Azərbaycan və Özbəkistan xalqlarının dostluğunun qədim tarixi kökləri olduğunu bildirərək, onların ümumi milli və mənəvi dəyərləri bölüşdüklərini vurğulayıb. Qeyd edilib ki, ölkələrimiz arasındakı yüksək səviyyəli siyasi dialoq iqtisadi, mədəni, humanitar sahələrə də öz təsirini göstərir. Özbəkistan tərəfi Azərbaycan ilə həyatın ən müxtəlif sahələrində əlaqələri dərinləşdirmək niyyətindədir.

Milli Məclisin Sədri Oqtay Əsədov dövlət başçılarımızın görüşlərinin, nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin əhəmiyyətini vurğulayıb. Bildirilib ki, parlamentlər səviyyəsində münasibətlərin dərinləşməsi, deputatların nüfuzlu beynəlxalq qurumlarda mütəmadi görüşləri onları düşündürən məsələlərin müzakirəsi baxımından böyük önəm daşıyır.

Sədr TÜRKPA çərçivəsində əməkdaşlığımızın daha da inkişafının əhəmiyyətindən danışıb, bu qurumun türkdilli dövlətlər arasında münasibətlərin dərinləşməsinə xidmət etdiyini söyləyib. Oqtay Əsədov Azərbaycanın müstəqillik illərində əldə etdiyi nailiyyətlərdən qlobal neft, qaz və nəqliyyat dəhlizlərinin reallaşması istiqamətində görülmüş və perspektiv işlərdən danışıb. İqtisadi, mədəni, humanitar sahələrdə əməkdaşlığımızın daha da dərinləşdirilməsi üçün geniş imkanların olduğunu söyləyib.

Görüşdə tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Həmin gün Sankt-Peterburqun Tavriya sarayında MDB PA-nın Şura iclası keçirilib.

İclasda Plenar sessiyada müzakirəyə çıxarılacaq məsələlərə baxılıb. Toplantıda quruma üzv ölkələrdə seçkilərin müşahidəsinin təşkili, Qazaxıstanda, Belarusda, Özbəkistanda bu sahədə görülmüş işlər, İkinci Dünya müharibəsində Qələbənin 75 illiyinə həsr olunmuş tədbirlər, təşkilatın fəaliyyətinin maliyyələşdirilməsi və digər məsələlər müzakirə olunub.

Noyabrın 22-də MDB PA-nın növbəti plenar sessiyası öz işinə başlayacaq. Sessiyada Azərbaycan nümayəndə heyəti də iştirak edəcək.

## Yeni Azərbaycan Partiyasının yaradılmasının 27-ci ildönümünə həsr olunan təntənəli toplantı keçirilib





*Əvvəli 1-ci səh.*

YAP-ın sıralarında 750 min nəfərə qədər üzvün birləşdiyini deyən Əli Əhmədov söyləyib ki, Azərbaycanın tarixində heç zaman bir partiyanın tərkibində bu sayda üzv olmayıb. Lakin partiyamız təkcə bu sayla fəxr etmir. Eyni zamanda, partiya üzvləri ölkəmizin inkişafına töhfə vermək əzmindədirlər. Bu isə Ulu Öndər Heydər Əliyevin ideyalarına olan inamdan irəli gəlir. Ötən dövr ərzində partiyamız Azərbaycan xalqına ləyaqətlə, şərəflə xidmət edib. İqtidarda olduğu 26 il ərzində YAP-ın və onun liderinin ölkəmizə rəhbərlik etməsi Azərbaycan tarixinin ən parlaq səhifələrini təşkil edir. Bu illər ərzində Azərbaycan qarşısında duran bütün əzəmətli vəzifələri yerinə yetirib. Ölkəmiz simasını kökündən dəyişib, Azərbaycan dünyada, o cümlədən regionda mövqeyini əhəmiyyətli dərəcədə möhkəmləndirib, beynəlxalq miqyasda nüfuzu artıb. Bu gün dünyada Azərbaycan hörmətlə adı çəkilən ölkələr sırasındadır. Bu nailiyyətlərin əldə edilməsi bilavasitə YAP-ın liderinin müəyyənləşdirdiyi siyasətin nəticəsidir.

Baş Nazirin müavini bildirib ki, Heydər Əliyev siyasətinin Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən layiqincə davam etdirilməsi YAP-ın sonrakı inkişafını şərtləndirən əsas amil olub. YAP-ın əldə etdiyi qələbələr Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətlə və bu siyasətə vətəndaşlarımızın münasibətinin yüksək olması ilə bilavasitə əlaqədardır.

Vurğulanıb ki, Yeni Azərbaycan Partiyası Azərbaycanın ən güclü və əzəmətli siyasi təşkilatı kimi özünü təsdiq edib. YAP sıralarında bu qədər insanın birləşməsi və onun siyasətində yaxından iştirak etməsi vətəndaşlarımızın mütləq əksəriyyətinin Heydər Əliyev ideyalarına dərin inamı, eyni zamanda, Prezident İlham Əliyevin siyasətinə inamın ifadəsidir. Əgər vətəndaşların qəlbindən gələn bu istək olmasaydı, bu gün YAP sıralarında 750 min nəfərin cəmləşməsi mümkün olmazdı.

Əli Əhmədov deyib: "Bu yaxınlarda keçirilən rəy sorğuları da təsdiqləyir ki, ölkə əhalisi Prezident İlham Əliyevin həyata keçirdiyi siyasəti dəstəkləyir. YAP bundan sonra da uzun illər Azərbaycan xalqına xidmət edəcək. Uzun illər Azərbaycan vətəndaşları YAP iqtidarının faydasını görəcək və onun siyasətinə xidmət edəcək. Azərbaycan vətəndaşları ötən illərin təcrübəsi əsasında qəti əmin olublar ki, YAP-ın mövcudluğu, onun liderinin Azərbaycana rəhbərlik etməsi əmin-amanlıq, sabitlik, inkişaf, tərəqqi, insanların rifahının yüksəlməsi, milli maraqların qorunması, ölkəmizin beynəlxalq müstəvidə nüfuzunun artması, müasirləşməsi, yeniləşməsi deməkdir. YAP-ın tarixi keçmişi nə qədər əzəmətli və möhtəşəmdirsə, gələcəyinin daha da parlaq olacağına əminliklə inanırıq. YAP-ın sıralarında birləşən əzəmətli siyasi güc bu inamı reallığa çevirəcək".

Tədbirdə çıxış edən Dövlət Statistika Komitəsinin sədri, YAP Siyasi Şurasının üzvü Tahir Budaqov YAP-ın yaranması dövründə ölkəmizdə mövcud olmuş gərgin ictimai-siyasi vəziyyət barədə fikirlərini bildirib. O deyib ki, müstəqilliyin ilk illərində milli dövlətçilik mənafelərinə xidmət edən iqtidarın yoxluğu, hakimiyyətin bir qrup savadsız, səriştəsiz, bəzən isə xəyanətkar şəxslərin əlinə keçməsi ölkədə idarəolunmaz bir vəziyyətin yaranmasına, daxili qarşıdurmaların geniş vüsət almasına gətirib çıxarmışdı. Belə bir zamanda ölkənin taleyinə biganə olmayan ziyalılar, sadə insanlar Naxçıvana üz tutaraq Heydər Əliyevlə görüşlər keçirir, xalqı üzləşdiyi fəlakətlərdən, çətinliklərdən çıxarması üçün ondan kömək istəyirdilər. Ağır vəziyyətə dözməyən insanlar qondarma yaş senzinin ləğvi üçün respublikanın müxtəlif bölgələrində mitinqlər təşkil edir, dahi dövlət xadiminin yenidən böyük siyasətə qayıdışını tələb edirdilər. Nəhayət, respublikanın mütərəqqi fikirli ziyalıları 1992-ci ilin iyun ayında yeni siyasi mübarizə yolu seçərək Ümummilli Liderimizin rəhbərliyi ilə yeni partiya yaratmaq qərarına gəldilər. Həmin ziyalılar oktyabr ayında Yeni Azərbaycan Partiyasının yaradılması xahişi ilə Ulu Öndər Heydər Əliyevə müraciət etdilər. Müraciəti imzalayanlar yaxşı bilirdilər ki, yeni müstəqillik qazanmış ölkəni düşdüyü ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət məhz Heydər Əliyevdir. Azərbaycan xalqının istəyinə heç zaman biganə qalmayan, özünün qurub-yaratdığı respublikanın dağılmasına dözməyən Heydər Əliyev Vətənin dar günündə xalqın səsinə səs verdi. Beləliklə, 1992-ci il noyabrın 21-də müstəqil Azərbaycanın çağdaş dövlətçilik tarixində yeni səhifə açan əlamətdar hadisə baş verdi. Naxçıvanda 550-yə yaxın nümayəndənin iştirakı ilə partiyanın təsis qurultayı keçirildi, Ulu Öndər yekdilliklə təşkilata sədr seçildi. Müstəqilliyə yenicə qovuşmuş Azərbaycanda milli mənafe və dövlətçilik maraqlarının təmsilçisi olmaq kimi müqəddəs amalı özünün siyasi idealı, əsas strateji xətti seçən bu partiyanın qısa müddətdə cəmiyyətdə həlledici çoxluq tərəfindən ölkəni idarə etməyə qadir alternativsiz qüvvə kimi qəbul olunması da məhz Ulu Öndər Heydər Əliyevin fenomenal liderlik və idarəçilik keyfiyyətləri ilə şərtlənirdi.

Qeyd edilib ki, Ümummilli Liderin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə dönüş yarandı. Müstəqilliyin ilk illərində baş vermiş iqtisadi tənəzzülün, vətəndaş müharibəsinin, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinin qarşısının alınması, dövlətçilik ənənələrinin və sabitliyin bərpası məqsədilə Heydər Əliyevin atdığı qətiyyətli addımlar qısa müddət ərzində hər bir vətəndaşın həyatında hiss olunmağa başladı.

Vurğulanıb ki, istənilən siyasi partiyanın mövcudluğu, ilk növbədə, onun ideyalarının ictimai dəyəri ilə müəyyən olunur. Yeni Azərbaycan Partiyasının həyata keçirdiyi missiyanın əhəmiyyəti bu gün partiyanın sıralarında birləşən çoxsaylı üzvlərin sayında öz təsdiqini tapır. Eləcə də partiyamızın sədri cənab İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasət kursuna bütövlükdə xalqın etimadı bu partiyanın nüfuzunun yüksək olmasını şərtləndirir. Bu inam məhz Prezident İlham Əliyevin milli maraqlara əsaslanan fəaliyyəti üzərində köklənib. Bütün bu uğurların əldə olunmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Yeni Azərbaycan Partiyasının sədr müavini Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətinin də xüsusi payı var.

YAP Siyasi Şurasının üzvü, Milli Məclisin deputatı Məlahət İbrahimqızı çıxışında partiyanın keçdiyi şərəfli yoldan danışıb, Azərbaycanın ötən illər ərzində güclü dövlətə çevrildiyini bildirib. M.İbrahimqızı bu gün Azərbaycanı istəməyən bəzi dairələrin ölkəmizin əleyhinə kampaniya apardıqlarını deyərək partiya üzvlərini həmin dairələrə qarşı daha güclü mübarizə aparmağa səsləyib.

Toplantıda, həmçinin Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının tələbəsi Aytəkin Hacıyeva, YAP Xəzər rayon təşkilatının Gənclər Birliyinin sədri Sadiq Əliyev və Bakı Slavyan Universitetinin tələbəsi, YAP-ın təqaüdçüsü Səbinə Nəsibli çıxış edərək Yeni Azərbaycan Partiyasının xalqımızın və dövlətimizin qarşısındakı xidmətlərindən danışıblar.

## "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi: tarixi kökləri, mərhələləri və həlli perspektivləri" proqramı üzrə kurslar başa çatıb







Noyabrın 21-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası və "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin birgə təsis etdikləri Qarabağ Araşdırmalar Mərkəzində ictimai birliyin könüllüləri üçün "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi: tarixi kökləri, mərhələləri və həlli perspektivləri" proqramı üzrə qısamüddətli elmi maarifləndirmə və təbliğat kursları başa çatıb. Kursların dinləyiciləri Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının beynəlxalq münasibətlər ixtisasının tələbələri olublar.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında fəaliyyət göstərən Qarabağ Araşdırmalar Mərkəzində oktyabrın 31-dən keçirilən kursların sonuncu günündə Prezident yanında Dövlət İdarəçilik Akademiyasının professoru, "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin sədr müavini Elçin Əhmədovun "XX əsrin 80-ci illərinin sonunda Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və hərbi təcavüzünün nəticələri (1988-1993)" mövzusunda mühazirəsi dinlənilib.

Kurslara yekun vuran Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru, professor Əli Həsənov "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınması istiqamətində Azərbaycanın dövlət siyasəti" mövzusunda məruzə ilə çıxış edib.

Əli Həsənov ermənilərin 200 ildən çox bir dövrdə azərbaycanlılara qarşı həyata keçirdiyi etnik təmizləmə, soyqırımı siyasətinin əsas məqsədləri, o cümlədən bu hadisələrin öyrənilməsi, dünya ictimaiyyətinə çatdırılması kimi məsələlərdən bəhs edib. Prezidentin köməkçisi bildirib ki, tariximizə nəzər salsaq, Rusiya-İran, Rusiya-Türkiyə müharibələri fonunda ermənilərin Azərbaycan torpaqlarına, o cümlədən Qarabağa, Naxçıvana, Zəngəzura köçürülməsi, onların məskunlaşandan sonra Azərbaycan torpaqlarına göz dikməsi, bu ərazilərdə Ermənistan dövlətini yaratmaq siyasəti, bütün bunların zaman-zaman qanlı səhifələrə rəvac verən hadisələrlə müşayiət edilməsi kimi həqiqətlərin şahidi olarıq. Bunların sırasında 1918-ci il 31 mart - azərbaycanlıların soyqırımı, həmçinin 1948-1953-cü illərdə azərbaycanlıların kütləvi şəkildə Ermənistandan köçürülməsi, Xocalı soyqırımı və digər erməni vandalizm aktlarını qeyd etmək olar.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövcud vəziyyət barədə danışan Əli Həsənov deyib ki, bu məsələ ilə əlaqədar Azərbaycanın haqq səsi, ədalətli mövqeyi artıq dünya ictimaiyyətinə çatdırılıb. Azərbaycan Prezidenti İlham Əliyev başda olmaqla dövlətimiz ötən müddətdə, xüsusən son 15 ildə Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli ilə bağlı bütün beynəlxalq təşkilatlarda öz sözünü deyib, hücum diplomatiyasını həyata keçirib. BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilən dörd qətnamənin hər birində Azərbaycanın işğal olunmuş ərazilərinin qeyd-şərtsiz boşaldılması, Ermənistan qoşunlarının geri çəkilməsi, dinc əhalinin doğma torpaqlarına geri qaytarılması ilə bağlı tələblər irəli sürülür. Bu qətnamələr beynəlxalq hüquqa əsaslanır. Son vaxtlar Qoşulmama Hərəkatı da birmənalı şəkildə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini dəstəkləyir. Digər beynəlxalq təşkilatlar, o cümlədən Avropa Şurası, ATƏT, Avropa Parlamenti, həmçinin tərəfdaşlıq etdiyimiz NATO kimi qurumların əksəriyyəti bu işğal faktını tanıyıblar. Lakin təəssüflər olsun ki, beynəlxalq münasibətlərin indiki durumu və ikili standartlar siyasəti Ermənistana işğal etdiyi Azərbaycan torpaqlarından geri çəkilməsi üçün ciddi şəkildə təzyiq göstərmir.

Prezidentin köməkçisi diqqətə çatdırıb ki, dövlət başçısı İlham Əliyevin Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli şəkildə həlli istiqamətində apardığı siyasət dünya ictimaiyyətinin Qarabağ həqiqətləri haqqında məlumatlandırılması ilə bağlı keçirilən tədbirlərin coğrafiyasını genişləndirir. Bu baxımdan Heydər Əliyev Fondunun gördüyü işlər də olduqca təqdirəlayiqdir.

Mütəmadi olaraq keçirilən bu kursların əhəmiyyətini qeyd edən Prezidentin köməkçisi vurğulayıb ki, əsas məqsəd ermənilərin 200 ildən çox müddətdə azərbaycanlılara qarşı həyata keçirdiyi etnik təmizləmə, soyqırımı və təcavüzkarlıq siyasətini gənclərə bütün təfərrüatları ilə çatdırmaqdır. Bundan əlavə, bu kursların keçirilməsi gənclərin maarifləndirilməsi və onlarda vətənpərvərlik ruhunun artmasına kömək olmaqla yanaşı, eləcə də Qarabağ həqiqətləri haqqında dünya ictimaiyyətinin daha çox məlumatlandırılması istiqamətində Azərbaycan dövlətinin apardığı mühüm işlərə töhfə verir.

Sonra dinləyicilərə sertifikatlar təqdim olunub.

Xatırladaq ki, kurslar çərçivəsində Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Tarix İnstitutunun direktoru, tarix elmləri doktoru, akademik Yaqub Mahmudovun "Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və təcavüzkarlıq siyasətinin tarixi kökləri", Prezident Kitabxanasının şöbə müdiri, AMEA-nın Tarix İnstitutunun Qarabağ şöbəsinin baş elmi işçisi Nazim Mustafanın "XX əsrin əvvəllərində ermənilərin azərbaycanlılara qarşı təcavüzü (1905-1906)", AMEA-nın Tarix İnstitutunun Azərbaycanın tarixi demoqrafiya şöbəsinin müdiri, tarix elmləri doktoru, professor Kərim Şükürovun "Ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi və Cənubi Qafqazda demoqrafik vəziyyətin dəyişməsi", Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Tarix kafedrasının müdiri, dosent Firdovsiyə Əhmədovanın "Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları: DQMV-nin yaradılması və onun nəticələri (1918-1923)", AMEA-nın Şərqşünaslıq İnstitutunun professoru Solmaz Tohidi-Rüstəmovanın "Azərbaycanlıların soyqırımı (1918-1920-ci illər)", Milli Məclisin deputatı, AMEA-nın müxbir üzvü, professor Musa Qasımlının sovet dövründə Ermənistanın Azərbaycana ərazi iddiaları və azərbaycanlılara qarşı etnik təmizləmə siyasətinin nəticələri (1945-1985)" və "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyi İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Elman Məmmədovun "Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı siyasəti: Xocalı soyqırımı" mövzularında mühazirələri dinlənilib.

# Əli HƏSƏNOV: "Mühacir ticarətini quran işbazlar, o cümlədən bu işdə əlini qızdıran bəzi siyasi partiyalar və siyasətçilər üzə çıxacaq"

*Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru, professor Əli Həsənovun Trend-ə müsahibəsi*



**- Əli müəllim, bu günlərdə Almaniyada "miqrant alveri"nə görə bir qrup azərbaycanlının həbs edilməsi böyük rezonans yaratdı. Məlum oldu ki, bəzi müxalifət təmsilçiləri saxta sənədlərlə bir sıra şəxslərin Avropaya yerləşməsinə yardımçı olublar. Bu barədə fikirlərinizi öyrənmək istərdik.**

- Miqrasiya məsələləri, bir ölkədən başqa ölkəyə köç etmə, mövsümi və ya daimi yaşayış yerini dəyişmə, ayrı-ayrı səbəblərdən bir ölkədən başqa ölkəyə müvəqqəti və ya daimi keçid normal prosesdir. Müstəqillik dövründə Azərbaycandan xarici ölkələrə köç edənlər, mövsümi və daimi yaşayış yerini dəyişənlər, o cümlədən Azərbaycana xarici ölkələrdən gələnlər, öz daimi yaşayış yerini Azərbaycan seçənlər də var. Bu, təbii prosesdir, normaldır, qloballaşma dövründə, qlobal dünyada bu prosesləri prinsipcə həm dövlətlər, həm də transmilli şirkətlər təqdir edirlər. İnsanların bu istəyini reallaşdırmaq məqsədilə bəzən hüquqi yardım, bəzən bu və ya digər məsələdə ona kömək göstərmək, yol göstərmək üçün müvafiq qurumlara müraciəti də təbiidir. Çünki xarici ölkələrin hər birinin özünün milli qanunvericiliyi var, Avropa Birliyi ölkələrində Avropa şengen viza normaları var, oraya getmək, yerləşmək və qalmağın müddətli planları mövcuddur. Ona görə də insanlar əgər köçməklə bağlı müraciət edənlərə qanunlar çərçivəsində yardım göstərirlərsə, bu, təbiidir. Yox, əgər onlar qanunun icazə vermədiyi vasitələrlə, o cümlədən bu insanların həyatı, fəaliyyəti, onların yaşadığı ölkədəki vəziyyəti ilə bağlı sənədləri saxtalaşdıraraq bu işə yardım göstərirlərsə, bunun adı həm Azərbaycanda, həm də xarici ölkələrdə cinayətdir. Ona görə də son zamanlar Azərbaycandan gedən, Avropada yerləşən insanların indi geriyə qayıtma prosesi başlayıb və bu prosesi Azərbaycan dövləti deyil, Avropa dövlətləri başladıb.

**- Bəs Almaniyadan deport edilən azərbaycanlıların taleyi necə olacaq, onlarla bağlı hansı tədbirlər görüləcək?**

- Avropa dövlətləri artıq miqrant məsələlərində müəyyən nizam-intizam yaratmağa başlayıb və bu insanlar geri qaytarılır. Biz dövlət olaraq hər bir vətəndaşımız üçün cavabdehik, hər bir vətəndaşımızın geri qayıdışında, yerləşməsində, müvafiq olaraq Azərbaycan cəmiyyətində özünün həyatını qurmasında lazımi yardımı göstərəcəyik. Hər bir dövlətin vəzifəsi öz vətəndaşına iş üçün, həyat üçün şərait yaratmaqdır. Və geri qayıdanların hər birinin fəaliyyəti müvafiq orqanlar tərəfindən araşdırılır, nə zaman gediblər, niyə gediblər, onların getməsində hansı səbəblər olub, kimlər yardım göstərib, onlara qanuni və ya qeyri-qanuni yolla yardım göstərilib?! Burada həmin o mühacir ticarətini quran işbazlar, o cümlədən bu işdə əlini qızdıran bəzi siyasi partiyalar və siyasətçilər üzə çıxacaq. Bəlli olacaq ki, bu insanlara kimlər və hansı adla, niyə yardım göstərib və bunun müqabilində hansı vəsaiti qazanıblar, əldə etdikləri qazanc qanunidir, yoxsa qeyri-qanuni, vergiyə cəlb olunub, yoxsa olunmayıb. Və yaxud da qanunlara əməl ediblər, yoxsa pozublar. Düşünürük ki, bütün bu məsələlər aydınlaşacaq. Amma dediyim kimi, bu prosesi Azərbaycan dövləti başlamayıb, bunu Avropa dövlətləri başlayıb. Bizim də vətəndaşlar Avropadan qayıdan həmin vətəndaşlar sırasında olduğuna görə biz də bu məsələdə tərəf olaraq iştirak edirik və edəcəyik.

**- Bu hadisələr sözsüz ki, Azərbaycanın imicinə zərər vurur. Bu prosesdə iştirak edən dələduzlara qarşı hansı müvafiq tədbirlərin görülməsi gözlənilir?**

- Azərbaycanın miqrasiya orqanı gələn vətəndaşların hər birini qarşılayır, onlarla bağlı müvafiq araşdırmalar aparır. Düşünürəm ki qarşıdan gələn müddətdə biz bu prosesi təşkil edənləri aydınlaşdıracağıq. Bu prosesi Azərbaycanın imicinə zərbə vuraraq həyata keçirənlər sanki Azərbaycanda söz, mətbuat azadlığı yoxdur adı ilə bir qrup yaradıcı insanları, Azərbaycanda fəaliyyət azadlığı yoxdur adı ilə bir qrup siyasiləşmiş insanları ölkədən çıxarıblar. Azərbaycanda mülkiyyət və əmək hüquqları tapdalanır adı ilə müəyyən iş adamlarını ölkədən çıxarıblar və başqa-başqa adlarla milli mənsubiyyətini dəyişərək azərbaycanlının üstünə erməni adı qoyub, sonra da belə adlandırıblar ki, guya Azərbaycanda başqa millətin, başqa dinlərə mənsub olan insanların yaşamağa haqqı yoxdur, guya burada diskriminasiyaya məruz qalırlar. Yəni bunların hamısı, bildiyiniz kimi, qanun pozuntusudur, cinayətdir və bunlar araşdırılaraq müvafiq tədbir görüləcək. Cinayət törətmiş qrup və ya insanlara gəlincə, onlarla bağlı hüquq mühafizə orqanları araşdırma aparır. Nəinki bizim, o cümlədən Almaniya, Fransanın da hüquq mühafizə orqanları araşdırma aparır. Bu işdə cinayətə əli bulaşan insanlar da layiqli cəzalarını alacaqlar.

Amma Azərbaycan dövləti hər bir qayıdan vətəndaşına sahib çıxacaq, Azərbaycanda yaşamaq istəyən vətəndaşlarımıza münbit şərait yaradılacaq. Azərbaycan qanunlarını pozmaq istəyən, Azərbaycan qanunlarına, dövlətinə, dövlətçiliyinə qarşı fəaliyyət göstərən insanlar da qanun çərçivəsində qiymətini alacaqlar.

# Azərbaycanın və Bolqarıstanın daxili işlər orqanları arasında əməkdaşlığın inkişafından məmnunluq ifadə edilib



Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazovun dəvəti ilə Bolqarıstan Respublikasının Daxili İşlər naziri Mladen Marinov ölkəmizə səfərə gəlib.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Mladen Marinov və onu müşayiət edən şəxslər noyabrın 21-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin abidəsi önünə əklil qoyub, Ulu Öndərin əziz xatirəsini ehtiramla yad ediblər.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üstünə tər çiçəklər düzülüb.

Qonaqlar Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş mərd mübarizlərin məzarlarını da ziyarət edib, onların xatirəsinə ucaldılmış "Əbədi məşəl" kompleksinin önünə əklil qoyublar.

Sonra Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov ilə Bolqarıstan Respublikasının Daxili İşlər naziri Mladen Marinovun başçılıq etdiyi nümayəndə heyətinin görüşü olub.

Qonaqları salamlayan nazir dəvəti qəbul edərək ölkəmizə səfərə gəldiyinə görə bolqarıstanlı həmkarına təşəkkür edib, onun Sofiyada Daxili İşlər Direktoratlığının rəisi vəzifəsində çalışarkən Avropa paytaxt polis rəislərinin 2015-ci ilin avqustunda Bakıda keçirilmiş 37-ci konfransında iştirakını məmnunluqla xatırladıb.

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin sürətli inkişaf və tərəqqi yolu keçdiyini, beynəlxalq nüfuzunun yüksəldiyini, respublikamızda əsrlər boyu müxtəlif dinlərin və millətlərin nümayəndələrinin qarşılıqlı ehtiram və həmrəylik şəraitində yaşadıqlarını diqqətə çatdıran nazir son illər əməkdaşlığın strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsindən məmnunluğunu ifadə edib, belə qarşılıqlı səfərlərin və görüşlərin əməkdaşlığın daha da genişləndirilməsinə təkan verəcəyini bildirib.

Vilayət Eyvazov müstəqilliyin ilk illərində ölkədə hökm sürmüş hərc-mərclik, anarxiya, cəzasızlıq mühiti, eyni zamanda, Ermənistanın hərbi müdaxiləsi nəticəsində torpaqlarımızın 20 faizinin işğal edilməsi, nəticədə 1 milyondan artıq soydaşımızın doğma yurd yerlərindən didərgin düşməsi, yalnız xalqın təkidli tələbi ilə ali hakimiyyətə qayıtmış Ümummilli Lider Heydər Əliyevin müdrik siyasəti, onun rəhbərliyi ilə hüquq mühafizə, o cümlədən daxili işlər orqanlarının birgə gərgin və səmərəli fəaliyyəti nəticəsində ölkədə asayişin, əmin-amanlığın bərpa edilməsi, kriminogen durumun nəzarət altına alınması, bugünkü ictimai-siyasi sabitliyin dönməzliyinin təmin olunması üçün görülən işlər barədə məlumat verib.

Daxili işlər orqanlarında həyata keçirilən genişmiqyaslı hüquqi-demokratik islahatlar barədə məlumat verən nazir əməliyyat-xidməti fəaliyyətin beynəlxalq norma və standartlara uyğun təkmilləşdirilməsi, insan hüquq və azadlıqlarının önə çəkildiyi yeni normativ hüquqi bazanın yaradılması istiqamətində görülən işlərdən danışıb, cinayətlərin qarşısının alınmasında ən müasir informasiya texnologiyalarının imkanlarından da geniş istifadə olunduğunu diqqətə çatdırıb.

Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin inkişafına Bolqarıstanın verdiyi dəstəyin respublikamızda yüksək qiymətləndirildiyini nəzərə çatdıran nazir Vilayət Eyvazov siyasi, iqtisadi-ticari əlaqələrin dinamik inkişafının təhlükəsizliyin etibarlı təmini ilə birbaşa əlaqəsi olduğunu qeyd edib, hazırkı səfərin ölkələrimizin Daxil İşlər nazirlikləri arasındakı əməkdaşlığın möhkəmləndirilməsində önəmli mərhələ olacağına əminliyini bildirib. Bu gün dünyadakı mövcud təhdid və çağırışların terrorizmlə, ekstremizmlə, həmçinin transmilli mütəşəkkil cinayətkarlığın bütün növləri ilə mübarizədə səylərin birləşdirilməsinin zəruriliyi, belə qlobal xarakterli təhlükələrə qarşı kəsərli tədbirlərin görülməsində operativ informasiya və qabaqcıl təcrübə mübadiləsinin, əməkdaşlığın müqavilə-hüquqi bazasının daha da genişləndirilməsinin əhəmiyyəti vurğulanıb.

Daha sonra general-polkovnik Vilayət Eyvazov bu istiqamətdə ekspertlərin iştirakı ilə 2012-ci il aprelin 27-də Bakıda imzalanmış "Azərbaycan Respublikasının Hökuməti və Bolqarıstan Respublikasının Hökuməti arasında cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş"ə əlavə Protokolun hazırlanaraq aidiyyəti dövlət orqanları ilə razılaşdırıldığını, ölkəmizin Avropa İttifaqının üzvü olan bir dövlətlə ilk dəfə imzalanması nəzərdə tutulan həmin sənəddə hər iki tərəfin maraq və mənafelərinin, beynəlxalq öhdəliklərinin nəzərə alındığını qeyd edib, onun cinayətkarlığa qarşı mübarizə sahəsində birgə işbirliyinin səmərəliliyinin daha da artırılmasına xidmət edəcəyinə əminliyini bildirib.

Rəsmi dəvətə və yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirən Mladen Marinov Bolqarıstanın ilk Daxili İşlər naziri kimi respublikamıza rəsmi səfər etməsindən qürur duyduğunu, dövlətlərimiz arasındakı əlaqələrin son illər bütün sahələrdə genişlənərək daha da dərinləşdiyini, yaxın dost saydıqları Azərbaycanın Daxili İşlər Nazirliyi ilə əməkdaşlığın daha da inkişaf etdirilməsində maraqlı olduqlarını diqqətə çatdırıb. O, rəhbərlik etdiyi qurumun çoxşaxəli funksional vəzifələri və fəaliyyət istiqamətləri, ölkəsindəki mövcud kriminogen durum, bu istiqamətdə həyata keçirilən tədbirlər barədə məlumat verib.

Görüşün sonunda Daxili İşlər nazirləri - general-polkovnik Vilayət Eyvazov və Mladen Marinov "Azərbaycan Respublikasının Hökuməti və Bolqarıstan Respublikasının Hökuməti arasında cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş"ə əlavə Protokolu imzalayıblar.

Qəbulda ölkəmizin Bolqarıstandakı səfiri Nərgiz Qurbanova və Bolqarıstanın Azərbaycandakı səfiri Nikolay Yankov iştirak ediblər.

# Bütün sahələrdə inkişaf və müasir tələblər

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası müstəqillik illərində bütün istiqamətlər üzrə inkişaf edərək yeni bir tarixi mərhələ səviyyəsinə yüksəlmişdir. Vaxtilə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin atdığı düşünülmüş və uzaqgörən addımlar sayəsində Naxçıvan Muxtar Respublikası işğaldan xilas edilmiş, burada gələcək inkişafın möhkəm təməlləri yaradılmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına göstərdiyi böyük diqqət və qayğı regionda müasir inkişafın təmin edilməsinə meydan açmışdır.

Möhtərəm Prezidentin qədim diyara etdiyi tarixi səfərlər hər dəfə inkişafın yeni bir dalğasına təkan vermişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Azərbaycan dövlətinin yaratdığı geniş imkanlardan səmərəli şəkildə istifadə edərək, bütün qüvvələri və resursları muxtar respublikada hərtərəfli və əsaslı inkişafa nail olmağa səfərbər etmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovu qəbul edərkən aparılan danışıqlar muxtar diyarın ölkə rəhbəri qarşısında hesabatıdır. **Müstəqil dövlətin böyük qayğısının işığında Naxçıvan Muxtar Respublikasının hansı ritmlərlə inkişaf etdirilməsi və əldə olunan mühüm nəticələr haqqında aydın təsəvvür yaradan bu hesabat regionda ardıcıl olaraq həyata keçirilmiş genişmiqyaslı proqramların gedişatını və yekunlarını əhatə edir və dövlət tapşırıqlarının məsuliyyətlə yerinə yetirilməsinə dair ciddi məlumatları nəzərə çarpdırır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasında qazanılmış nailiyyətlərə verdiyi yüksək qiymət burada idarəetmənin və əzmkarlığın bütün imkanları ilə konkret əməli işlərə istiqamətləndirildiyini əyani şəkildə görməyə aydınlıq gətirir.**

Cənab Prezidentin qəbul zamanı bəyan etdiyi fikirlər ilk növbədə Naxçıvan Muxtar Respublikasında bütün sahələrdə inkişafa nail olunduğuna işıq salır. Ölkəmizin rəhbərinin aşağıdakı fikirləri regiondakı hərtərəfli inkişafa verilmiş yüksək qiymətin ifadəsidir: *"Naxçıvan son illər ərzində böyük dərəcədə inkişaf etmişdir, həm sosial sahədə, iqtisadi sahədə, sənaye potensialının möhkəmləndirilməsi istiqamətində böyük addımlar atılmışdır".* Dövlət idarəetməsi sahəsində çoxvektorlu inkişafa xidmət edən müdrik və çevik siyasəti ardıcıl olaraq həyata keçirən Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasının timsalında bu idarəetmə modelinin cəmiyyət həyatının bütün istiqamətlərində uğurlu nəticələrə gətirib çıxardığını diqqət mərkəzinə çəkmişdir.

**Naxçıvan inzibati-iqtisadi rayonunun 2017-ci ildə Azərbaycanın regionları içərisində rəqabətədavamlı hərtərəfli inkişafa görə birinci yerə çıxması burada baş vermiş genişmiqyaslı böyük dəyişikliklərin hesabatını vermək üçün şərait yaradır.**

Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovu qəbul edərkən xüsusi diqqət yetirdiyi məsələlərdən biri də bu regionda əldə olunan nailiyyətlərin çətin mühasirə şəraitində qazanılmasını cəmiyyətin diqqətinə çatdırmaqdan ibarət olmuşdur. Uzun illərdən bəri blokada şəraitində yaşamalı olan Naxçıvan Muxtar Respublikasında gedən iqtisadi-mədəni proseslərin və böyük inamla keçilən yolun uğurlu dərsləri istənilən çətinlikləri dəf etməklə mühüm nəticələr qazanmağın mümkünlüyünə diqqəti yönəltmək məqsədi daşıyır. Bu, həm də konkret olaraq Naxçıvan Muxtar Respublikasında mühasirə şəraitində, mürəkkəb coğrafi vəziyyətdə əldə olunan nailiyyətlərin də dövlət səviyyəsində qiymətləndirilməsinin göstəricisidir: *"Xüsusilə nəzərə alsaq ki, Naxçıvan uzun illər ərzində mühasirə şəraitində yaşayır, üç tərəfdən düşmənlə əhatə olunub, buna baxmayaraq respublika yaşayır, güclənir və böyük inkişaf yolunu davam etdirir".*

Dövlət başçısının qəbulunda Azərbaycanın bu regionunda təhlükəsizlik və ordu quruculuğu məsələlərinə xüsusi diqqət yetirməsi ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi ilə əlaqədar düşmən əhatəsində yaşamalı olan muxtar respublikada həmin sahələrə daha ciddi fikir verilməsinin zərurətini qabarıq ifadə etmək məqsədini daşıyır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun ölkə Prezidenti qarşısında verdiyi hesabatdakı ordu quruculuğu xəttinə dair məlumatlar regionda hərbi sahədə əldə olunan nailiyyətlərin səbəbləri və nəticələrini aydın şəkildə təsəvvür etməyə şərait yaradır. Ali Məclisin Sədrinin cavablarında səslləndirilmiş aşağıdakı sözlər həmin istiqamətdə gedən proseslərin addım-addım izlənilməsinə işıq salır: *"Sizin rəhbərliyinizlə, qayğınızla muxtar respublikada yerləşən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin birləşmə və hissələri uğurlu yol keçib. Ümumqoşun Ordusu korpusdan Əlahiddə Ümumqoşun Ordusuna qədər yol keçibdir. Bu da Sizin diqqətinizlə yaradılıb. Alınmış silah-sursatla bu gün muxtar respublikanın ordusu da lazımınca təmin olunur, hava hücumundan müdafiə sahəsində işlər həyata keçirilir. Bir sözlə, Sizin qayğınızla muxtar respublikanın müdafiəsi üçün orada yerləşən hərbi hissələr hər bir tapşırığı yerinə yetirməyə hazırdır".*

Muxtar respublikada ordu quruculuğunun səviyyəsini təsəvvür etməyə imkan yaradan bu hesabat regionda ərazi bütövlüyünün bərpa edilməsi istiqamətində, itirilmiş torpaqlarımızın qaytarılması sahəsində əldə olunmuş mühüm uğurları əyani şəkildə təsdiq edir. Belə ki, 2018-ci ildə Ali Baş Komandanın rəhbərliyi ilə Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun on bir min kilometr ərazini işğaldan azad etməsi, itirilən torpaqların geri alınması müstəqil dövlətimizin ərazi bütövlüyü siyasətinin təntənəsidir. Bundan başqa, **Şərur rayonunun Danzik kəndindəki sərhəddə yerləşən Qızılqaya zirvəsində üçrəngli dövlət bayrağımızın dalğalandırılması Azərbaycan ordusunun ən böyük zəfərlərindən biri sayılmağa layiqdir.** Böyük qürur hissi ilə demək olar ki, məhz Qızılqaya zirvəsinin fəth edilməsi ilə Azərbaycan ordusu Ermənistan üçün strateji əhəmiyyətə malik olan Yerevan-Çanaxçı-Söylən-Laçın magistralına nəzarət etməyə nail olmuşdur.

Eyni zamanda, ordumuzun apardığı uğurlu əməliyyatlar sayəsində ulu əcdadlarımızın məzarlarının olduğu Yastan yüksəkliyində Azərbaycan əsgərinin qərar tutması torpaqlarımızın etibarlı şəkildə qorunacağına təminat verir. Bütün bunlar cənab Prezidentin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasında təhlükəsizlik və ordu quruculuğu istiqamətində həyata keçirilmiş genişmiqyaslı işlərin möhtəşəm nəticələridir. Bu mənada Prezident İlham Əliyevin aşağıdakı sözləri regionda aparılan hərbi-siyasi işlərin dövlət səviyyəsində qiymətləndirilməsindən ibarətdir. *"İlk növbədə, Naxçıvanda təhlükəsizlik tədbirləri diqqət mərkəzindədir. Son illər ərzində bu istiqamətdə böyük işlər görülüb, ordu quruculuğu sahəsində böyük inkişaf var. Bu gün Naxçıvan ordusu ən müasir silahlarla təchiz edilib, texnikanın alınması təşkil olunub və bu proses davam etdirilir".* Dövlət başçısı tərəfindən deyilmiş bu sözlər Naxçıvana qarşı haqsız ərazi iddialarında olan işğalçı Ermənistana ciddi bir mesajdır.

Dövlət rəhbərimizin qəbulunda enerji və ərzaq təhlükəsizliyi üzrə gedən danışıq bu, həlli zəruri olan sahələrdəki mövcud dinamik inkişafı, qazanılan nailiyyətləri əks etdirməklə bərabər, həm də, ümumiyyətlə, regionda təhlükəsizlik istiqamətində görülmüş işləri tamamlayır və möhkəmləndirir.

Cənab Prezidentin bu sahə üzrə Naxçıvanda "Su və Günəş elektrik stansiyalarının tikintisinin geniş vüsət alması" ilə yanaşı, "hazırda önəmli layihələrin icra edilməsi" haqqında bildirdikləri bu vacib sahənin inkişafının ölkə rəhbərinin nəzarəti altında olduğunu göstərir. Naxçıvan Muxtar Respublikasında enerji və taxıl istehsalı sahəsində baş vermiş böyük dəyişikliklər və nail olunmuş nəticələr regionda həmin xətt üzrə dövlət siyasətinin uğurla həyata keçirildiyini nümayiş etdirir. Ali Məclisin Sədrinin muxtar respublikada 2008-ci ildəki cəmi bir elektrik stansiyadan hazırda 9 elektrik stansiyasının istifadəyə verilməsinədək keçilmiş yol haqqındakı məlumatları, xüsusən də Naxçıvanın böyük miqdarda enerji ixrac etmək imkanlarına malik bir diyara çevrilməsinə dair səslənən fikirlər qısa müddətdə bu sahədə böyük irəliləyişə nail olunduğunu nümayiş etdirir. Bu gün Naxçıvan Muxtar Respublikasında 2018-ci ildə bir il ərzində ixrac edilən 35 milyon kilovata yaxın elektrik enerjisinin miqdarı diyarın 2003-cu ildə malik olduğu elektrik enerjisi resurslarından çoxdur.



Doğrudan da, cənab Prezidentin vurğuladığı kimi, regionda elektrik enerjisinin bugünkü səviyyəsini bir neçə il bundan əvvəl təsəvvür etmək mümkün deyildi. Görkəmli dövlət xadimi Heydər Əliyevin siyasi iradəsi və nüfuzu hesabına XX əsrin sonu və XXI əsrin əvvəllərindəki enerji böhranının aradan qaldırılması üçün fasilələrlə verilən məhdud enerji resurslarından başqa, yalnız Türkiyə Cümhuriyyətindən çəkilmiş xətt üzrə alınan enerji ilə qismən vəziyyətdən çıxılması muxtar respublikada sərt iqlim şəraitində insanların yaşayıb işləmək imkanlarını təmin etmək üçün ilkin və ən zəruri tələbatların ödənilməsinə xidmət edən tarixi xilaskarlıq missiyasının ifadəsi idi. Sonrakı illərdə isə Prezident İlham Əliyevin yaratdığı geniş imkanlar muxtar respublikada bərpaolunan enerji ilə yanaşı, Günəş enerjisindən də gen-bol istifadə etməyə şərait yaratmışdır. Modul tipli elektrik enerjisi mərkəzlərinin quraşdırılması ehtiyat elektrik enerjisinin qorunub saxlanılmasına da şərait yaradır.

Prezident İlham Əliyevin rəsmi qəbul zamanı Naxçıvan Muxtar Respublikasını "taxılla özünü tam təmin edən" region kimi təqdim etməsi burada ərzaq təhlükəsizliyinə də nail olmaq üçün mühüm tədbirlərin görüldüyünü nəzərə çarpdırır. Bu gün Naxçıvan Muxtar Respublikasının bütün ərazisində əkinəyararlı olan torpaqlardan tam istifadə olunması, dəmyə torpaqlarda bol taxıl yetişdirilməsi işinə diqqət yetirilməsi, suvarma problemlərinin həlli, digər aqrotexniki üsullardan bacarıqla istifadə edilməsi taxıl istehsalı sahəsində mühüm nailiyyətlərin qazanılması ilə nəticələnmişdir. XX əsrin doxsanıncı illərindəki çörək növbələrindən bu gün respublikamızın hər yerində, o cümlədən də Naxçıvanda çoxçeşidli çörək istehsalına qədərki keçilmiş çətin və məsuliyyətli yol geniş mənada müstəqil Azərbaycan dövlətinin qısa müddətdə haradan-haraya qədər gəlib çatdığını əyani surətdə nümayiş etdirir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qəbulundakı müzakirələrdə insanların sosial rifahı ilə əlaqədar məsələlər xüsusi yer tutur. Ölkəmizin büdcəsində də sosialyönümlü inkişafın xüsusi çəkisinin ildən-ilə artırılması aparılan məqsədyönlü ardıcıl dövlət siyasətinin bariz göstəricisidir. Respublika üzrə yol infrastrukturunun inkişaf etdirilməsi sahəsində aparılan genişmiqyaslı işlər həm böyük inkişafa, həm də sosial rifaha hesablanmış mühüm tədbirlərdir. Naxçıvan Muxtar Respublikası ərazisində çəkilən çoxgedişli yolların keyfiyyətlə salınmasının ölkə rəhbəri tərəfindən ayrıca qeyd edilməsi görülmüş işlərə verilmiş yüksək qiymətin ifadəsidir. Həqiqətən də Naxçıvanda yol tikintisi sözün əsl mənasında yol mədəniyyəti səviyyəsində həyata keçirilir, ən yüksək standartlara tam cavab verir. Naxçıvan-Şərur-Sədərək yolunun 10 ildən artıq bir müddət bundan əvvəl istifadəyə verilməsinə baxmayaraq, bu gün də dayanıqlı bir keyfiyyətə malik olması Naxçıvan yollarının ölkə rəhbərinin qeyd etdiyi keyfiyyətli yol göstəricilərinin tələblərinə uyğun olduğunu nümayiş etdirir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Culfa-Ordubad magistralının tikintisi haqqında Prezident İlham Əliyevə verdiyi məlumatdakı mövsüm nəzərə alınmaqla yol tikintisinin aparılmasına dair izahlar burada keyfiyyətli yol salmaq ənənəsinin davam etdirilməsini diqqətə çatdırır.

Məlum olduğu kimi, Azərbaycanın hər yerində, o cümlədən də Naxçıvanda dönmədən sənayeləşmə proqramları uğurla həyata keçirilməkdədir. Bu, Naxçıvan Muxtar Respublikasında ilk növbədə zəruri ərzaq və məişət mallarına tələbatların ödənilməsinə və iş yerlərinin genişləndirilməsinə şərait yaratmışdır. Son illərdə Naxçıvanda ixracyönümlü sənaye sahələrinin yaradılması regionda sənayeləşmə hərəkatının irəli getdiyini göstərir.

Azərbaycan Respublikası Prezidentinin xüsusi sərəncamları ilə ayrılmış maliyyə vəsaitləri hesabına Naxçıvanda son illərdə inşa edilən, istifadəyə verilməkdə olan Şərur Sənaye Məhəlləsi və Xalçaçılıq fabriki regionun sənaye potensialının daha da genişləndirilməsinə və yerli xammaldan səmərəli istifadəyə təkan vermişdir. Naxçıvan xalçalarının ölkə və dünya bazarlarına çıxarılması iqtisadi əhəmiyyəti ilə bir sırada, həm də muxtar diyarın dünyada tanıdılmasına yol açır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi vəzifə daşıyan dövlət və hökumət nümayəndələrinin qəbulu praktikasını həyata keçirməsi və həmin qəbul zamanı bütün danışıqları televiziya vasitəsilə xalqa çatdırması dövlət idarəçiliyi təcrübəsinə gətirilən yeni format kimi mühüm əhəmiyyətə malikdir. Bu, ölkədə baş verən proseslər və yeniliklərlə Azərbaycan xalqını əyani surətdə tanış etmək, dövlət idarəçiliyinin aşkarlığına nail olmaq baxımından da düşünülmüş addımdır.

**Prezident qəbulu dialoqu dövlət rəhbərimizin yeni bir dövlət idarəçiliyi tribunası kimi də böyük maraq doğurur. Prezident qəbulu dialoqunun televiziya vasitəsilə geniş ictimaiyyətə çatdırılması dövlət başçımızın xalqla ünsiyyətinin və həmrəyliyinin fərqli bir auditoriyasını formalaşdırmaqdadır. Möhtərəm Prezidentin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ilə keçirdiyi qəbul da dövlət rəhbəri və xalq dialoqu ilə yanaşı, həm də ölkəmizin bu regionunda əldə olunan nailiyyətlər, baş verən dəyişikliklərlə əlaqədar yüksək səviyyədə aparılan maarifləndirmə missiyasının da əməli ifadəsidir.**

Eyni zamanda, Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının daha da inkişaf etdirilməsi üçün qarşıya qoyduğu müasir tələblər bu regionun daha da inkişaf etdirilməsinə istiqamət verən dövlət əhəmiyyətli tapşırıqlardır. Bu tələblər və tapşırıqlar icraçıların yolunu aydınlaşdırır və cavabdehlik hissini daha da artırır, səfərbərlik üçün stimul yaradır.

Prezidentin qəbulu zamanı dövlət başçısının ifadə etdiyi dərin əminlik hissi Naxçıvan Muxtar Respublikasında yeni və daha parlaq zəfərlərin qazanılmasına inam bəsləməyə tam əsas verir: "Əminəm ki, muxtar respublika əhalisinin sosial rifahının yaxşılaşdırılması, respublika qarşısında duran bütün vəzifələrin icrası üçün bütün qüvvələr səfərbər ediləcək və 2020-ci il də Naxçıvan üçün uğurlu olacaqdır".

**Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin böyük inamını həyata keçiriləcək yeni layihələr və qazanılacaq daha böyük uğurlarla möhkəmləndirəcəkdir.**

*Müstəqillik illərində böyük və şərəfli yol keçmiş Naxçıvan Muxtar Respublikası dövlət rəhbərimizin qayğısı və tələblərinin işığında daha böyük nailiyyətlərə doğru özünü səfərbər edərək irəliyə doğru addımlamaqdadır.*

***İsa HƏBİBBƏYLİ,***
***Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti,***
***Milli Məclisin Elm və təhsil komitəsinin sədri, akademik***

◆ Müəllifi İlham Əliyevdir







*Əvvəli 1-ci səh.*

# İlham Əliyevin növbəti qlobalmiqyaslı layihəsi reallığa çevrilir

## 45 milyard dollarlıq "Cənub qaz dəhlizi"nin bel sütunu olan - TANAP istifadəyə tam hazırdır

"Cənub qaz dəhlizi"nin bel sütunu olan layihənin açılış mərasimi noyabr ayının 30-na planlaşdırılır. Bununla da Xəzərin qazı TANAP ilə ilk dəfə Avropaya çatdırılacaq.

### "Cənub qaz dəhlizi"- XXI əsrin layihəsi

Prezident İlham Əliyevin XXI əsrin layihəsi adlandırdığı bu kəmər sistemi Avropanın enerji xəritəsini dəyişərək köhnə qitədə ən böyük infrastruktur layihəsi hesab olunur.

2014-cü ilin sentyabrın 20-də, tarixi bir gündə kəmərin Səngəçal terminalının ərazisində təməli qoyulub. Əlamətdar haldır ki, məhz sentyabrın 20-də "Əsrin müqaviləsi"nin ("Azəri-Çıraq-Günəşli" yataqlar blokunun işlənməsi layihəsi) imzalanmasının 20 illiyində Bakıda Xəzər qazının Avropaya tədarükü üzrə layihənin əsası qoyuldu. 4 il sonra, 2018-ci ilin may ayının 29-da Bakıda rəsmi açılış mərasimi keçirildi.

4 seqmentdən - "Şahdəniz-2", Cənubi Qafqaz Boru Kəməri (692 km), TANAP (1850 km), TAP-dan ibarət (878 km) olan bu layihə Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından hasil olunacaq qazı Gürcüstan, Türkiyə, Yunanıstan, Albaniya və İtaliyadan keçən boru kəmərləri ilə Avropaya çatdıracaq. Nəhəng layihə ilə Azərbaycan dünyanın sayılan qaz ixracatçılarından biri olacaq. Layihənin icrası Azərbaycanın karbohidrogen satışından və nəqlindən təxminən 30-50 milyard dollar gəlir əldə etməsinə imkan verəcək.

Bakıda keçirilən rəsmi açılış mərasimində cənab İlham Əliyev layihəni dəyərləndirərkən bildirmişdir ki, bu gün Azərbaycan müstəqil dövlət kimi ayaqda möhkəm dayanıb, ölkə qarşısında duran bütün vəzifələr uğurla icra olunur. Azərbaycan belə nəhəng layihələrlə Avropanın enerji xəritəsini yenidən tərtib edir.

Azərbaycan ilə 11 Avropa şirkəti arasında "Şahdəniz" yatağının ikinci mərhələsi çərçivəsində hasil ediləcək qazın ildə 10 milyard kubmetrdən artıq olan həcminin satışı üzrə 25 illik sazişlər imzalanıb. Bu şirkətlər hərəsi təxminən 1 milyard kubmetr olmaqla Bolqarıstan və Yunanıstanı təchiz etmək niyyətində olan alıcılara, qalanı isə İtaliyanı və ona bitişik bazar mərkəzlərini təchiz etmək niyyətində olan alıcılara ötürəcək.

Ümumiyyətlə, "Cənub qaz dəhlizi"ni bu günə qədər energetika sahəsində Azərbaycanın həyata keçirdiyi böyük strategiyanın davamı kimi dəyərləndirmək lazımdır. Bu layihədən öncə Bakı-Tbilisi-Ceyhan strateji xətti irəli sürülüb və məhz bu boru vasitəsilə Xəzər dənizinin karbohidrogen ehtiyatları dünyaya açılıb. "Bu nöqteyi-nəzərdən "Cənub qaz dəhlizi" Bakı-Tbilisi-Ceyhan layihəsinin davamı kimi qiymətləndirilir.

Burada daha vacib məqam layihənin beynəlxalq əhəmiyyətidir. İndiki reallıqlar şəraitində Avropanın enerji təhlükəsizliyinin təmin edilməsinin vacib şərti olan mənbələrin şaxələndirilməsi istiqamətində "Cənub qaz dəhlizi" hələlik yeganə etibarlı layihədir. Məhz bu layihə vasitəsilə şaxələndirmə istiqamətində Avropa ciddi addımlar atır.

Ən nəhayət, sözügedən məsələyə kommersiya baxımından yanaşsaq, bir neçə ildən sonra Azərbaycan "Cənub qaz dəhlizi" layihəsindən böyük iqtisadi dividentlər əldə edəcək.

### TANAP - "enerjinin İpək yolu"

Trans-Anadolu Təbii Qaz Boru Kəməri - TANAP Türkiyənin Gürcüstan sərhədində yerləşən Ərdahan şəhərinin Posof qəsəbəsi Türkgözu kəndindən başlayaraq Ərdahan, Qars, Ərzurum, Ərzincan, Bayburt, Gümüşhanə, Giresun, Sivas, Yozqat, Kırşehir, Kırıkkale, Ankara, Əskişəhər, Bilecik, Kütahya, Bursa, Balıkesir, Çanaqqala, Təkirdağ və Ədirnədaxil olmaqla 20 vilayətdən keçir.

Boru xətti Yunanıstan sərhəddində, Ədirnənin İpsala qəsəbəsində Avropa ölkələrinə təbii qaz nəql edəcək TAP-a birləşir. Layihə çərçivəsində Türkiyə sərhədləri daxilində biri Əskişəhirdə, digəri Trakyada olmaqla yerli təbii qaz nəqli şəbəkəsinə bağlanmaq üçün iki çıxış nöqtəsi var.

TANAP-ın səhmlərinin 51 faizi "Cənub qaz dəhlizi" QSC-yə, 7 faizi "SOCAR Turkey Enerji A.Ş."yə (STEAŞ), 30 faizi "Botaş"a, 12 faizi isə BP şirkətinə məxsusdur.

TANAP üzrə anlaşma 2012-ci ildə İstanbul şəhərində imzalanıb. "Şahdəniz-2" yatağından hasil olunan təbii qazı əvvəlcə Türkiyəyə, sonra isə Avropaya daşıyacaq "Cənub qaz dəhlizinin" ən mühüm həlqəsi olan TANAP-ın Türkiyə-Gürcüstan sərhədindən Əskişəhərə qədər olan birinci hissəsinin açılışı 2018-ci il iyunun 12-də keçirilib və 2018-ci il iyunun 30-dan etibarən Türkiyəyə kommersiya məqsədli qaz axını başlayıb.

Boru kəmərinin Əskişəhər ilə Türkiyə-Yunanıstan sərhədindəki Avropaya çıxış nöqtəsi arasında qalan hissəsində isə mexaniki tamamlama işləri 2018-ci ilin sonunda başa çatıb və 2019-cu ilin aprelində kəmərə sınaq məqsədilə qaz vurulub. 2019-cu il iyulun 1-dən etibarən Avropaya qaz nəqli üçün tamamilə hazır vəziyyətə gətirilən TANAP "Türkiyə, Orta Şərq və Avropanın ən uzun və ən geniş diametrli təbii qaz boru kəməri" kimi adını tarixə qızıl hərflərlə yazdı.

Yekun investisiya qərarı qəbul ediləndə ümumi xərcləri 11,7 milyard dollar həcmində qiymətləndirilən layihənin tikinti mərhələsində maksimum səmərəlilik nəticəsində indiyə qədər 45 faiz qənaətə nail olunub və layihə 6,5 milyard dollarlıq sərmayəyə başa gəlib. Digər tərəfdən layihə çərçivəsində bu günədək TANAP boyunca sosial və ətraf mühitin mühafizəsi məqsədilə 1000-ə yaxın layihə həyata keçirilib.

### Xəyallar gerçəkliyə çevrildi

Türkiyə mediasının yazdığına görə, noyabrın 30-da TANAP-ın ikinci fazasının açılışı olacaq. Bu barədə qonşu ölkənin enerji və təbii sərvətlər naziri Fatih Dönməz bildirib. Onun sözlərinə görə, TANAP "Türk axını" kəmərinin rəqibi sayılır: "TANAP ən vacib layihələrimizdən biridir. Kəməri noyabrın 30-da istifadəyə verməyi planlaşdırırıq ki, mərasimdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyev iştirak edəcəklər".

Trans-Anadolu Təbii Qaz Boru Kəmərinin reallaşmasını Prezident İlham Əliyev Azərbaycan-Türkiyə qardaşlığının növbəti təzahürü, iki ölkənin növbəti zəfəri adlandırıb.

Səbəbi isə odur ki, bu layihə ilk dəfə gündəmə gələndə bəzi dairələr buna xəyal deyirdilər. Antiazərbaycançı qüvvələr bunun həyata keçirilməsini qeyri-mümkün sayırdılar. Amma iki qardaş ölkə səbir etdi, dözüm göstərdi. Doğru yolda qətiyyətlə çalışılaraq uğurlu nəticə əldə edildi.

Əskişəhərdə keçirilən təntənəli açılış mərasimində çıxış edən Prezident İlham Əliyev dedi ki, Azərbaycan Türkiyə ilə XXI əsrin enerji tarixini birlikdə yazır. Bu tarix işbirliyi tarixidir, bu tarix sabitlik tarixidir. Bu layihələrdə iştirak edən bütün ölkələr, bütün şirkətlər fayda görür, xalqlar fayda görür:

"TANAP yeddi ölkəni, bir çox şirkətləri birləşdirir. "Cənub qaz dəhlizi"nin ayrılmaz hissəsi olan TANAP bu gün və gələcəkdə enerji təhlükəsizliyi məsələlərinin həlli üçün əvəzolunmaz infrastruktur layihəsidir... Bu, birgə həyata keçirdiyimiz birinci layihə deyil. Biz bundan əvvəl - 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin açılışını qeyd etdik. 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin açılışını birlikdə etdik. Keçən il Bakı-Tbilisi-Qars dəmir yolunun açılışını birlikdə etdik. Bütün bu açılış mərasimlərində əziz qardaşım Rəcəb Tayyib Ərdoğanla birlikdə iştirak etmişik. Bu gün bu tarixi gündə də biz birlikdəyik. Bu, onu göstərir ki, bizim təşəbbüsümüzlə irəli sürülən istənilən layihə həyatda öz əksini tapır. Çünki bunun arxasında düşünülmüş siyasət, güclü iradə və bizim qardaşlığımız dayanır".

Ekspertlər də hesab edirlər ki, TANAP təkcə enerji təhlükəsizliyi baxımından deyil, Xəzər bölgəsindən Avropaya qədər marşrut üzərindəki bütün ölkələrin rifahına və məşğulluq probleminə də töhfə verəcək.

**Əlamətdar tarixlər**

- 26 iyun 2012-ci il. Layihənin hüquqi əsası hazırlandı;
- 10 sentyabr 2014-cü il. Saziş TBMM tərəfindən qəbul edildi;
- 17 mart 2015-ci il. Qarsda təməlqoyma mərasimi keçirildi;
- 12 iyun 2018-ci il. Əskişəhərə qədər olan birinci hissəsinin açılış mərasimi baş tutdu;
- 30 iyun 2018-ci il. Türkiyəyə ilk kommersiya məqsədli təbii qaz nəqli həyata keçirildi;
- 9 noyabr 2018-ci il. Layihə sərhəddəki Meriç çayı sahilində başa çatdırıldı;
- 15 aprel 2019-cu il. 2-ci mərhələdə boru xəttinə sınaq məqsədli qaz verilməyə başlandı;
- 1 iyul 2019-cu il. Azərbaycan qazı Avropaya nəql etmək üçün hazır vəziyyətə gətirildi.

### Səhmdarlar illik 1,45 milyard dollar gəlir əldə edəcəklər

Boru kəməri bu il iyulun 1-dən Azərbaycan təbii qazının Avropaya nəql edilməsi üçün hazır vəziyyətə gətirilib. Bu il boru kəməri ilə 1,8 milyard kubmetrədək qaz nəql olunub. Türkiyə bu vaxtadək TANAP-la 3 milyard kubmetrdən çox Azərbaycanın təbii qazını alıb. İlin sonunadək isə bu həcm 4 milyard kubmetrə çatacaq.

Kəmərin mövcud ötürücülük qabiliyyəti hazırda 16 milyard kubmetrdir və sonradan bu həcmin 31 milyard kubmetrədək artırılması nəzərdə tutulur.

TANAP-ın səhmdarları layihə üzrə illik 1,45 milyard dollar gəlir əldə edəcəklər. Həmin gəlirin 58 faizi Azərbaycanın payına düşəcək.

TANAP-la 2020-ci ildə 4 milyard kubmetr və 2021-ci ildə isə 6 milyard kubmetr Azərbaycan təbii qazı Türkiyəyə nəql ediləcək. İlkin mərhələdə TANAP-la Türkiyəyə ildə 2 milyard kubmetr qaz veriləcək. Daha sonrakı 3 il ərzində isə bu həcm 6 milyard kubmetrə çatdırılacaq. TANAP Türkiyənin təbii qaza olan tələbatının 12 faizini ödəyəcək.

TANAP iki qardaş ölkənin ortaq baxışının ən son bəhrəsidir. Enerji bazarında yaşanan dəyişikliyə və ehtiyaca cavab verən TANAP, eyni zamanda, qarşıdakı illərdə birgə həyata keçiriləcək yeni layihələrin müjdəsidir.

### Azərbaycanı İtaliyaya birləşdirən - TAP

TANAP Yunanıstan sərhədində, Ədirnənin İpsala qəsəbəsində Avropa ölkələrinə təbii qaz nəql edəcək Trans-Adriatik Boru Kəmərinə - TAP-a birləşdikdən sonra Azərbaycan böyük qaz ixracatçısına çevriləcək.

Xatırladaq ki, 2016-cı il mayın 17-də Yunanıstanın Saloniki şəhərində TAP-ın təməlqoyma mərasimi keçirilib. 878 kilometr uzunluğunda və 4,5 milyard dollara başa gələcək olan boru kəmərinin ötürücülük gücü ildə 10 milyard kubmetrdir, gələcəkdə 20 milyard kubmetrə qədər genişləndirilmək imkanı var. Bu layihə Bolqarıstanın qaz ehtiyacının 33 faizini, Yunanıstanın 20 faizini, İtaliyanın isə təxminən 10,5 faizini qarşılayacaq. BP, İtaliyanın SNAM və Azərbaycanın SOCAR şirkətləri hər biri 20 faiz hissə payı ilə layihənin əsas 3 investoru hesab olunur.

TAP konsorsiumu təbii qaz tədarükçülərinin maraqlarını ifadə etməyə imkan verəcək bazar sınaqlarına da başlayıb. Məqsəd sonrakı mərhələdə TAP-ın genişləndirilməsi imkanlarını araşdırmaqdır. Boru kəmərinin inşası üzrə Albaniya sularında dəniz borularının tikintisi artıq başa çatıb. Boru kəmərinin dəniz hissəsi Albaniya və İtaliya sahillərini bir-birinə birləşdirəcək və uzunluğu 105 kilometr olacaq. Adriatik dənizində boruların 37 kilometri Albaniya, 25 kilometri İtaliya, 43 kilometri isə beynəlxalq sularda döşənəcək. Boru kəməri dənizin 810 metrdən də çox dərinlikdəki hissəsindən keçəcək.

"Cənub qaz dəhlizi"nin digər seqmenti olan "Cənubi Qafqaz Boru Kəməri" 692 km uzunluq (Azərbaycan ərazisində - 443 km, Gürcüstan ərazisində - 249 km) və 42 düym diametr ölçüsündə olan boru kəməridir. Boru kəməri Bakı yaxınlığındakı Səngəçal terminalından başlayır. Bu boru kəməri Türkiyə sərhədinədək Azərbaycanda və Gürcüstanda Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməri ilə eyni marşrutdadır və Türkiyədə bu ölkənin qazpaylama sisteminə birləşdirilib. Kəmər "Şahdəniz" yatağından hasil edilən qazı Gürcüstan-Türkiyə sərhədinə nəql etmək məqsədilə inşa edilib. 2006-cı ilin sonlarında istismara verilərək əvvəl Azərbaycana və Gürcüstana, 2007-ci ilin iyul ayından başlayaraq isə Türkiyəyə "Şahdəniz Mərhələ 1" qazını çatdırır. Ətraf mühitə minimal təsir göstərmək məqsədilə kəmər Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə eyni dəhliz boyu inşa edilib.

### Qətiyyətli siyasət, prinsipial mövqeyin təntənəsi

Bir sözlə, qətiyyətli siyasəti, prinsipial mövqeyi ilə tanınan cənab İlham Əliyevin uğurları sırasına bir möhtəşəm hadisə də əlavə edilir. Bu layihənin hansı formada ərsəyə gəlməsi bəllidir. Yalnız güclü siyasi iradə nəticəsində bu beynəlxalq layihə gerçəkliyə çevrilib. Noyabrın 30-da isə bütün Avropa bir daha Azərbaycan Prezidentinin uğurlu diplomatiyasından danışacaq.

Azərbaycanın və Türkiyənin birgə səyləri nəticəsində daha bir dünya əhəmiyyətli tarixi layihə həyata vəsiqə almış olacaq. TANAP qaz kəmərinin istifadəyə verilməsi ilə artıq regiona və tərəfdaş ölkələrin həyatına yeni bir nəfəs gələcək.

Ümumiyyətlə, "Cənub qaz dəhlizi" Azərbaycan Prezidentinin söylədiyi kimi, enerji təhlükəsizliyi layihəsidir. Enerji təhlükəsizliyi isə hər bir ölkənin milli təhlükəsizliyi məsələsidir. Layihənin elə önəmi də bundadır - enerji təhlükəsizliyi və enerji resurslarının şaxələndirilməsi. Azərbaycan qazı yeni yollarla Türkiyəyə və Avropa bazarlarına çıxarılır. Bu dəhliz həm yeni yollar, həm də yeni mənbədir. Xəzər dənizindəki təbii ehtiyatların ən münasib marşrutlarla daşınaraq Avropa bazarlarına nəql edilməsi bölgədə iqtisadi inkişafa və təhlükəsizlik mühitinin möhkəmlənməsinə mühüm töhfə verəcək.



***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# 22 noyabr ədliyyə işçilərinin peşə bayramı günüdür

Ölkəmizdə ədalət məhkəməsi hakimlərinin ictimai birliyi kimi tanınan Azərbaycan Respublikasının Ümumi Məhkəmə Hakimləri İctimai Birliyinin (Assosiasiyası) Beynəlxalq Hakimlər Assosiasiyasına (BHA) üzvlüyünün 10-cu ildönümü tamam olur. 2009-cu ildə təşkilata assosiativ üzv seçilən İctimai Birlik müstəqil respublikamızın bəşəri miqyasda maraq və mənafelərini etibarlı qorumaq, həyata keçirilən məhkəmə-hüquq islahatlarını geniş coğrafi arealda təbliğ etmək və qarşılıqlı təcrübə mübadiləsi aparmaq imkanları qazanıb.

## Azərbaycan ardıcıl məhkəmə-hüquq islahatları ilə diqqət mərkəzindədir

### BHA üzvlüyünə aparan yol

Sıralarında respublika məhkəmələrində çalışan 400-dək hakimi birləşdirən Azərbaycan Respublikası Ümumi Məhkəmə Hakimlərinin İctimai Birliyi (Assosiasiyası) dünyadakı mövcud analoji qeyri-hökumət təşkilatları ilə qarşılıqlı faydalı əməkdaşlığı və təcrübə mübadiləsini fəaliyyətində daim prioritet məsələlərdən biri kimi önə çəkir. İctimai birlik, eyni zamanda Azərbaycanda məhkəmə sisteminin inkişafı və müasirləşdirilməsi sahəsində görülən tədbirlərlə bağlı beynəlxalq səviyyədə təbliğat işi aparır, bu sahədə ixtisaslaşmış mötəbər təşkilatlarla səmərəli əlaqələri genişləndirməyə çalışır. Bu məqsədlərə nail olmaq, beynəlxalq əlaqələrini daha da genişləndirmək, xarici məhkəmə təcrübəsini öyrənmək məqsədilə Ümumi Məhkəmə Hakimləri İctimai Birliyi hələ 2006-cı ildə BHA-ya üzvlük üçün müraciət etmişdi. Müraciətlə əlaqədar BHA-nın Almaniyadan olan nümayəndələri Azərbaycana gəlmiş, məhkəmələrin fəaliyyəti ilə yaxından tanış olmuş, məhkəmə-hüquq islahatlarının müsbət nəticələrini təqdir etməklə, müvafiq hesabat hazırlamışdılar. BHA-nın Baş katibi Antoniya Mura isə 2009-cu ilin mayında ünvanladığı məktubda Azərbaycan Respublikası Ümumi Məhkəmə Hakimləri Assosiasiyasının rəhbərliyini təşkilatın oktyabr ayında Mərakeşdə keçiriləcək illik toplantısında müşahidəçi qismində iştirak üçün dəvət etmişdi.

Nəhayət, 2009-cu ilin oktyabrında Mərakeş iclasında Ümumi Məhkəmə Hakimləri Assosiasiyasının BHA-ya assosiativ uzvlük məsələsinin müsbət həllini tapması respublikamıza olan yüksək etimadın, inamın təcəssümü kimi tarixiləşdi. Sonrakı mərhələdə qurum daxilində apardığımız gərgin və səmərəli işin nəticəsi kimi BHA-nın 2014-cü ilin noyabr ayında Braziliyada keçirilmiş illik iclasında Azərbaycanın quruma tamhüquqlu üzvlüyü gerçəkləşdi.

### Səmərəli əməkdaşlıq üçün platforma

1953-cü ildə siyasətdən kənar qurum kimi Avstriyanın Salsburq şəhərində yaradılmış BHA beş qitədə yerləşən 93 milli assosiasiyasını və ya təmsilçi qrupu birləşdirir. Təşkilatın icraedici orqanı İtaliyanın paytaxtı Romada yerləşən Baş Katiblikdir. Təşkilat 4 regional qrupdan ibarətdir: Avropa Hakimlər Assosiasiyası (Azərbaycan Respublikası Ümumi Məhkəmə Hakimlərinin İctimai Birliyi məhz bu qrupa daxildir), İboamerika Qrupu, Afrika qrupu və Asiya, Şimali Amerika və Okeaniya qrupu.

Azərbaycan hakimlərini birləşdirən İctimai Birliyin BHA-ya üzvlüyü, ilk növbədə, təşkilatın beynəlxalq səviyyədəki nüfuzu, müxtəlif ölkələrin məhkəmə orqanları arasında qarşılıqlı faydalı əməkdaşlığı təmin etmək imkanları, habelə hakimlərlə iş təcrübəsi ilə şərtlənirdi. Onu da bildirək ki, təşkilat milli qanunvericiliyin daha da təkmilləşdirilməsi məqsədilə mühüm rəy və təkliflərlə çıxış edir. Müxtəlif ölkələrdən olan hakimlərin müntəzəm olaraq keçirilən konfranslarında həm ədliyyə, həm də milli məhkəmə orqanlarının modernləşdirilməsi və sivil hüquqi məkana inteqrasiyası ilə bağlı müzakirələrin aparılması buna bariz sübutdur.

### Milli məhkəmə-hüquq sisteminə yüksək etimad

Azərbaycan nümayəndə heyəti BHA və AHA-nın indiyədək müxtəlif ölkələrdə keçirilmiş iclaslarında daim fəallıq göstərib, müzakirə olunan məsələlərə dair səmərəli rəy və təkliflərlə çıxış edib. Hər iki qurum daxilində aparılmış "Sosial media və KİV-in məhkəmə hakimiyyəti ilə münasibəti, onların məhkəmələrin müstəqilliyinə təsiri, məhkəmə administrasiyaları", "Avropada hakimlərin statusu", "Ətraf mühit və ətraf mühitin qorunması üçün cəmiyyətin tərbiyələndirilməsində məhkəmə hakimiyyətinin rolu", "Mülki ətraf mühit üçün çağırışlar", "Ətraf mühitin çirklənməsi: bununla mübarizədə cinayət hüququ yaxşı vasitədirmi?", "İş yerində sağlamlıq və təhlükəsizlik", "Mülki və cinayət işlərində məhkəmə və ekspertiza arasında münasibətlər" və digər aktual mövzularda müzakirələrdə azərbaycanlı hakimlər hər zaman yüksək fəallıq nümayiş etdiriblər.

Son 15 ildə respublikamızın məhkəmə-hüquq sistemində həyata keçirilən mütərəqqi islahatların beynəlxalq səviyyədə təbliği Azərbaycana qarşı bəzi əsassız iddiaların aradan qaldırılması və ölkəmiz haqqında obyektiv təsəvvürlərin daha da möhkəmləndirilməsi baxımından əhəmiyyətli olub. Qürur hissi ilə deyə bilərik ki, insan amilini daim önə çəkən müstəqil Azərbaycan hazırda yerləşdiyi Avropa geosiyasi arealında mütərəqqi islahatlar yolu ilə sürətlə irəliləyən, sivil Qərb dəyərlərinə sadiqliyi ilə seçilən demokratik ölkə kimi tanınır. Hər iki qurumun indiyədək Mərakeş, Fransa, Malta, İspaniya, İsrail, Niderland, Meksika, Türkiyə, ABŞ, Ukrayna, Kipr, Braziliya, Danimarka, Almaniya və digər ölkələrdə keçirilmiş yüksək səviyyəli iclasları dünyada respublikamızın məhkəmə-hüquq sistemi ilə bağlı obyektiv rəyin formalaşdığını təsdiqləyib.

### Maraqla qarşılanan islahatlar

Təşkilatın illik iclasları çərçivəsində keçirdiyimiz müxtəlif səviyyəli görüşlərdə bir qayda olaraq Azərbaycanın məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi, məhkəmələrin maddi-texniki bazasının möhkəmləndirilməsi, onların fəaliyyətində İKT-nin ən son nailiyyətlərinin tətbiqi, hakimlərin sosial şəraitinin yaxşılaşdırılması, yeni məhkəmələrin yaradılması və digər istiqamətlərdə həyata keçirilən islahatlar barədə geniş məlumatlar verilir. Nümayəndə heyətimizin üzvləri tərəfindən o da bildirilir ki, bir sıra Avropa ölkələrindən fərqli olaraq Azərbaycanda məhkəmələrin fəaliyyətinə hakimiyyət qurumları tərəfindən heç bir müdaxilə yoxdur, hakimlərin müstəqilliyi təmin olunub.

Ölkəmizdə hakimlərin seçkisi və təyinatı tam şəffaf, ədalətli şəkildə həyata keçirilir və bu proses Avropanın bir sıra nüfuzlu təşkilatları tərəfindən yüksək qiymət alır. Avropa Şurasının Ədalət mühakiməsinin səmərəliliyi üzrə Komissiyasının (CEPEJ) ekspertləri Azərbaycanın bu sahədə müsbət təcrübəsini örnək kimi qiymətləndirib, onu digər dövlətlərə tövsiyə ediblər. Ölkə rəhbərliyinin iradəsi əsasında gerçəkləşdirilməsinə başlanılmış "Elektron məhkəmə" informasiya sistemi respublikanın bütün məhkəmələrində uğurla tətbiq olunur.

Müşahidələr həm də onu göstərir ki, bu gün Azərbaycanda məhkəmə hakimiyyətinin müstəqilliyini təmin edən mükəmməl qanunvericilik sistemi mövcuddur. 2004-cü ildən başlayaraq məhkəmə sisteminin daha da müasirləşdirilərək Avropa standartlarına tam uyğunlaşdırılması işi sürətlə davam etdirilir. Son illərdə 3000 nəfər namizəd arasından 400-dək nəfər hakim test üsulu ilə şəffaf və obyektiv şəraitdə seçilərək Məhkəmə-Hüquq Şurasının təqdimatı əsasında bu vəzifəyə təyin olunub.

Hakimlərin sosial vəziyyətinin, iş şəraitinin yaxşılaşdırılması istiqamətində davamlı tədbirlər həyata keçirilib, regionlarda yeni inzibati-iqtisadi və ağır cinayətlər məhkəmələri yaradılıb. Hakimlərin sayı artırılıb, onlara köməkçi təyin olunub, iş yükü azaldılıb. Halbuki bir sıra Avropa ölkələrində hakimlərin iş yükü Azərbaycan hakimlərinin iş yükündən çox olduğu halda, onlar üçün belə geniş imkanlar yaradılmayıb.

Ölkəmizin məhkəmə-hüquq sistemi zamanın yeni çağırışlarına və cəmiyyətin inkişaf dinamikasına adekvat olaraq müasirləşdirilir. Ölkəmizdə həyata keçirilən sistem xarakterli islahatlar - vətəndaş amilinə daha həssas və qayğıkeş münasibətin önə çəkilməsi insan hüquq və azadlıqlarının qorunması ilə bağlı yeni vəzifələr meydana çıxarır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 3 aprel 2019-cu il tarixli "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" fərmanı strateji yol xətirəsi olaraq məhkəmə sistemində köklü islahatların aparılmasına zəmin yaradıb. Fərmanda hakimlərin sosial müdafiəsi, məhkəmələrdə hakimlərin sayının artırılması, məhkəmələrin fəaliyyətində yeni texnologiyaların tətbiqi, məhkəmə qərarlarının icrasının elektronlaşdırılması, sahibkarların hüquqlarının daha etibarlı müdafiəsinin təşkili üçün yeni ixtisaslaşmış məhkəmələrin yaradılması və digər konseptual əhəmiyyətli məsələlər əksini tapıb.

### Nur-Sultan toplantısı mühüm müzakirələrlə yadda qaldı

BHA-nın 2019-cu il sentyabrın 15-dən 19-dək Qazaxıstanın paytaxtı Nur-Sultan şəhərində keçirilmiş növbəti iclasında da mühüm və səmərəli müzakirələr aparıldı. İclasa sədrlik edən AHA prezidenti Joze Manuel İgreja Matosun qurumun Danimarkada keçirilmiş yaz iclasının protokolunun təsdiq olunması barədə təklifi yekdilliklə qəbul edildi. İclasın ikinci əsas məsələsi kimi AHA prezidentinin üzvlərə əvvəlcədən paylanılmış hesabat məruzəsi təsdiqləndi. Sədr daha sonra "Üzv assosiasiyaların statusu üzrə işçi qrupu"nun işi, "Brüsselə gedən yollar" işçi qrupunun işi, "Müxtəlif Avropa ölkələrində qarşıya çıxan çətinliklər", "AHA-nın büdcəsi", "AHA Dünya hakimlər Assosiasiyası sırasında" blokları üzrə məlumat verdi.

AHA prezidenti iclasda Avropa Şurasının məhkəmələrlə bağlı komissiyası olan CEPEJ-in prezidenti, azərbaycanlı hakim Ramin Qurbanovun iclasda iştirak etdiyini bildirdi və sözü qonağa verdi. CEPEJ prezidenti R.Qurbanov qurumun fəaliyyəti barədə ətraflı məlumat verərək iclas iştirakçılarını Avropa Şurasının yaxınlaşan 70 illiyi münasibətilə təbrik etdi. O, rəhbərlik etdiyi qurumun AHA ilə sıx və məhsuldar əməkdaşlıq etdiyini vurğulamaqla yanaşı, Avropa məkanında məhkəmələrin işinin səmərəli təşkili məqsədilə məsləhət və praktiki yardım formatında görülən işlərdən söz açdı.

Gündəliyin üçüncü əsas məsələsi kimi AHA-ya üzv assosiasiyalarda mövcud problemlər geniş müzakirə olundu və vəziyyəti araşdıran işçi qrupunun məruzəsi dinlənilərək məqbul sayıldı. Bu xüsusda Polşa, Moldova, Macarıstan və Rumıniyada məhkəmə hakimiyyətinin üzləşdiyi bəzi problemlər geniş müzakirə olundu. AHA prezidentinin və digər çıxışçıların dediklərindən bəlli oldu ki, bəzi Avropa ölkələrinin məhkəmə hakimiyyətində özünü göstərən əsas problemlər əsasən qanunvericilikdəki boşluqlar və icra hakimiyyətinin təzyiqləri ilə bağlıdır.

Eyni zamanda Moldovada siyasi hakimiyyətin məhkəmə hakimiyyətini özündən asılı duruma salmaq cəhdləri problem kimi önə çəkildi. Bildirildi ki, bu ölkədə hakimlərin işini dəyərləndirən müvafiq komissiyada bir nəfər belə hakim yoxdur. Macarıstanda isə hakimlərin məvacibinin Avropada ən aşağı həddə olması əsas problemlərdən biri kimi qeyd edildi. Rumıniyada da oxşar vəziyyətin hökm sürdüyü, hökumətin məhkəmələrə ayırdığı vəsaitin həcminin azaldığı təəssüflə vurğulandı.

Sentyabrın 16-da isə Nur-Sultan şəhərində BHA-nın illik iclasının açılışı oldu və söz təşkilatın prezidenti Tony Paqoniyə verildi. T.Paqoni dünyada məhkəmə hakimiyyətinin ümumi durumundan söz açaraq texnoloji yeniliklərin məhkəmələrin işində tətbiqindən, sosial şəbəkələrin, internetin yaratdığı imkanlardan, elektron məhkəmələrdən, eləcə də bir sıra ölkələrdə siyasi hakimiyyətin yaratdığı maliyyə çətinliklərindən, hakimlərin yerdəyişməsi prinsipinə qəsd edilməsi, onlara inzibati resurslarla təzyiq göstərilməsi kimi problemlərdən danışdı. O, eyni zamanda dünyanın mütərəqqi qurumlarının dəstəyi ilə məhkəmələrə təzyiqlərin qarşısının alınacağına inamını ifadə etdi.

BHA-nın illik iclasında, həmçinin Mərkəzi Şuranın və regional qrupların rəhbərlərinin hesabatları dinlənildi, Yeni Zelandiya və Livanın təşkilata üzvlüklə bağlı müraciətləri müsbət həllini tapdı.

Sentyabrın 18-də Nur-Sultan şəhərinin Böyük Konqres Mərkəzində təşkil olunmuş *"Məhkəmələrin keyfiyyətli idarəçiliyi: qlobal istiqamətlər və nümunəvi təcrübələr"* mövzusunda beynəlxalq ədliyyə forumu da səmərəli müzakirələrlə diqqətçəkən oldu. Forumun aparıcılığının azərbaycanlı hakim, CEPEJ-in prezidenti R.Qurbanova həvalə edilməsi də bizim üçün qürurverici məqamlardan idi. R.Qurbanov məhkəmələrin işinin səmərəli təşkili problemlərindən, beynəlxalq əməkdaşlığın faydalarından, bu istiqamətdə CEPEJ-in mühüm rolundan söz açdı. Forumda çıxış edən digər iştirakçılar da məhkəmə hakimiyyəti və administrasiyalarının mövcud problemlərindən, beynəlxalq əməkdaşlıq və təcrübə mübadiləsinin vacibliyindən, məhkəmə proseslərində yeni texnoloji yeniliklərin tətbiqi zərurətindən danışdılar.

Sentyabrın 19-da keçirilən yekun iclasda BHA-nın növbəti iclasının 2020-ci ildə Kosta-Rikada, AHA-nın iclasının isə Portuqaliyada keçirilməsi qərara alındı.

Beləliklə, həyata keçirilən islahatlar, o cümlədən BHA-nın Qazaxıstanda keçirilmiş iclasının yekunları deməyə əsas verir ki, Azərbaycanın hazırkı böyük uğurlarının əsasında həm də insan və vətəndaş hüquqlarının yüksək səviyyədə təminatı, habelə məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi istiqamətində həyata keçirilən sistemli və ardıcıl islahatlar dayanır. Qazanılan nailiyyətlər məhkəmələrlə yanaşı, milli ədliyyə sisteminin də hərtərəfli yeniləşməsinə və müasirləşməsinə, dövlətin ən mühüm, əlahiddə hüquq təsisatlarından birinə çevrilməsinə imkan yaradır.

*Azərbaycan ədliyyəsinin yaranmasının 101-ci ildönümü ərəfəsində olan ədliyyə və məhkəmə işçiləri bu sahədə əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş və hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən islahatları ürəkdən dəstəkləyir, yüksək diqqət və qayğını minnətdarlıq hissi ilə qarşılayırlar. Bu gün fəxrlə deyə bilərik ki, müstəqil Azərbaycan möhkəm təməllər üzərində qurulmuş və müasir dünya tələbləri səviyyəsində fəaliyyət göstərən məhkəmə sisteminə malikdir. İnanırıq ki, respublikamızın iqtisadi inkişaf tempinə adekvat olaraq bu sahədə islahatlar uğurla davam etdiriləcək, Azərbaycan yüksək inkişaf etmiş ölkələrlə rəqabətə girə biləcək modern məhkəmə sisteminə malik olacaqdır.*

***Əladdin CƏFƏROV,***
***Nizami Rayon Məhkəməsinin sədri, Azərbaycan Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqının sədri***

Elm xadimləri

# Hüquqşünas, müəllim, alim ömrü...



O, hər zaman inanıb ki, düzgünlüyə, haqqa-ədalətə tapınanların nəsibi sonsuz rəğbət və sevgidir. Özünə münasibətdə də hər yerdə bunu görüb. Görkəmli hüquqşünas, professor Məsumə Məlikova həyat yolunu müəyyənləşdirdiyi gündən insanların haqlarını, hüquqlarını qorumağı amalına çevirib.

Buna görə də hüquqşünaslıq peşəsini seçdi, prinsipiallığı, haqsızlıqla, ədalətsizliklə barışmazlığı öz həyat devizinə çevirdi. Hüquqşünas, müəllim, alim ömrü yaşamağın məsuliyyəti ilə çalışdı. Hüquq elmləri doktoru alimlik dərəcəsini almış ilk azərbaycanlı qadın, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, professor, əməkdar hüquqşünas... Adının qarşısında yazılan bu fəxri adlar onun uzun illik gərgin zəhmətinin, elmi araşdırmalarının bəhrəsi oldu. Və bir də heç zaman işlərinin çoxluğunu qayğılardan qaçmaq üçün bəhanəyə çevirmədi. Laqeydlik, biganəlik ona yad oldu. Tələbələri Məsumə Məlikovanın simasında elmdə, təhsildə güzəştə getməyən gözəl alim, tələbkar olduğu qədər də qayğıkeş müəllim, xalqına böyük məhəbbətlə bağlı bir insan tanıdılar.

M.Məlikova 1929-cu il noyabrın 22-də dəmiryolçu Fazil kişinin ailəsində dünyaya göz açmışdır. Doğulub böyüdüyü ailə ziyalı köklərə bağlı idi. Fazil kişi övladlarının hamısının mükəmməl biliyə yiyələnmələri üçün əlindən gələni əsirgəməmişdir. Həyat yoldaşı Mürqüzər xanım da ömrünü beş övladının xoşbəxtliyinə həsr etmişdi. Belə xoş mühitdə böyüyən uşaqların hərəsi bir sahəyə üz tutdu. Ailənin üçüncü övladı olan Məsumə isə hüquqşünaslığı seçdi.

Məsumə Məlikova 1952-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU-nu) Hüquq fakültəsini bitirəndə onun biliyinin və zəhmətsevərliyinin şahidi olan müəllim və professorlar ona universitetdə qalıb çalışmasını təklif edirlər. Gənc hüquqşünas bu təklifi qəbul edərək ali məktəbdə pedaqoji və elmi fəaliyyətə başlayır.

AMEA-nın müxbir üzvü, hüquq elmləri doktoru, professor Vahid Qəhrəmanov elmi şuranın qərarı ilə Məsumə Məlikovanın elmi rəhbəri təyin edilir və o, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin aspiranturasına ezam edilir.

M.Məlikovanın namizədlik dissertasiyası "M.F.Axundovun ictimai-siyasi baxışları" adlanırdı. 1956-cı ilin iyun ayında dissertasiya ilkin müzakirəyə təqdim edilir. Müdafiə həmin ilin sentyabrına təyin olunur.

Lakin bu zaman ortaya daha bir maneə çıxır. Avqust ayında keçmiş SSRİ-nin mərkəzi mətbuatında Sov. İKP MK-nın namizədlik dissertasiyaları kimi nəzərdə tutulan tədqiqat əsərləri ilə bağlı qərarı dərc olunur. Qərara görə, namizədlik dissertasiyaları qabaqcadan kitab şəklində nəşr olunmalı və yalnız bundan sonra açıq müdafiəyə buraxılmalı idi.

Məsumə Məlikova üçün Moskvada buna nail olmaq çətin idi. Sentyabrda Bakıya qayıdır. Həmin vaxt "Azərnəşr"in direktoru olan yazıçı Qılman İlkin əsərin nəşrinə kömək göstərir. Beləliklə, müdafiə 1958-ci ildə baş tutur və MDU-nun Elmi Şurası M. Məlikovaya hüquq elmləri namizədi alimlik dərəcəsi verir.

Qeyd etdiyimiz kimi, gənc alimin dissertasiya işi Mirzə Fətəli Axundovun ictimai-siyasi baxışlarına həsr olunmuşdu. Bu onun həm də ilk monoqrafik tədqiqat kitabı idi. Həmin əsərlə milli siyasi və hüquqi təlimlərin öyrənilməsinin əsası qoyulmuşdur.

Professor M.Məlikova Azərbaycanın siyasi və hüquqi təlimlər tarixinin öyrənilməsi məktəbinin banisidir. Onun elmi fəaliyyəti barədə danışarkən onu da qeyd etmək lazımdır ki, alimin əsərləri hüquqşünaslığın iki mühüm sahəsini əhatə etmişdir. Bunlardan biri siyasi və hüquqi təlimlər tarixinin tədqiqidir. Digəri dövlət və hüquq nəzəriyyəsinin aktual problemlərinə həsr olunmuşdur.

Professorun doktorluq dissertasiyası "XIX əsr - XX əsrin başlanğıcında Azərbaycanda siyasi və hüquqi təlimlər tarixi" adlanırdı. Əslində, bu əsər alimin namizədlik dissertasiyası mövzusunun məntiqi davamı idi. Bunu deməyə hər iki əsərdəki tarixi ardıcıllıq əsas verir. XIX əsrdə və XX əsrin başlanğıcında yaşayıb-yaradan mütəfəkkirlərimizin maarifçilik ideyaları M.Məlikovanın digər əsərlərində olduğu kimi, burada da elmi cəhətdən ətraflı təhlil olunmuşdur.

Məsumə xanım doktorluq dissertasiyasını 1973-cü ildə müdafiə etmiş, növbəti ildə professor adını almışdı. 15 il sonra isə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdi. O, AMEA-nın müxbir üzvü seçilən ilk hüquqşünas qadındır.

Məsumə xanımın elmi və pedaqoji fəaliyyəti bir-biri ilə ayrılmaz vəhdət təşkil edir. Onun mənalı həyatın nurundan, zəkasından yüzlərlə gəncin ömür yollarına işıq düşmüşdür. Görkəmli alim 1958-1968-ci illərdə Hüquq fakültəsinin Dövlət hüququ kafedrasının müəllimi olmuşdur. Sonra Dövlət və hüquq nəzəriyyəsi və tarixi kafedrası təşkil edilmiş, 1968-ci ildə Məsumə Məlikova onun müdiri seçilərək uzun illərdir ki, bu kafedraya bacarıqla rəhbərlik edir.

Professor M.Məlikovanın Azərbaycanda hüquq elminin inkişafına verdiyi töhfələr təkcə bununla məhdudlaşmır. Bu sahədə mükəmməl, yüksəkixtisaslı kadr potensialının formalaşmasında, hüquq elminin dərinliklərinə bələd olan yeni mütəxəssislərin yetişdirilməsində də bir pedaqoq, elm ustadı kimi əvəzsiz xidmətlər göstərib.

Alimin yetişdirdiyi yüksəkixtisaslı kadrlar hüquq elmimizin inkişafına, həm də müstəqil Azərbayanda hüquqi dövlət quruculuğu prosesinə öz dəyərli töhfələrini verməkdədirlər. Yəqin ki, bir elm xadimi, insan üçün bundan ali mükafat ola bilməz.

Ötən illərin 60-cı illərindən etibarən professor M.Məlikovanın əsasını qoyduğu bu məktəb müvafiq sahələr üzrə genişhəcmli tədqiqat işlərinin aparılmasına rəvac vermişdir. Onun elmi rəhbərliyi ilə 35-dən artıq dissertasiya, o cümlədən 4 doktorluq dissertasiyası müdafiə edilmişdir.

M.Məlikova Azərbaycanda dövlət-hüquq quruculuğu, ölkə qanunvericiliyinin intensiv formalaşması və inkişafı dövründə də tarixi prosesdən kənarda qalmamış, Azərbaycanın suverenliyi haqqında 23 sentyabr 1989-cu il Konstitusiya qanununu tərtib edənlərdən biri, Ümummilli Lider Heydər Əliyevin rəhbərlik etdiyi 1978-ci il Azərbaycan SSR Konstitusiyasının və 1995-ci il Azərbaycan Respublikası Konstitusiyasının hazırlanması üzrə komissiyanın üzvü olmuşdur.

M.Məlikova bir çox tədris proqramlarının da müəllifidir. 1979-cu ildə "Azərbaycanın siyasi nəzəriyyələr tarixi"ni, 1985-ci ildə "Siyasi və hüquqi nəzəriyyələr tarixi"ni , 1994-cü ildə "Müsəlman hüququnun əsasları"nı, 1996-cı ildə "Ümumi dövlət və hüquq tarixi"ni, 1998-ci ildə "Dövlət və hüquq nəzəriyyəsi"ni, "Azərbaycanın dövlət və hüquq tarixi"ni və bir sıra başqa tədris proqramlarını nəşr etdirmişdir.

Uzun illər qazandığı bilik və təcrübə Məsumə xanıma "Hüquq ensiklopedik lüğəti"nin böyük müəlliflər dəstəsinə rəhbərlik etməyə imkan vermişdir. Bu lüğətdə 80-dən çox elmi məqalənin müəllifi Məsumə Məlikovadır. Bundan əlavə, "Bakı Universitetinin Xəbərləri" rüblük jurnalının sosial-siyasi elmlər seriyasının redaktorudur.

Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra "Azərbaycan Konstitusiyası və insan hüquqları", "Azərbaycanda hüquqi islahatlar və Konstitusiya Məhkəməsi" adlı məqalələr yazmış və hüquqi dövlət quruculuğu prosesini sürətləndirmək istiqamətində yeni təkliflər vermişdir.

Professor M.Məlikova hələ sovet dönəmindən digər müttəfiq respublikalardakı həmkarları arasında böyük hörmət və nüfuza malikdir. Təsadüfü deyil ki, Rusiyanın hüquq alimləri onunla indiyədək sıx əməkdaşlıq edirlər. Bunun nəticəsində azərbaycanlı alim bir çox monoqrafik tədqiqatlarda - SSRİ Elmlər Akademiyasının nəşr etdiyi "Siyasi və hüquqi təlimlər tarixi" üçcildlik kitabının birinci "Qədim dünya" cildində, ikinci "Orta əsrlər və intibah dövrü" cildində və XVII-XVIII əsrləri əhatə edən üçüncü cildində, eləcə də Moskvada nəşr olunan "Siyasi və hüquqi təlimlər tarixi" dərsliklərində bir sıra bölmələrin müəllifləridir.

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası yarandığı gündən Məsumə xanım orada iqtisadiyyat, fəlsəfə və hüquq elmləri üzrə ekspert şurasının sədri olmuşdur. Eləcə də Respublika Ali Məhkəməsinin və Baş Prokurorluğunun elmi-məsləhət şuralarının üzvü kimi indi də fəaliyyət göstərir.

Professor Məsumə Məlikovanın xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. Ona 1969-cu ildə Azərbaycan SSR-in Əməkdar hüquqşünası fəxri adı verilmişdir. 1976-cı ildə "Şərəf nişanı" ordeni, 2000-ci ildə "Şöhrət" ordenləri, 1985-ci ildə "Əmək veteranı" medalı, bir neçə fəxri fərman, o cümlədən 1994 və 1999-cu illərdə Azərbaycan Respublikası Təhsil Nazirliyinin, 1999 və 2004-cü illərdə AMEA-nın, həmçinin DİN-nin fəxri fərmanları, 2008-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Qabaqcıl təhsil işçisi döş nişanı" ilə təltif edilmişdir. Prezident İlham Əliyevin 30 oktyabr 2009-cu il tarixli sərəncamına əsasən Azərbaycanda təhsilin və elmin inkişafında böyük xidmətlərinə görə ona fərdi Prezident təqaüdü verilmişdir.

Bu gün Məsumə xanım yaşadığı mənalı illərə boylanıb qürur hissi keçirir. Bu qüruru ona bəxş edən təkcə övladları deyil, həm də yetişdirdiyi hüquqşünas kadrlardır. İndi onlar Azərbaycanımızın müxtəlif elmi-hüquqi müəssisələrində, hüquqi xidmət idarələrində, ədliyyə, hüquq mühafizə orqanlarında çalışırlar.

Məsumə xanım, həmçinin xalqımıza hüquq elminə aid böyük bir irs ərməğan etmişdir. Bu, Azərbaycanda və onun hüdudlarından kənarda çap olunmuş 200-dən çox monoqrafiya, dərslik, dərs vəsaiti, çoxsaylı elmi məqalələrdir. 2019-cu ildə işıq üzü görən "Hüquq nəzəriyyəsi" adlı əsəri hüquqşünasların stolüstü kitabına çevrilmişdir. Tələbələr, gənc hüquqşünaslar bu elmi xəzinədən geniş istifadə edirlər.

Böyük alimin formalaşdırdığı elmi məktəbin indi yüzlərlə davamçısı var və bu, bir ustad kimi onun xidmətləridir. Məsumə xanımın elm sahəsində qazandığı uğurlar Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsinə, xalqımızın elmi potensialının daha da gücləndirilməsinə xidmət göstərmiş və göstərməkdədir. Nə vaxtsa Məsumə xanımın özünə ideal seçdiyi şəxsiyyətlər, şübhəsiz ki, olmuşdur. Bu gün isə özü 90 illik şərəfli bir ömürlə çoxları üçün idealdır. Onu özünə ideal seçən hər kəs təkcə Məsumə Məlikovadan alim olmağı deyil, həm də necə insan olmağı öyrənir.

***Alış QASIMOV,***
***BDU-nun kafedra müdiri, professor***

# "Azərbaycan ailəsi-2019" film festivalının qalibləri mükafatlandırılıb

Noyabrın 21-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi (AQUPDK), Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və BMT-nin Əhali Fondunun birgə təşkilatçılığı ilə "Azərbaycan ailəsi-2019" film festivalının qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.



AZƏRTAC xəbər verir ki, Beynəlxalq Muğam Mərkəzində keçirilən tədbirdə əvvəlcə festivala təqdim olunmuş film və fotolardan ibarət videoçarx nümayiş etdirilib.

Məlumat verilib ki, 2009-cu ildən reallaşdırılan "Azərbaycan ailəsi" film festivalının məqsədi kinematoqrafiya və fotoqrafiya sənəti vasitəsilə ailə dəyərlərinin təbliği və qorunması, bu sahədəki problemlərin işıqlandırılması, gənclərdə yaradıcılıq qabiliyyətinin aşkarlanmasıdır. Artıq beşinci ildir ki, festival çərçivəsində "Həyatdan şəkilə" adlı fotomüsabiqə də keçirilir.

Festivala təqdim olunan işlər Azərbaycanın görkəmli elm və mədəniyyət xadimlərindən ibarət münsiflər heyəti tərəfindən qiymətləndirilib və qaliblər müəyyənləşdirilib. Festivalda "Ən yaxşı bədii film", "Ən yaxşı sənədli film", "Ən yaxşı tələbə filmi", "Ən yaxşı sosial çarx", "Sosial şəbəkədə ən çox bəyənilən film", "Ən yaxşı fotoşəkil" nominasiyaları üzrə qaliblər mükafatlandırılıb. Eyni zamanda, festivalın məqsədinə və ideyasına uyğun olan filmlər də xüsusi mükafatlara layiq görülüb.

Tədbirdə çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova bildirib ki, müasir dünyamızda ailə anlayışı sosial institut kimi böyük əhəmiyyət kəsb edir. Ailəni vətəndaş cəmiyyətinin formalaşmasında əsas element kimi dəyərləndirən komitə sədri qeyd edib ki, Ulu Öndər Heydər Əliyev hər zaman ölkəmizdə milli-mənəvi dəyərlərin qorunmasına böyük diqqət yetirirdi. Bu siyasəti uğurla davam etdirən Prezident İlham Əliyev də ailənin cəmiyyətdəki rolunu yüksək qiymətləndirir. Ölkəmizin inkişafı, müstəqilliyimizin daha da möhkəmləndirilməsi və milli dəyərlərin tam şəkildə bərqərar edilməsi üçün ailə dəyərləri daim yüksəkdə olmalıdır. Bu məsələləri hər zaman diqqət mərkəzində saxlayan Birinci vitse-prezident Mehriban Əliyeva da ölkədə ailə, qadın və uşaq problemlərinin həllinə böyük dəstək verir, qaçqın və məcburi köçkün ailələrinə xüsusi qayğı göstərir.

BMT-nin Əhali Fondunun Azərbaycan nümayəndəliyinin əməkdaşı Fərid Babayev festivalın ailə dəyərlərinin qorunmasına və təbliğinə xidmət etdiyini bildirib. Azərbaycanda ailə institutunun qorunması ilə bağlı geniş tədbirlərin görüldüyünü deyən F.Babayev əlavə edib ki, mənəvi sərvətimiz hesab olunan ailə cəmiyyətimizin özəyidir. Azərbaycanın dövlət siyasətində ailəyə qayğı mühüm önəm kəsb edir. Festivalın beynəlxalq nüfuzu ildən-ilə artır.

Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri, Xalq artisti, professor Şəfiqə Məmmədova qalibləri, yaradıcı gəncləri təbrik edərək onlara gələcək işlərində uğurlar arzulayıb. Qeyd edib ki, bu festival vasitəsilə yaradıcı insanlar öz potensiallarını beynəlxalq aləmdə təbliğ etmək imkanı qazanırlar. Bu festivalın geniş auditoriyaya malik olmasının əsas səbəblərindən biri onun təşkilatçıları sırasında Heydər Əliyev Fondunun olmasıdır. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın fəaliyyətində bu məsələ önəmli yer tutur.

Sonda müxtəlif nominasiyalar üzrə "Azərbaycan ailəsi-2019" film festivalının və "Həyatdan şəkilə" fotomüsabiqəsinin qaliblərinə diplom və qiymətli hədiyyələr təqdim olunub.

Qeyd edək ki, müsabiqədə iştirak etmək üçün təşkilat komitəsinə 2 bədii film, 6 televiziya verilişi, 9 sənədli film, 14 tələbə filmi, 3 xarici film, 6 sosial çarx, vətənpərvərlik mövzusunda 7 film, "Həyatdan şəkilə" adlı fotomüsabiqəyə isə 21 iştirakçı tərəfindən 78 fotoşəkil təqdim edilib.

# İqtisadiyyat naziri Moskvada işgüzar görüşlər keçirib

Azərbaycanın İqtisadiyyat naziri Mikayıl Cabbarov Moskvada Rusiyanın Sənaye və Ticarət naziri Denis Manturovla görüşüb.

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə bu ilin yanvar-sentyabr aylarının nəticələrinə görə, Rusiya və Azərbaycan arasında ticarət dövriyyəsinin 25 faizdən çox artaraq 2,2 milyard ABŞ dolları təşkil etdiyi vurğulanıb. Qeyd olunub ki, sənaye sahəsində əməkdaşlığın mühüm istiqamətlərindən biri avtomobil və maşınqayırma sahəsidir. Tərəflər aviasiya sənayesi, gəmiqayırma, kənd təsərrüfatı, əczaçılıq sənayesi və digər sahələrdə əməkdaşlıq məsələlərini müzakirə ediblər.

M.Cabbarov Moskvada Rusiya Federal Antiinhisar Xidmətinin rəhbəri İqor Artemyevlə də görüşüb. Rusiyada antiinhisar xidmətinin fəaliyyət istiqamətləri və görülən işlər haqqında Azərbaycanın İqtisadiyyat nazirinə ətraflı məlumat verən İ.Artemyev bu sahədə ölkəmizin müvafiq qurumları ilə əməkdaşlığın inkişafında maraqlı olduqlarını diqqətə çatdırıb.

Hər iki görüşdə ölkələrimiz arasında iqtisadi əlaqələrin genişləndirilməsi, habelə qarşılıqlı təcrübə mübadiləsi ilə bağlı müzakirələr aparılıb. M.Cabbarov Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar, biznes-investisiya mühiti, antiinhisar siyasəti sahəsində görülən işlər və sair barədə geniş məlumat verib, Rusiya-Azərbaycan əməkdaşlığının böyük potensialı olduğunu vurğulayıb.

Görüşdə qarşılıqlı strateji əməkdaşlığın intensivləşdiriləcəyinə, iqtisadi əlaqələrin daha da dərinləşdirilməsi üçün hər iki dövlətin məsul qurumlarının səylərinin artırılacağına əminlik ifadə edilib.

# Prezidentə inam və etimad daha da artıb

## Son sosial sorğu da bunu təsdiqləyir

*Əvvəli 1-ci səh.*

Sorğunun nəticələrinə əsasən, Prezidentin oktyabrın 3-də "Valday" Diskussiya Klubunun plenar iclasındakı çıxışı zamanı "Qarabağ Azərbaycandır və nida işarəsi" deməsi əhalidə vətənpərvərlik hissini gücləndirib, dövlətə olan inam və etibarı artırıb. Bu, rəyi soruşulanların 85,8 faizinin fikridir. 76,9 faiz isə hesab edir ki, Prezidentin "Valday" Diskussiya Klubunun plenar iclasındakı çıxışı Ermənistanın beynəlxalq müstəvidə mövqeyinin zəiflədilməsi baxımından təsirli olub. Ümumiyyətlə, respondentlərin 84, 9 faizi Prezidentin "Valday" Diskussiya Klubunun plenar iclasındakı çıxışının əhəmiyyətini yüksək qiymətləndirib.

### Prezidentin Aşqabaddakı nitqi Ermənistanın ifşası istiqamətində tutarlı addım oldu

İlham Əliyevin oktyabrın 11-də Aşqabadda MDB Dövlət Başçıları Şurasının Sammitindəki çıxışı rəyi soruşulanların 85 faizi tərəfindən rəğbətlə qarşılanıb. Azərbaycan Prezidentinin Ermənistanı tutarlı arqumentlərlə faşizmi qəhrəmanlaşdırmaqda ittiham etməsi və qarşı tərəfin mahiyyətsiz cavabı göstərdi ki, Prezident İlham Əliyev hücum diplomatiyasını uğurla davam etdirir. Rəyi soruşulan hər beş respondentdən dördünün fikrincə, Prezident İlham Əliyevin Aşqabad Sammitindəki çıxışı faşizm ideyalarını dəstəkləyən Ermənistanın ifşası istiqamətində tutarlı addım olmuşdur. 80,1 faiz bu çıxışın münaqişənin tənzimlənməsi istiqamətində də təsirli olacağı qənaətindədir.

Bütövlükdə Azərbaycanın beynəlxalq imicinin möhkəmləndirilməsi, münaqişə vəziyyəti ilə bağlı həqiqətlərin - Azərbaycanın haqlı mövqeyinin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması baxımından İlham Əliyevin "Valday" Diskussiya Klubunun plenar iclasındakı və Aşqabaddakı çıxışları mühüm siyasi əhəmiyyət kəsb edir.

Respondentlərin 80,9 faizinin rəyinə görə, Prezident İlham Əliyevin oktyabrın 15-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşündəki və oktyabrın 25-26-da Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşündəki çıxışları da Azərbaycanın beynəlxalq imicinin möhkəmləndirilməsi, münaqişə vəziyyəti ilə bağlı həqiqətlərin - Azərbaycanın haqlı mövqeyinin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması baxımından çox əhəmiyyətlidir.

### Respondentlərin 87,6 faizi islahatları dəstəkləyir

Rəy sorğusu ölkədə həyata keçirilən iqtisadi və kadr islahatlarının da insanlar tərəfindən dəstəkləndiyinin növbəti təsdiqidir. Bu mənada vətəndaşlar Prezident İlham Əliyevin rəhbərliyi ilə cəmiyyət həyatının bütün sahələrində qazanılan nailiyyətləri yüksək qiymətləndirirlər. Belə ki, sorğunun nəticələri dövlət başçısı tərəfindən həyata keçirilən islahatlara əhalinin inamının ən yüksək səviyyədə olduğunu göstərib. Respondentlərin 87,6 faizi Prezidentin həyata keçirdiyi islahatları dəstəkləyir, onu əhəmiyyətli hesab edir. Bu da ondan xəbər verir ki, davamlı kadr islahatları vətəndaşlar tərəfindən ümummilli rifahın təmin olunmasının alternativsiz yolu kimi qiymətləndirilir.

Sorğuda vətəndaşların digər sahələrlə də bağlı rəyi öyrənilib. Nəticələrə əsasən Prezidentin fəaliyyətinin ən yüksək qiymətləndirildiyi sahələrdən biri də ordu quruculuğudur. Belə ki, rəyi soruşulanların 92,7 faizi Prezidentin ordunun və bütövlükdə Silahlı Qüvvələrin formalaşdırılması sahəsində uğurlu fəaliyyətini qeyd edib. 92,4 faiz respondent isə dövlət başçısının xarici siyasət fəaliyyətini uğurlu sayıb.

Bütövlükdə sorğunun nəticələrinə istinadən respondentlər ölkə Prezidentinin fəaliyyətində onların maraqlarından, tələbatlarından və gözləntilərindən çıxış etdiyi qənaətindədirlər. Beynəlxalq müstəvidəki uğurlar və islahatların dərinləşməsi İlham Əliyevin adı və şəxsi təşəbbüsləri, nümunələri ilə bağlı olduğu üçün onun reytinqi ictimai rəydə yüksələn xətt üzrə dinamika nümayiş etdirir və bu tendensiya islahatların davam etməsi fonunda daha da güclənir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# "Daşnaklar Fərqanədən Qarabağa qədər" kitabının təqdimatı olub

Noyabrın 21-də Bakıda özbəkistanlı yazıçı Şöhrət Barlasın müəllifi olduğu "Daşnaklar Fərqanədən Qarabağa qədər" kitabının təqdimatı olub.



AZƏRTAC xəbər verir ki, "Kaspi" qəzetinin və Mətbuat Şurasının dəstəyi ilə nəşr olunan kitabda erməni terrorundan bəhs edilir.

Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Umud Mirzəyev qeyd edib ki, kitabda erməni daşnaklarının Orta Asiyadan Qafqaza qədər törətdikləri amansız terror aktlarından bəhs olunur. Həmçinin müəllif SSRİ dövründə Azərbaycan və özbək xalqlarına qarşı ermənilərin törətdikləri faciələrdən söhbət açır.

Umud Mirzəyev Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyevin kitabın nəşrinə və eyniadlı filmin çəkilməsinə verdiyi dəstəyi xüsusi vurğulayıb. O, kitabın bütün türk dünyası üçün çox önəmli olduğunu deyib.

"Kaspi" qəzetinin təsisçisi Sona Vəliyeva bildirib ki, kitabda ermənilərin türk dünyasına qarşı apardığı düşmənçilik siyasəti yer alıb. O, erməni terrorçularının təkcə azərbaycanlılara deyil, bütün türk xalqlarına qarşı apardığı soyqırımı siyasətinin acı nəticələrinin gənclərə çatdırılması üçün yeni nəşrin ali təhsil ocaqlarında yayılması təklifi ilə çıxış edib. "Kaspi" qəzetinin təsisçisi vurğulayıb ki, ermənilərin türk xalqlarına olan kin və nifrəti faciələrə gətirib çıxarıb.

Azərbaycanın Özbəkistandakı səfirliyinin nəzdində fəaliyyət göstərən Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasov qeyd edib ki, kitabda daşnakların Fərqanədə və Qarabağda törətdikləri vəhşiliklərdən, günahsız insanlara divan tutan ermənilərin xain əməllərindən bəhs edilib. Bu kitab artıq yeddinci nəşrdir və rus dilində çap olunub.

Kitabın müəllifi Şöhrət Barlas uzun müddətdir ki, erməni terroru ilə bağlı araşdırmalar apardığını bildirib. Ancaq tarixi faktların kitab halında nəşrini həyata keçirmək imkanları yox idi. Müəllif bu işdə ona göstərilən köməyə görə səfir Hüseyn Quliyevə, Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinə, "Kaspi" qəzetinə və Mətbuat Şurasına minnətdarlığını bildirib.

Daha sonra "Daşnaklar Fərqanədən Qarabağa qədər" sənədli filmi nümayiş olunub.

# *Azərbaycan XİN:* "Nikol Paşinyanın Milanda söylədikləri onun öz əhalisini yanıltmaq cəhdidir"

Ermənistan baş naziri Nikol Paşinyanın Milanda azərbaycanlı bloqerin sualına cavabında söylədiklərini onun öz əhalisini yanıltmaq cəhdi kimi xarakterizə etmək olar. Bunun başqa cür qiymətləndirilməsi mümkün deyil.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycanın Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva məsələ ilə bağlı KİV-in sorğusuna cavabında bildirib.

Leyla Abdullayeva deyib: "N.Paşinyan növbəti dəfə SSRİ Konstitusiyasına istinad edərək, guya ki, Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) Konstitusiya ilə ayrılmaq hüququnun olduğunu iddia edir. Öz tərəfimizdən növbəti dəfə xatırladırıq ki, SSRİ Konstitusiyasının 78-ci maddəsinə əsasən müttəfiq respublikanın ərazisi onun razılığı olmadan dəyişdirilə bilməzdi. Eyni zamanda, erməni millətçilərinin DQMV-nin Azərbaycan SSR-dən ayrılmasına yönəlmiş qanunsuz hərəkətləri ilə əlaqədar SSRİ ali qurumları öz qərarlarında mövcud sərhədlərin dəyişdirilməsinin mümkünsüzlüyünü birmənalı şəkildə təsdiq etmişdi. Misal üçün, 1990-cı il 10 yanvar tarixində SSRİ Ali Sovetinin Prezidiumunun qəbul etdiyi və Dağlıq Qarabağın Azərbaycan SSR-dən ayrılması cəhdlərinin qanunsuz olduğunu vurğulayan "Ermənistan SSR Ali Sovetinin Dağlıq Qarabağa dair 1989-cu il 1 dekabr və 1990-cı il 9 yanvar tarixli qərarlarının SSRİ Konstitusiyasına uyğun olmaması barədə" qərarı. Bu mövqe eyni ilə SSRİ Dövlət Şurasının 1991-ci il 27 noyabr qərarı və növbəti gün SSRİ Konstitusiya Nəzarət Komitəsinin qəbul etdiyi qərarda da öz əksini tapdı.

DQMV ermənilərinin birtərəfli qaydada ayrılmasının sovet qanunlarına zidd olduğu bir halda baş nazirin bunu SSRİ Konstitusiyası ilə əsaslandırmaq cəhdləri öz əhalisini yanıltmaq deyil, bəs nədir? N.Paşinyan DQMV yerli şurasının öz müqəddəratını müəyyən etmək hüququndan istifadə etdiyini qeyd edir, lakin baş nazir Dağlıq Qarabağda 1991-ci ilin 10 dekabrında separatçıların keçirdiyi "müstəqillik referendumu"nun muxtar vilayətin hüquqi baxımdan tərkib hissəsini təşkil etdiyi Azərbaycanın razılığı olmadan və bu bölgənin azərbaycanlı əhalisinin iştirakı olmadan keçirildiyini söyləmir.

Xocalı soyqırımını təkzib edərək bunu yalan adlandıran baş nazir, deməli, Ermənistandan da daxil olmaqla çoxsaylı müstəqil mənbələr, yerli və beynəlxalq kütləvi informasiya vasitələri və bu faciənin şahidlərinin ifadələrini yalan hesab edir. Görünür, öz müqəssirliyini utanmadan etiraf edən Ermənistanın o dövrdəki müdafiə naziri və keçmiş prezidenti Serj Sarkisyanın xarici jurnalistə müsahibəsində dediyi "Xocalıdan qabaq azərbaycanlılar düşünürdü ki, ermənilər mülki əhaliyə əl qaldıra bilməyən xalqdır. Biz bu stereotipi sındırdıq" ifadələrindən də N.Paşinyanın xəbəri yoxdur.

Maraqlıdır, öz sələflərindən fərqli olaraq N.Paşinyan beynəlxalq ictimaiyyət qarşısında özünü demokratik dəyərlərin tərəfdarı kimi təqdim edir. Belə olduğu halda o bunu təsdiq etməli və Azərbaycanın ərazilərinin işğalına son qoymalıdır ki, insanlar öz doğma torpaqlarına geri qayıtsınlar".

# "Azərenerji" SES-lərdə yeni sistem yaradır

## Tezliyin tənzimlənməsi avtomatik olacaq

"Azərenerji" istilik elektrik stansiyaları ilə yanaşı, "Mingəçevir" Su Elektrik Stansiyasında da təmir-bərpa işləri həyata keçirir. 6 hidroaqreqatdan ibarət "Mingəçevir" SES-də təmir-bərpa işləri aparılaraq dayanıqlılıq, etibarlılıq və təhlükəsizlik artırılacaq. Ən əsası isə tezliyin avtomatik tənzimlənməsi istiqamətində böyük layihə gerçəkləşəcək. Qeyd edək ki, 2018-ci ilin yayında baş verən qəza və nəticədə enerjisistemin çökməsinin bir daha təkrarlanmaması üçün əks-qəza avtomatikasının, rele mühafizəsinin yenilənməsi ilə yanaşı, tənzimatın avtomatik aparılması üçün bir çox ölkələrin və şirkətlərin müasir texnologiyasına əsaslanaraq alınan avadanlıqlar işə qoşulur. 1, 3 və 6 saylı hidroaqreqatlarda bu işlər artıq başa çatdırılıb, tənzimləmə, idarəetmə sistemləri dəyişdirilib, təsirlənmə və yeni generatorun mühafizə qurğuları işə qoşulub. 2, 4 və 5 saylı qurğularda bu işlər davam etdirilir.




"Mingəçevir" SES-də olduğu kimi, "Şəmkir" və "Yenikənd" Su Elektrik stansiyalarında da eyni qurğular quraşdırılacaq. Bununla yanaşı, hazırda "Şəmkir" SES-in 37 il əvvəl istifadəyə verilən və istismar müddətini bitirdiyindən təhlükəli vəziyyətdə olan su tullayıcı qurğusunda bərpa işləri aparılır. Qeyd edək ki, 160 metr uzunluqda olan üç bloklu yeraltı su tunelinin döşəməsində, tavanında, orta aşırımında, çıxış başlıq hissəsində, istinad divarlarında aşınmalar və çatlar əmələ gəlib, beton qatları qırılıb. Qurğuda su sızmasının qarşısını almaq, uçmaq təhlükəsini aradan qaldırmaq üçün yerli və xaricdən dəvət edilən mütəxəssislərin iştirakı ilə layihə hazırlanıb və təmirə başlanılıb.

"Şəmkir" SES-də təmir-bərpa işləri təkcə su tullayıcı qurğu ilə yekunlaşmayacaq və digər işlər də aparılacaq. Eyni zamanda, planlaşdırılan işlər çərçivəsində "Şəmkir" SES-in açıq paylayıcı qurğusunun, hidroaqreqat generatorlarının təsirlənmə sistemlərinin, idarəetmə mərkəzinin, SKADA dispetçer idarəetmə sisteminin, tezliyin və aktiv gücün avtomatik tənzimlənməsi sisteminin yenidən qurulması nəzərdə tutulub. Qeyd edək ki, su elektrik stansiyalarında işlər fasiləsiz olaraq aparılır. Bu işlərin 2020-ci ildə başa çatdırılması planlaşdırılıb.

***"Azərbaycan"***

# Korrupsiyaya yol vermiş vəzifəli şəxslərə qarşı mübarizə tədbirləri davam etdirilir

## Bələdiyyə sədrinin qanunsuz əməlləri ifşa olunub

Ölkəmizdə əhalinin sosial rifahına kölgə salan korrupsiya və rüşvətxorluq kimi neqativ amillərə, o cümlədən müxtəlif sahələrdə əhalini narahat edən korrupsiya hüquqpozmaları törətmiş vəzifəli şəxslərə qarşı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qətiyyətli siyasi iradəsinə uyğun olaraq mübarizə istiqamətində kompleks və ardıcıl tədbirlər davam etdirilir. Dövlət başçısı tərəfindən qarşıya qoyulmuş vəzifələrin icra edilməsi məqsədilə şəxsi maraqlarını güdməklə dövlət məmurunun davranış qaydalarına və etik normalarına riayət etməyən, korrupsiya cinayətləri törətmiş vəzifəli şəxslərin qanun qarşısında ifşa və məsuliyyətə cəlb olunması istiqamətində Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi tərəfindən zəruri tədbirlər həyata keçirilir.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Quba Şəhər Bələdiyyəsinin sədri vəzifəsini icra etmiş Dəstəbəy Tərlanovun qanunsuz əməlləri barədə rayon sakininin müraciəti Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.

Həyata keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində D.Tərlanovun xidməti səlahiyyətlərinin hüdudlarından açıq-aşkar kənara çıxmaqla Quba bələdiyyəsinə məxsus 2,5 sot torpaq sahəsini bələdiyyənin perspektiv inkişaf fonduna aid torpaq sahəsi kimi rəsmiləşdirməklə fərdi yaşayış evinin tikintisi məqsədilə ayrılmasını təmin etmək üçün rayon sakininin 1750 manat pulunu rüşvət kimi tələb edərək almasına, bundan başqa bələdiyyəyə məxsus 3090 manat dəyərində 0,06 hektar torpaq sahəsini vəzifə səlahiyyətlərindən sui-istifadə edərək "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tələblərini qəsdən pozmaqla hərrac və müsabiqə keçirilmədən tanışlıq münasibətləri olan ayrı-ayrı şəxslərə qanunsuz olaraq sataraq bələdiyyənin mülkiyyətindən çıxarmasına şübhələr üçün əsaslar müəyyən edildiyindən Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə), 309.1 (vəzifə səlahiyyətlərini aşma) və 311.1-ci (rüşvət alma) maddələri ilə cinayət işi başlanıb.

D.Tərlanov təqsirləndirilən şəxs qismində cəlb edilib. Ona Cinayət Məcəlləsinin həmin maddələri ilə ittiham elan olunmaqla barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə qeyd olunan qanunsuz halların hərtərəfli araşdırılmaqla təqsirli şəxslərin və həmin şəxslərin qanuni mənafelərini pozmuş olduqları vətəndaşların dairəsinin tam müəyyənləşdirilməsi, habelə vurulmuş ziyanın ödənilməsinin təmin olunması istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# "Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyanın növbəti mərhələsi uğurla başa çatıb

## Budəfəki tur-aksiyada 3190 nəfər iştirak edib



Azərbaycanın orta ümumtəhsil məktəblərinin 9-11-ci sinif şagirdlərinin "Ölkəmizi tanıyaq" devizi ilə Vətənimizin müxtəlif bölgələrinə maarifləndirici tur-aksiyaların növbəti mərhələsi uğurla başa çatıb.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı İlham Əliyevin tövsiyəsinə əsasən Prezident Administrasiyasının təşkilatçılığı ilə artıq altıncı ildir keçirilən tur-aksiyalar gözəl ənənə halını alıb.

Layihənin əsas məqsədi şagirdləri ölkəmizin müxtəlif bölgələrinin müasir həyatı, tarixi, mədəni irsi, adət-ənənələri, özünəməxsus xüsusiyyətləri, Ümummilli Lider Heydər Əliyevin qurub-yaratdığı müstəqil Azərbaycanın nailiyyətləri ilə yaxından tanış etmək, Prezident İlham Əliyevin qətiyyəti və iradəsi ilə respublikamızın dinamik sosial-iqtisadi inkişafı, gündən-günə abadlaşan şəhər və rayonlarımızın yeniləşən siması barədə gənclərdə əyani təsəvvür yaratmaqdır.

Ötən müddətdə ildə iki dəfə olmaqla, 7 istiqamət üzrə (Bakı şəhəri, Naxçıvan MR, Gəncə-Şəmkir-Göygöl, Şamaxı-İsmayıllı-Qəbələ-Şəki-Zaqatala, Quba-Qusar-Xaçmaz, Lənkəran-Masallı-Lerik-Astara, Naftalan-Ağcabədi-Ağdam-Bərdə-Füzuli-Tərtər) 11 tur-aksiya təşkil olunub. Ölkəmizin bütün bölgələrinin əhatə olunduğu bu tur-aksiyalarda, ümumilikdə, 26 min 814 nəfər iştirak edib.

Noyabrın 13-16 və 18-21-i tarixlərini əhatə edən növbəti - 12-ci tur-aksiyada isə 4 istiqamət üzrə 76 şəhər və rayondan, o cümlədən məcburi köçkün rayonlarından ümumilikdə 3 min 190 nəfər iştirak edib. Bununla da "Ölkəmizi tanıyaq" tur-aksiyalarında iştirak edən məktəblilərin sayı 30 mindən çox olub.

On ikinci tur-aksiya çərçivəsində Gəncə-Şəmkir-Göygöl istiqaməti üzrə səfər edən məktəblilər bu bölgədə genişmiqyaslı quruculuq işləri, maddi-mənəvi irsin qorunması və bərpası istiqamətində həyata keçirilən önəmli sosial layihələr, həmçinin 200 il əvvəl salınan alman məskənləri ilə tanış olublar.

Aksiyanın bu mərhələsində məktəblilərin asudə vaxtlarında "Nə? Harada? Nə vaxt?" intellektual oyunları təşkil olunub, qaliblərə xatirə hədiyyələri verilib, onlar üçün teatr tamaşaları və konsert proqramları təşkil edilib.

# Çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsinə dair fərmanın icrası davam etdirilir

Azərbaycan Respublikası Prezidentinin növbəti humanist addım olaraq imzaladığı "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" 2019-cu il 19 fevral tarixli fərmanının icrası ilə əlaqədar Fövqəladə Hallar Nazirliyi (FHN) və digər aidiyyəti dövlət qurumları tərəfindən zəruri tədbirlər davam etdirilir.

FHN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görülmüş tədbirlər nəticəsində ötən yeddi ayda ümumi sahəsi 4 milyon 531 min 2 kvadratmetr olan 46 min 651 mənzilli, ümumilikdə 893 girişli 233 binaya (kompleksə) dair müsbət rəy verilib. 218-i Bakıda, 8-i Abşeron rayonunda, 1-i Sumqayıtda, 4-ü Gəncədə, 1-i Mingəçevirdə, 1-i isə Zərdab rayonunda yerləşən bu binalara dair sənədlər komplektləşdirilib, onların istismara hazır olması barədə tərtib edilmiş rəy aidiyyəti üzrə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə, Abşeron rayon, Sumqayıt şəhər, Gəncə şəhər, Mingəçevir şəhər və Zərdab rayon icra hakimiyyətlərinə təqdim olunub.

Aparılmış müayinələr nəticəsində aşkarlanan çatışmazlıqların aradan qaldırılması üzrə işlərin fərmanda müəyyən olunmuş vaxtda başa çatdırılmasının təmin edilməsi, bu istiqamətdə qarşıya çıxan məsələlərin operativ həlli üçün birgə fikir mübadiləsinin aparılması məqsədilə mövcud çatışmazlıqları qalan yaşayış binalarının sifarişçilərinin və həmin binalarda yaşayan sakinlərin bir qisminin iştirakı ilə oktyabrın 28-də, 30-da və noyabrın 1-də FHN-in Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyində görüşlər keçirilib. FHN-in müvafiq qurumlarının, Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin, "Azərsu" ASC-nin, SOCAR-ın "Azəriqaz" İB-in və "Azərişıq" ASC-nin səlahiyyətli şəxslərinin iştirak etdikləri görüşlərdə hər bir bina üzrə mövcud vəziyyət təhlil edilib və nöqsanların aradan qaldırılması istiqamətində görülən işlərin müzakirəsi aparılıb.

Fərmandan irəli gələn məsələlərin icrası davam etdirilir və görülən işlər dövlət başçısının nəzarəti altındadır.

Xatırladaq ki, bu il fevralın 19-da Prezident İlham Əliyev "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" fərman imzalayıb.

Fərman istismarına icazə verilməmiş çoxmənzilli yaşayış binalarının sakinlərinin mənafelərini və Azərbaycan Respublikasının sosialyönümlü dövlət siyasətinin əsasını təşkil edən humanizm prinsiplərini əsas götürərək, həmin binaların istismarına icazə prosedurunu və müddətini optimallaşdırmaq, bu sahədə şəffaflığı və vətəndaş məmnunluğunu təmin etmək məqsədilə imzalanıb.

Sənəddə 2019-cu il yanvarın 1-dək bütün mərtəbələrinin, yan divarlarının və dam örtüyünün inşası daxil olmaqla tikinti-quraşdırma işləri başa çatmış və istismar edilən mənzilləri olan çoxmənzilli yaşayış binalarının (çoxmənzilli yaşayış binası komplekslərinin) istismarına icazə verilməsi qaydaları müəyyənləşdirilib.

Fərmanda qeyd edilir ki, Azərbaycan Respublikasında əhalinin yaşayış səviyyəsinin və sosial rifahının yüksəldilməsi dövlət siyasətinin başlıca prioritetlərindən biridir. Ölkənin sosial-iqtisadi inkişafı konsepsiyasına uyğun olaraq vətəndaşların mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına hədəflənən məqsədyönlü və sistemli tədbirlər həyata keçirilir. Son illərdə Azərbaycan iqtisadiyyatının bütün sahələrində, o cümlədən inşaat sektorunda əhəmiyyətli inkişaf müşahidə olunur, şəhərsalma və tikinti sahələrində irihəcmli investisiyaların böyük hissəsi çoxmənzilli yaşayış binalarının tikintisinə yönəldilir. Bununla belə, ötən müddət ərzində bəzi çoxmənzilli yaşayış binalarında tikinti işləri şəhərsalma qanunvericiliyinin tələblərinə riayət olunmadan və ya sənədləşdirilməsində ciddi qüsurlar buraxılaraq, sakinlərinin hüquq və maraqları nəzərə alınmadan aparılıb ki, bu da öz növbəsində, bir sıra hallarda həmin binaların rəsmiləşdirilməsini qeyri-mümkün edib.

Fərmanda müvafiq qurumlara tapşırıqlar verilib.


## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Əlilliyi olan şəxslər üçün Şağan Müalicə Pansionatının əsaslı təmiri və avadanlıqlarla təchizatı işlərinin satın alınması üzrə keçirilən təkliflər sorğusuna dəvət edir

Maraqlanan təşkilatlar (012) 596 44 09 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.
Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.

**İştirak haqqı:** 1000,0 (bir min) manat
**Satınalan təşkilat:** Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
**VÖEN:** 1700093011
**Bank:** Dövlət Xəzinədarlığı Agentliyi
**KOD:** 210005
**M/H:** AZ41NABZ01360100000000003944
**VÖEN:** 1401555071
**SWIFT** CTREAZ22
**H/H:** AZ80CTRE00000000000002138501

**Büdcə gəlirlərinin təsnifat kodu - 142340**
**Büdcə səviyyəsinin kodu - 7**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).
Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.
Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 28 noyabr 2019-cu il saat 17:00-dək qəbul olunur.
İddiaçıların təklifləri 29 noyabr 2019-cu il saat 11:00-da Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında açılacaqdır.

*Tender komissiyası*

## Təkliflər sorğusuna dəvət

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Bakı şəhəri Nizami rayonunda yeni açılacaq DOST mərkəzi üçün:
LOT 1 - Divar üzlük, arakəsmələr, barissol və digər inventarların alınması;
LOT 2 - Mebel və digər inventarların alınması
satın alınması üzrə keçirilən təkliflər sorğusuna dəvət edir.
Maraqlanan təşkilatlar (012) 596 44 09 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.
**İştirak haqqı:** LOT 1 üzrə 200 (iki yüz) manat
LOT 2 üzrə 200 (iki yüz) manat
**Satınalan təşkilat:** Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
**VÖEN:** 1700093011
**Bank:** Dövlət Xəzinədarlığı Agentliyi
**KOD:** 210005
**MÜXBİR HESABI:** AZ41NABZ01360100000000003944
**VÖEN:** 1401555071
**SWIFT** BIK CTREAZ22
**H/HESABI:** AZ80CTRE00000000000002138501
**Büdcə gəlirlərinin təsnifat kodu - 142340**
**Büdcə səviyyəsinin kodu - 7**

**İstirak haqqı heç bir halda qaytarılmır.**

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.
Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).
Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.
Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 28 noyabr 2019-cu il saat 18:00-dək qəbul olunur.
İddiaçıların təklifləri 29 noyabr 2019-cu il saat 10:00-da Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında açılacaqdır.

*Tender komissiyası*

## Təkliflər sorğusuna dəvət

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Bakı şəhəri Xəzər rayonunda yeni açılacaq DOST mərkəzi üçün:
LOT 1 - Divar üzlük, arakəsmələr, barissol və digər inventarların alınması;
LOT 2 - Mebel və digər inventarların alınması
satın alınması üzrə keçirilən təkliflər sorğusuna dəvət edir.
Maraqlanan təşkilatlar (012) 596 44 09 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.
**İştirak haqqı:** LOT 1 üzrə 200 (iki yüz) manat
LOT 2 üzrə 200 (iki yüz) manat
**Satınalan təşkilat:** Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
**VÖEN:** 1700093011
**Bank:** Dövlət Xəzinədarlığı Agentliyi
**KOD:** 210005
**MÜXBİR HESABI:** AZ41NABZ01360100000000003944
**VÖEN:** 1401555071
**SWIFT** BIK CTREAZ22
**H/HESABI:** AZ80CTRE00000000000002138501
**Büdcə gəlirlərinin təsnifat kodu - 142340**
**Büdcə səviyyəsinin kodu - 7**

**İstirak haqqı heç bir halda qaytarılmır.**

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.
Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).
Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.
Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 28 noyabr 2019-cu il saat 18:00-dək qəbul olunur.
İddiaçıların təklifləri 29 noyabr 2019-cu il saat 10:00-da Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında açılacaqdır.

*Tender komissiyası*


# Beynəlxalq aləm

## Nyu Yorkda müsəlman polislər mükafatlandırıldı



ABŞ-ın Nyu York şəhərində müsəlman olan və xidmətdə fərqlənən polis əməkdaşlarının ənənəvi mükafatlandırılması mərasimi keçirilmişdir. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

Mərasim Nyu York Müsəlman Polisləri Cəmiyyətinin təşəbbüsü ilə ardıcıl olaraq 11-ci dəfə təşkil edilmişdir.

Şəhərin Kuins rayonunda Nyu York Polis Departamentinin (NYPD) əməkdaşları, siyasətçilər, müsəlman ölkələrinin diplomatları, qeyri-hökumət təşkilatlarının və dini icmaların nümayəndələri toplaşmışdılar.

Mərasimin əvvəlində "Qurani-Kərim"dən surələr oxunmuşdur. Polislərə mükafatlar dörd dərəcə üzrə təqdim edilmişdir: "Bütün həyatın nailiyyəti", "İlin polisi", "İlin vətəndaşı" və "İlin qəhrəmanı".

Nyu York Müsəlman Polisləri Cəmiyyətinin başçısı Adil Rananın dediyinə görə, "ABŞ-da müsəlmanlar digər vətəndaşlardan fərqlənmirlər. Onlar da başqa vətəndaşlar kimi bu ölkəyə xidmət edirlər. Bu tədbir onların töhfə verdiyinə dəlalət edir".

Hazırda 2 minədək polis əməkdaşı cəmiyyətin üzvüdür. Mərasimdə 700 nəfərədək adam iştirak etmişdir. Təşkilat rəhbərinin müavini Əli Həmmudoğlunun dediyinə görə, tədbirin məqsədi Amerika cəmiyyətinin müxtəlif təbəqələrini bir-birinə yaxınlaşdırmaqdır.

## Liviya sahilləri yaxınlığında 67 qaçqın batdı



Liviya sahillərinin yaxınlığında qaçqınları daşıyan kiçik gəminin batması nəticəsində 67 nəfər həlak olmuşdur. Bu barədə İtaliyanın ANSA agentliyi xəbər verir.

Yerli balıqçı "Alarmphone" saytına (Aralıq dənizi vasitəsilə Avropaya gəlmək istəyən qaçqınlara təcili yardım göstərmək üçün hüquq müdafiəçiləri tərəfindən yaradılmışdır) batan gəmidə 30 qaçqının xilas edildiyi barədə məlumat vermişdir.

Həmçinin xəbər verilir ki, balıqçılar Trablis sahillərinin yaxınlığında miqrantları suda aşkar etmişlər. Onlar Liviya sahil mühafizəsi idarəsi ilə əlaqə yarada bilməmişdilər.

## Türkiyənin pilotsuz təyyarələri Suriyada 7 terrorçunu məhv etdi

Suriyanın Eyn əl-Ərəb (Kobani) rayonunda pilotsuz uçuş aparatları YPG/PKK-nın 7 terrorçusunu zərərsizləşdirmişdir. Bu barədə Türkiyə Milli Müdafiə Nazirliyi məlumat vermişdir.

Məlumatda qeyd olunur ki, terrorçular "Sülh bulağı" əməliyyatı zonasında türkiyəli hərbi qulluqçulara hücum etmişdilər.

Xatırladaq ki, "Sülh bulağı" əməliyyatı ötən ayın 9-da Türkiyə ordusunun və müxalifətçi Suriya Milli Ordusunun iştirakı ilə Türkiyənin cənub sərhədlərində terror təhlükəsini aradan qaldırmaq və milyonlarla suriyalı qaçqının könüllü olaraq qayıdacağı təhlükəsizlik zonası yaratmaq məqsədilə başlamışdır.

Bu arada İraqın şimalında PKK-nın dörd terrorçusu Türkiyə təhlükəsizlik qüvvələrinə təslim olmuşdur. Onlardan biri Türkiyə Daxili İşlər Nazirliyinin antiterror siyahısının "boz" kateqoriyasına daxil idi.

## İtaliyada leysanlar və daşqınlar davam edir



İtaliya yenidən daşqınların əsarətindədir. Bu dəfə ölkənin şimal və mərkəzi hissələrində şəhərlər təbii fəlakətlə üz-üzə qalmışdır. Məlumata görə, güclü küləklə müşayiət olunan leysanlardan sonra Budrio və Genuya şəhərləri zərər çəkmişdir. Pis hava şəraiti yolların bağlanmasına və işıqların sönməsinə səbəb olmuşdur. İditse çayı məcrasından çıxmış, su yaxınlıqdakı əraziləri basmışdır.

Xilasedicilər yerli sakinlərin təxliyəsini davam etdirirlər. Emiliya-Romanya bölgəsində sarı təhlükə dərəcəsi qüvvədədir. Çaylarda su kritik səviyyəyə qalxmışdır.

## İdlibə hücum zamanı 12 dinc sakin həlak oldu



İranın dəstəklədiyi silahlı qruplar Suriyanın İdlib şəhərində məcburi köçkün düşərgələrinə hücum etmiş, nəticədə 12 dinc sakin həlak olmuşdur.

Ölənlərin əksəriyyəti uşaqlardır. Bu barədə TRT telekanalı xəbər verir. Azı 40 nəfərin yaralandığı bildirilir. Müxalifətin müşahidə mərkəzindən verilən məlumata görə, silahlı qruplar gərginliyin azaldılması zonasındakı Kax kəndində gizlənmiş köçkünləri minaatanlardan atəşə tutmuşlar. Xeyli çadıra ziyan dəymişdir.

## Danimarka və İsveç istedadların inkişafı üzrə liderlər sırasındadır

Danimarka və İsveç istedadların inkişafı üzrə reytinq cədvəlində İsveçrə ilə birlikdə lider mövqeyi tuturlar.

"Dünya Rəqabətqabiliyyətlilik Mərkəzi" şirkəti (IMD World Competitivness Center) tərəfindən tərtib olunmuş "Dünya istedadlar reytinqi" adlı hesabata istinadla xəbər verir.

Öz tədqiqatlarına əsaslanan şirkətin dünya istedadlar reytinqi metodologiyası bu sahədə rəqabətqabiliyyətliliyi üç əsas komponent - sərmayələr və inkişaf, cəlbedicilik və hazırlıq meyarları üzrə qiymətləndirir. Tədqiqatçıların hesablamalarına görə, İsveçrə "Dünya istedadlar reytinqi" cədvəlində liderdir, onun ardından isə Danimarka və İsveç qərarlaşıblar. Yüksək reytinq əldə edən ölkələr sırasında Avstriya, Lüksemburq, Norveç, İslandiya, Finlandiya, Niderland, Sinqapur, Almaniya, ABŞ, Kanada, Belçika və Honkonq da var. Adıçəkilən ölkələr istedadların cəlb edilməsi və inkişafı üzrə daha əlverişli şərait yaradıblar. "Dünya Rəqabətqabiliyyətlilik Mərkəzi" şirkətinin saytında qeyd olunur ki, ixtisaslı işçi qüvvəsinin cəlb edilməsi və saxlanılması rəqabət qabiliyyətinin artırılması baxımından həlledici amildir və ölkənin tərəqqisinə gətirib çıxarır. Hazırkı dinamik landşaftda, xüsusən süni intellekt, robot texnikası və başqa yeni texnologiyaların tətbiqi şəraitində hökumətlərin, ayrı-ayrı müəssisələrin, bütövlükdə cəmiyyətin qarşılaşdıqları problemləri məhz bu yolla həll etmək mümkündür.

Qeyd edək ki, reytinq cədvəlində ümumilikdə 96 ölkənin istedadların inkişafı üzrə səyləri qiymətləndirilib.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8909
Sifariş 3906
Qiyməti 40 qəpik